

100

1918
2018

ƏDLİYYƏ

# QANUNÇULUQ

## HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı



№ 11 noyabr 2018 / xüsusi buraxılış



**Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.**

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri**



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ
## hüquq jurnalı

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**



REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**



BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**





**Qaynar xətt**
**539-76-75**


# Mündəricat



## AZƏRBAYCAN ƏDLİYYƏSİ - 100


"Ədliyyə işçilərinin peşə bayramı gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 11 noyabr tarixli 566 nömrəli Sərəncamı ....4
Azərbaycan Respublikasının ədliyyə işçilərinə və hakimlərə ....4
"Azərbaycan Respublikası hakimlərinin və ədliyyə orqanları işçilərinin təltif edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 noyabr tarixli 712 nömrəli Sərəncamı ....5
"Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 noyabr tarixli 713 nömrəli Sərəncamı ....6
"Azərbaycan Respublikasının hakimlərinə və ədliyyə orqanları işçilərinə fəxri adların verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 noyabr tarixli 714 nömrəli Sərəncamı ....6
Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə ədliyyə işçilərinin müraciəti ....7
Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfrans ....10
Konfrans çərçivəsində ədliyyə naziri bir sıra beynəlxalq görüşlər keçirib ....16
Georq Stava: Azərbaycan Avropada məhkəmə sistemi sahəsində ən dinamik inkişaf edən ölkələrdəndir ....17
Fikrət Məmmədov. Azərbaycan ədliyyəsi bir əsrlik inkişaf yolunda ....18


## SƏMİMİ TƏBRİKLƏR


Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təbrik məktubları ....29


## MÜSAHİBƏ


Ədalət mühakiməsinin aparılması prosesinin rəqəmsallaşması dövrün tələbidir (Azərbaycan Respublikası ədliyyə nazirinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü Azər Cəfərovun müsahibəsi) ....50


## YUBİLEY TƏDBİRLƏRİ


Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə keçirilən tədbirlər ....56
Azərbaycan ədliyyəsinin 100 illik yubileyi paytaxtda və bölgələrdə geniş qeyd olunub ....70
Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunan əyani və metodiki vəsaitlər ....75

## YENİ QANUNLAR, FƏRMANLAR...

"Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 15 noyabr tarixli 1334-VQD nömrəli Qanunu ....76
"Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 15 noyabr tarixli 1334-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 noyabr tarixli 347 nömrəli Fərmanı ....83

"Qanunçuluq" jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x

Ədliyyə işçilərinin peşə bayramı gününün təsis edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının 1918-ci il 22 noyabr tarixli qərarı ilə Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq olunmasını əsas tutaraq **qərara alıram:**

1. Hər il 22 noyabr Azərbaycan Respublikası ədliyyə işçilərinin peşə bayramı günü kimi qeyd edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 11 noyabr 2000-ci il*
*N 566*

# Azərbaycan Respublikasının ədliyyə işçilərinə və hakimlərə

Hörmətli ədliyyə işçiləri və hakimlər!

Sizi Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi 1918-ci ildə təsis edilmiş Azərbaycan ədliyyəsi bir əsrlik mürəkkəb və şanlı inkişaf yolu keçmişdir.

Azərbaycanda ədliyyə sisteminin intibahı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrə təsadüf edir. Belə ki, bir neçə dəfə ləğv edilmiş Ədliyyə Nazirliyinin fəaliyyəti məhz Ulu Öndər tərəfindən 1970-ci ildə bərpa edilmiş, zəruri normativ sənədlər qəbul olunmuş və milli kadr hazırlığına xüsusi diqqət yetirilmişdir.

Azərbaycan Respublikası müstəqilliyini qazandıqdan sonra Ümummilli Liderin rəhbərliyi ilə Ədliyyə Nazirliyinin cəmiyyətdəki rolu və əhəmiyyəti artmış, müasir məhkəmə sistemi yaradılmış, məhkəmələrin müstəqilliyinin təmin olunması üçün mühüm addımlar atılmışdır.

Azərbaycanda ədliyyə orqanları və məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər bu gün də davam etdirilməkdədir. Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın təmin edilməsi məqsədilə "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında Sərəncam imzalanmış, test üsulu ilə şəffaf prosedurlar əsasında yeni hakim korpusu formalaşdırılmış, ədliyyə orqanlarının işi və göstərdiyi hüquqi xidmətlər yeni tələblər səviyyəsində qurulmuşdur. Son illərdə hakimlərin sayı əhəmiyyətli dərəcədə artırılmış, müasir məhkəmə kompleksləri inşa edilmiş, ədliyyə orqanları və məhkəmələrin maddi-texniki bazası gücləndirilmişdir.

Əminəm ki, ədliyyə və məhkəmə işçiləri qanunun aliliyinin, hər kəsin qanun qarşısında bərabərliyinin təmin olunması, vətəndaşların hüquqlarının qorunması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində səylərini bundan sonra da davam etdirərək Azərbaycan ədliyyəsinin inkişafına öz töhfələrini verəcəklər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 21 noyabr 2018-ci il*

Azərbaycan Respublikası hakimlərinin və ədliyyə orqanları işçilərinin təltif edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi münasibətilə və hakim vəzifəsini nümunəvi yerinə yetirdiklərinə, ədliyyə orqanlarında qulluq keçərkən fərqləndiklərinə, ədliyyə sistemində elm, səhiyyə sahələrinin inkişaf etdirilməsində və cəza-icra siyasətinin həyata keçirilməsində fəal iştiraklarına görə aşağıdakı şəxslər təltif edilsinlər:

**1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Məmmədov Fikrət Fərrux oğlu
Rzayev Ramiz Yaqub oğlu

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Cəfərov Azər Məmməd oğlu
Əliyev Məhərrəm Abış oğlu
Musayev Toğrul Sirac oğlu

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Əliyev Adil Şirməmməd oğlu
Qasımov Elçin Lütvəli oğlu
Mehdiyev Rəfail İbrahim oğlu
Məmmədov İlqar Kamil oğlu
Muradov Aslan Nüsrət oğlu
Yusifov Şahin Yaşar oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasov İlqar Eyvaz oğlu
Əkbərov Mübariz Dosməmməd oğlu
Əliyev Alı Yusif oğlu
Əliyev Kəramət Fətəli oğlu
Hacıyev Əfqan Niyətulla oğlu
Həsənov Həbib Bəhram oğlu
Xələfov Elçin Abuzər oğlu
İsayev Məhərrəm Əli oğlu
İsgəndərova İradə Həbib qızı
İsmayılov Eldar Herov oğlu
Kazımov Araz Nurəddin oğlu
Kərimov Səyyub Həsən oğlu
Məmmədov Fazil İbrahim oğlu
Məmmədov Hüseyn Məmməd oğlu
Muradov Hicran Xasay oğlu
Nəcəfov Mehdi Ağabala oğlu
Paşayev Tofiq Temir oğlu
Tağıyev Xəqani Qəhrəman oğlu
Vəliyev Hümmət Telman oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Abasquliyev İlham Aydın oğlu
Bəşirova Aygün Rafiq qızı
Cəfərov Anar Ələmşah oğlu
Cəfərov Azər Vəliyulla oğlu
Fərəcova Aybəniz Məhərrəm qızı
Fərzəliyev Rəşad Xaliyəddin oğlu
Hadıyeva Güney İmran qızı
Həsənov Rasim Aydın oğlu
Hüseynov Kamal Eldar oğlu
İbrahimov Elnur Elman oğlu
Qafarov Fikrət Məhəmməd oğlu
Qədirova Səbinə Mübariz qızı
Qənbərov Natiq Zərbi oğlu
Məmmədov Xaqani Əli oğlu
Məmmədov İlqar Həbib oğlu
Məmmədova Səbinə Firudin qızı
Nağıyev Həsən Xanəli oğlu
Nəbiyeva Firuzə Mansur qızı

Nəcəfov İlkin Abdulxeyir oğlu
Paşayev Qədir Gülnəzər oğlu
Rzayev Gülmalı Umud oğlu
Sadıqov Xəqani Şababa oğlu
Salmanlı Şəfəq Yaqub qızı
Seyidov Mirsaleh Miradil oğlu
Şahbazov Xalıq Həsən oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 20 noyabr 2018-ci il*
*N 712*

---

## Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Ceyhun Əkbər oğlu Həsənova **ədliyyə general-leytenantı ali xüsusi rütbəsi** verilsin.

2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin aşağıdakı əməkdaşlarına **III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi** verilsin:

Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Adil Fazil oğlu Əbilova

Bələdiyyələrlə iş mərkəzinin rəisi Zahir Məmməd oğlu Əlizadəyə

İcra baş idarəsinin rəisi Nurəddin Yusif oğlu Mustafayevə.

3. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidməti rəisinin müavinləri Məhərrəm Allahverdi oğlu Qafarova və Oqtay İlyas oğlu Məmmədova **ədliyyə general-mayoru ali xüsusi rütbəsi** verilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 20 noyabr 2018-ci il*
*N 713*

---

## Azərbaycan Respublikasının hakimlərinə və ədliyyə orqanları işçilərinə fəxri adların verilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi münasibətilə və Azərbaycan Respublikasının məhkəmə və ədliyyə orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar hüquqşünas"**

Cavadov Fuad Musa oğlu
Mirzəliyev Əsəd Abdulla oğlu
Nəsibov Hafiz Qənbər oğlu
Zahirov Vilayət Həsən oğlu

**"Əməkdar mühəndis"**

Məmmədov Çingiz Ələddin oğlu

**"Əməkdar hakim"**

Qurbanov İftixar İlham oğlu

**"Əməkdar tibb işçisi"**

Əsgərov Səttar Ələsgər oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 20 noyabr 2018-ci il*
*N 714*

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə ədliyyə işçilərinin

# M Ü R A C İ Ə T İ

**Möhtərəm cənab Prezident!**

Bu gün ədliyyə işçiləri 22 noyabr - peşə bayramı gününü və Azərbaycan ədliyyəsinin 100 illik yubileyini təntənəli qeyd edir, bu bayramı bizlərə bəxş etmiş müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dahi öndər Heydər Əliyevin əziz xatirəsini böyük ehtiramla yad edirlər.

Azərbaycan ədliyyə sistemi xüsusi diqqət və qayğınız nəticəsində uğurla öz inkişafının yeni mərhələsini yaşayır, işimizin yüksək tələblərinizə uyğun olaraq təkmilləşdirilməsi, fəaliyyətimizdə müasir texnologiyaların tətbiqi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə ardıcıl tədbirlər görülür.

Yubiley münasibətilə hazırlanmış və Azərbaycan ədliyyəsinin zəngin və keşməkeşli tarixi inkişaf mərhələlərinə həsr olunan kitabda Ədliyyə Nazirliyinin dövlət strukturu kimi yenidən və əsaslı surətdə ümummilli liderimiz Heydər Əliyev tərəfindən 1970-ci ildə təsis edilməsi, müstəqillik illərində dahi öndərin başladığı mütərəqqi ədliyyə islahatlarının rəhbərliyinizlə davamlı prosesə çevrilməsi xüsusi yer almışdır.

Ölkəmizdə ədliyyə və məhkəmə islahatlarının aparılması üçün göstərdiyiniz güclü siyasi iradə və məhkəmə hakimiyyətinə verdiyiniz müstəsna dəstək nəticəsində əldə edilmiş nailiyyətləri Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfransda xarici tərəfdaşlarımızın qeyd etməsi və Avropa dövlətlərinə örnək göstərməsi böyük iftixar hissi doğurur.

Yubiley ərəfəsində ədliyyə işçilərinə və hakimlərə ünvanladığınız təbrik, bizləri orden və medallarla təltif etməyiniz, fəxri adlara və ali xüsusi rütbələrə layiq bilməyiniz peşə bayramı və yubileyimizi xüsusilə əlamətdar etmiş, yüksək ehtiram və minnətdarlıq hissləri doğurmuş, hər birimizi daha əzmlə çalışmağa səfərbər etmişdir.

**Möhtərəm cənab Prezident!**

Sizi əmin edirik ki, dövlətimizin qüdrətlənməsində fədakar əməyinizi özünə örnək bilən ədliyyə işçiləri Zati-alilərinizin rəhbərliyi ilə müstəqil Azərbaycanımızın hərtərəfli inkişafı və müasirləşməsi naminə yorulmaz fəaliyyətinizdə bundan sonra da Sizə daim layiqli yardımçı olacaq, sədaqət və əzmlə çalışaraq demokratik hüquqi dövlət quruculuğu prosesində əllərindən gələni əsirgəməyəcəklər.

**Dərin hörmət və ehtiramla,**

*Azərbaycan Respublikası ədliyyə işçiləri adından*

**Fikrət MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının ədliyyə naziri,**
**Məhkəmə-Hüquq Şurasının sədri**
*Bakı şəhəri, 22 noyabr 2018-ci il*

---

Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə ədliyyə orqanlarında təltif vasitələri olan yubiley medalı və xatirə nişanının təsvirləri nəfis şəkildə işlənilərək hazırlanmış və Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli Qanunu ilə "Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı təsis edilmiş, Ədliyyə Nazirliyi Kollegiyasının Qərarı ilə xatirə nişanı təsdiq olunmuşdur. Həmin təltif vasitələrinin təsvirləri oxucularımıza təqdim olunur.




**"Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı (solda) və Azərbaycan Ədliyyəsinin 100 illik yubileyi xatirə nişanı (sağda)**

**Peşə bayramı gününü ədliyyə işçilərinə bəxş etmiş Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə əbədi ehtiramın əlaməti olaraq nazirliyin rəhbərliyi və kollektivi, hakimlər Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ərəfəsində Fəxri Xiyabanda Ulu Öndərin məzarını ziyarət edib, abidəsi önünə əklil qoyublar.**










**Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş Vətən övladlarının məzarlarını ziyarət**












# Azərbaycan ədliyyəsinin BEYNƏLXALQ

**Ümummilli lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə təsis edilmiş 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı bu il Azərbaycan ədliyyəsinin 100 illik yubileyi əlamətdar olmaqla ədliyyə işçiləri tərəfindən ikiqat sevinc hissi ilə təntənəli qeyd olunur.**

Yubiley münasibətilə nazirliyin bütün struktur qurumlarında silsilə tədbirlər, o cümlədən "açıq qapı" günü, dəyirmi masa, ictimai təqdimat və digər yığıncaqlar, universitetlərdə və orta məktəblərdə açıq dərslər, mühazirələr, kütləvi idman yarışları (futbol, voleybol, şahmat) və intellektual oyunlar, veloyürüş, könüllü qanvermə və ağacəkmə aksiyaları təşkil olunub, ədliyyə veteranlarına, uşaq evlərinə baş çəkilib, yeni qulluğa qəbul olunan gənclərlə görüşlər keçirilib. Bu ərəfədə Zaqatalada ədliyyə orqanları və rayon məhkəməsi üçün yeni müasir binanın açılışı həyata keçirilib, bəzi struktur qurumlara xidməti istifadə üçün Azərbaycanın milli istehsalı olan yeni avtomobillər təqdim olunub, ədliyyə işçilərinə bayram sovqatları, mükafatlar verilib.

Eyni zamanda, nazirlik tərəfindən Azərbaycan ədliyyəsinin 100 illik tarixinə dair xüsusi kitab, ədliyyənin rəmzləri barədə toplu, nazirliyin müasir fəaliyyətinə, o cümlədən məhkəmə-hüquq islahatları, beynəlxalq hüquq əlaqələri barədə müxtəlif dillərdə toplular, broşüralar, bukletlər və digər maarifləndirici vəsaitlər, o cümlədən video-çarxlar, yubileyə həsr olunmuş ayrıca film və xüsusi ekspozisiyalardan ibarət stendlər



# 100 illiyinə həsr olunmuş KONFRANS

hazırlanıb. Nazirliyin rəhbərliyi, ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çoxsaylı çıxışlar edilib.

Bu bayramı ədliyyə işçilərinə bəxş etmiş ümummilli lider Heydər Əliyevə əbədi ehtiramın əlaməti olaraq nazirliyin rəhbərliyi və kollektivi, hakimlər yubiley ərəfəsində Fəxri xiyabanda Ulu Öndərin əziz xatirəsini yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarının üstünə də tər güllər düzülüb. Ədliyyə işçiləri Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarında keçmiş Vətən övladlarının məzarlarını da ziyarət ediblər.

Noyabrın 22-də Azərbaycan ədliyyəsinin 100 illiyi münasibətilə Bakıda "Abşeron Marriott" mehmanxanasında "Azərbaycan ədliyyəsinin bir əsrlik inkişaf yolu" mövzusunda beynəlxalq konfrans keçirilib.

Yubiley tədbirində iştirak etmək üçün Türkiyənin ədliyyə naziri Abdulhamit Gül tərkibi nazirliyin rəhbər şəxslərindən və qardaş ölkənin millət vəkillərindən ibarət mötəbər nümayəndə heyət ilə, Belarusun ədliyyə naziri Oleq Slijevski, Gürcüstan ədliyyə nazirinin birinci müavini Mikheil Sarjveladze, Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) prezidenti Georq Stava ölkəmizdə səfərdə olublar.

Konfransda həmçinin, ölkəmizin aidiyyəti qurumlarından 110-dan çox nümayəndə, o cümlədən ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, Prezidentin Hüquq mühafizə

orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Ali Məhkəmənin sədri Ramiz Rzayev, Baş prokuror Zakir Qaralov, daxili işlər naziri Ramil



Usubov, millət vəkilləri, Məhkəmə-Hüquq Şurasının üzvləri, hakimlər, Vəkillər Kollegiyasının, Milli Elmlər Akademiyasının, Bakı Dövlət Universitetinin məsul şəxsləri, alimlər, gənclər, vətəndaş cəmiyyətinin nümayəndələri və media təmsilçiləri iştirak ediblər.

Tədbiri giriş nitqi ilə açan nazir F.Məmmədov tədbirdə iştirak edən dəyərli qonaqları salamlayıb, Azərbaycan ədliyyəsinin 100 illiyi münasibətilə




bütün ədliyyə və məhkəmə orqanları işçilərini təbrik edib, konfransın hüquqi dövlətdə ədliyyə sisteminin, Azərbaycan ədliyyəsinin formalaşmasına, inkişafına və qarşıda duran yeni çağırışlara həsr olunduğunu bildirib.

Nazir ölkə Prezidenti cənab İlham Əliyevin yubiley münasibətilə böyük bir qrup ədliyyə işçisini və hakimləri orden və medallara, fəxri adlara layiq bilməsini və ali xüsusi rütbələrin verilməsini, ədliyyə və məhkəmə işçilərinə təbrik məktubunu dərin minnətdarlıq hissi ilə qarşılanmaqla Azərbaycan ədliyyəsinə qayğısının növbəti təzahürü olduğunu vurğulayıb. Bildirib ki, bu yüksək etimadı doğrultmaq üçün ədliyyə işçiləri bundan sonra daha əzmlə və məsuliyyətlə çalışmağı özlərinin vəzifə borcu sayırlar.

Dövlətimizin başçısı İlham Əliyevin Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasi-



bətilə ədliyyə və məhkəmə işçilərinə ünvanladığı təbrik məktubunu Prezidentin köməkçisi F.Ələsgərov oxuyub. Müraciətdə Azərbaycan ədliyyəsinin keçdiyi 100 illik yoldan bəhs olunaraq ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Ədliyyə Nazirliyinin cəmiyyətdəki rolu və əhəmiyyətinin artdığı, müasir məhkəmə sisteminin yaradıldığı, məhkəmələrin müstəqilliyinin təmin olunması üçün mühüm addımlar atıldığı vurğulanır, Azərbaycanda ədliyyə orqanları və məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlərin bu gün də davam etdirildiyi qeyd olunur, ədliyyə və məhkəmə işçilərinin Azərbaycan ədliyyəsinin inkişafına bundan sonra da öz töhfələrini verəcəklərinə əminlik ifadə olunur.

Açılışda Ali Məhkəmənin sədri R.Rzayev çıxış edərək Azərbaycan ədliyyəsi və məh-



kəmə sisteminin qurulması tarixindən və inkişaf yolundan, ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin bütün dövrlərində ədliyyə və məhkəmə sisteminə göstərdiyi diqqət və qayğıdan bəhs edib.

Sonra məruzə və çıxışlar dinlənilib. Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov "Azərbaycan ədliyyəsi 100: təkamül və yeni çağırışlar" mövzusunda geniş məruzə ilə çıxış edib.



Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqının zəngin ədliyyə tarixindən bəhs edən nazir ədliyyə işinə hələ qədim dövrlərdə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərdə xüsusi diqqət yetirildiyini, ədliyyənin şanlı tarixinin

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə başladığını diqqətə çatdırıb.

Bildirib ki, 1918-ci il mayın 28-də dövlətin qurulması ilə eyni gündə təsis olunan Ədliyyə Nazirliyi Cümhuriyyətin mövcud olduğu 23 ay ərzində ölkənin hüquq sisteminin, ədliyyə və məhkəmə fəaliyyətinin bərpası və təkmilləşdirilməsi, dövlət dili olan Azərbaycan dilini bilən şəxslərin işə cəlb olunması, mühüm qanun layihələrinin hazırlanması, penitensiar xidmətin nazirliyin tabeliyinə verilməklə həbsxana işinin demokratik norma və priniplərə uyğun qurulması istiqamətində tarixi



xidmətər göstərib.

Sovet hakimiyyətinin ilk illərində ədliyyə orqanlarının iki dəfə ləğv edilərək yenidən yaradılmasını, fasilələrlə fəaliyyət göstərməsini ədliyyə tarixinin keşməkeşli dövrü adlandıran nazir F.Məmmədov Azərbaycan ədliyyəsinin sabit və davam inkişafının yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin respublika rəhbərliyinə gəlişindən sonrakı dövrə - 1970-ci ilə təsadüf etdiyini vurğulayıb, müstəqillik illərində Ulu Öndərin demokratik hüquqi dövlət quruculuğu, müasir hüquq sistemimizin inkişafı istiqamətində müstəsna xidmətlərini qeyd edib. Bildirib ki, yeni üçpilləli müstəqil məhkəmə hakimiyyətinin bərqərar edilməsi, ədliyyə orqanlarının müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi ümummilli liderin adı ilə bağlıdır.



Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə 2003-cü ildən Azərbaycan ədliyyəsinin inkişafında yeni mərhələnin başlandığını deyən ədliyyə naziri ötən dövrdə ədliyyə və məhkəmə sistemində aparılan islahatlar, əldə olunan nailiyyətlər və tətbiq olunan yeniliklər barədə ətraflı məlumat verib, nazirliyin ayrı-ayrı istiqamətləri üzrə həyata keçirilən genişmiqyaslı tədbirlər əyani təqdimatla iştirakçıların diqqətinə çatdırılıb.



Konfransda Ədliyyə Nazirliyi tərəfindən yubiley münasibətilə hazırlanmış ədliyyənin tarixi və müasir fəaliyyətindən bəhs edən "Azərbaycan ədliyyəsi davamlı inkişaf yolunda" xüsusi kitabın Milli Məclisin üzvü, Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov tərəfindən ictimai təqdimatı olub.

Əyani təqdimat zamanı məlumat verilib ki, Azərbaycan ədliyyəsinin 100 illik tarixinə qiymətli töhfə olan bu kitabda xalqımızın ədliyyə tarixi ən qədim zamanlardan başlayaraq yaşadığımız günlərədək ətraflı tədqiq edilib. Azərbaycan ədliyyəsinin Xalq Cümhuriyyəti dövrünün ayrıca təqdim olunması, sovet hakimiyyəti dövründə və müstəqillik illərində ulu öndər Heydər Əliyevin Azərbaycan ədliyyəsinin inkişafında misilsiz xidmətlərinin geniş işıqlandırılması təq-



dirəlayiq olduğu vurğulanıb. Həmçinin bildirilib ki, müasir mərhələdə ölkə Prezidenti cənab İlham Əliyevin apardığı ədliyyə və məhkəmə-hüquq islahatlarına dair verilən zəngin material həm azərbaycanlı oxucular üçün, həm də Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılması baxımından çox qiymətlidir.

Akademik Y.Mahmudov olduqca illüstrasiya materialı ilə zəngin olan "Azərbaycan ədliyyəsi davamlı inkişaf yolunda" kitabının işıq üzü görməsini ədliyyə tariximizin bütöv halda sistemli şəkildə araşdırılması baxımından mühüm hadisə kimi dəyərləndi-

rib, ədliyyə və məhkəmə-hüquq tariximizə sanballı töhfə və oxucular üçün dəyərli vəsait olduğunu vurğulayıb.

Sonra Türkiyənin ədliyyə naziri Abdulhamit Gül "Türkiyənin məhkəmə sistemi müasir inkişaf mərhələsində" mövzusunda çıxış edib, Azərbaycanın ədliyyə sahəsində böyük uğurlar qazandığını bildirərək, bu münasibətlə təbrik edib.



"Türkiyə və Azərbaycan iki dost və qardaş ölkə, bir millət, iki dövlətdir. Xüsusilə Qafqazda davamlı sülh, sabitlik və inkişafın təmin edilməsi üçün ölkələrimiz arasında həmrəylik vacibdir. Türkiyə və Azərbaycan gücünü ortaq tarixdən alan bir-birinə bağlı olan ölkələrdir. Həm ikitərəfli, həm də regional məsələlərdə əməkdaşlığı və həmrəyliyimizi genişləndirməyə qərarlıyıq. İki ölkə prezidentləri arasında yaxın münasibətlər, ziyarətlər ölkələrimiz arasındakı münasibətlərin bir göstəricisidir" - deyən ədliyyə naziri Abdulhamit Gül əlaqələrin inkişaf etdirilməsində maraqlı olduğunu söyləyib, Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təbriklərini çatdırıb.



"Belarus Respublikasının ədliyyə sisteminin inkişafı: vəzifələr, nailiyyətlər, tendensiyalar" mövzusunda çıxış edən Belarusun ədliyyə naziri Oleq Slijevski ötən il ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair imzalanmış Sazişin implementasiyası çərçivəsində təcrübə mübadiləsinin uğurla davam etdirildiyini bildirib, Belarus ədliyyə sisteminin fəaliyyəti barədə məlumat verərək qeyd edib ki, iki ölkənin ədliyyə orqanları arasında fəaliyyətlər bənzərdir və qarşımızda ümumi hədəflər durur.



CEPEJ-in prezidenti Georq Stava "Azərbaycan və CEPEJ: inkişaf üçün əməkdaşlıq" mövzusunda çıxış edərək ölkəmizlə səmərəli əlaqələri vurğulayıb, son illər Azərbaycanda məhkəmə-hüquq sistemində yüksək uğurlara nail olunduğunu, İKT-lərin və elektron məhkəmənin tətbiqi, infrastrukturun müasirləşdirilməsi sahəsində Azərbaycanın ön sıralarda olduğunu vurğulayıb. O, həmçinin jurnalistlərə müsahibəsində Azərbaycanda məhkəmə sistemində həyata keçirilən layihələrin digər dövlətlərə örnək kimi təqdim olunduğunu və artıq Avstriyanın Azərbaycanın bu sahədə təcrübəsindən istifadə etdiyini vurğulayıb.





Konfransda Gürcüstanın ədliyyə nazirinin birinci müavini Mikheil Sarjveladzenin "Gürcüstanın ədliyyə sektorunda islahatlar - güclü qanunun aliliyi və demokratiyaya doğru irəliləyiş", Milli Məclisin üzvü, Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin sədri Əli Hüseynlinin "Hüquq sisteminin inkişafında müasir qanunvericilik bazasının rolu", Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırovun "Ədalət mühakiməsinin həyata keçirilməsi işində vəkilliyin rolu", Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı Əmir Əliyevin "Əd-



liyyə və məhkəmə sistemi üçün hüquqşünas kadrların hazırlanması" və Azərbaycan Milli QHT Forumunun prezidenti Rauf Zeyninin "Ədliyyə fəaliyyətində ictimai iştirakçılıq" mövzularında çıxışları dinlənilib, müzakirələr, faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Yekunda ədliyyə işçiləri adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət ünvanlanıb.

Həmin gün Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunan təntənəli qəbul təşkil olunub. Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başlanan qəbulda yubiley münasibətilə hazırlanmış Azərbaycan ədliyyəsinin bir əsrlik inkişaf yolundan bəhs edən xüsusi film nümayiş etdirilib, mədəni proqram təşkil olunub.



















# Konfrans çərçivəsində ədliyyə naziri bir sıra beynəlxalq görüşlər keçirib



Türkiyənin ədliyyə naziri Abdulhamit Gül ilə görüş

**Azərbaycan ədliyyəsinin 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan ədliyyəsinin bir əsrlik inkişaf yolu" mövzusunda keçirilmiş beynəlxalq konfransda iştirak etmək üçün Türkiyənin ədliyyə naziri Abdulhamit Gül, Belarusun ədliyyə naziri Oleq Slijevski, Gürcüstan ədliyyə nazirinin birinci müavini Mikheil Sarjveladze, Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) prezidenti Georq Stava ölkəmizdə səfərdə olublar.**

Qonaqlar konfransda çıxış edərək hüquqi dövlətdə ədliyyə sisteminin mühüm rolunu, Azərbaycan ədliyyəsinin davamlı inkişafını və əldə etdiyi nailiyyətləri, ölkələrimiz arasında hüquqi sahədə əməkdaşlığın səmərəsini, faydalı təcrübə mübadiləsinin aparılmasını vurğulayıb, tədbirin yüksək səviyyədə təşkil olunduğu qeyd edərək Azərbaycan ədliyyəsinin 100 illiyi münasibətilə təbriklərini ifadə ediblər. CEPEJ-in prezidenti, həmçinin qeyd edib ki, ölkəmiz Avropa dövlətləri arasında məhkəmə sahəsində ən dinamik inkişaf edən dövlətlərdəndir və müasir məhkəmə infrastrukturunun yaradılması, məhkəmə sistemində qabaqcıl İKT-lərin tətbiqi və məhkəmələrdə elektron əlçatanlığın artırılması sahəsində ön sıralarda dayanır. O, bu sahədə həyata keçirilən layihələrin digər dövlətlərə örnək kimi təbliğ olunduğunu bildirib, artıq Azərbaycanın müsbət təcrübəsindən bir çox dövlətlərin, o cümlədən Avstriyanın istifadə etdiyini vurğulayıb.



Belarusun ədliyyə naziri Oleq Slijevski ilə görüş

Konfrans çərçivəsində Türkiyə və Belarus ədliyyə nazirləri, Gürcüstanın ədliyyə nazirinin birinci müavini və CEPEJ-in prezidenti ilə respublikamızın ədliyyə naziri Fikrət Məmmədovun görüş-



Gürcüstanın ədliyyə nazirinin birinci müavini Mikheil Sarjveladze ilə görüş

ləri keçirilib.

Görüşlərdə qonaqlar dostluq və səmərəli əməkdaşlıq münasibətlərinin yüksək səviyyəsini qeyd edib, qarşılıqlı fəaliyyətin inkişafından məmnunluqlarını ifadə edib, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə sistemində aparılan islahatlara böyük maraq göstərərək əldə olunan nailiyyətləri təqdir edib, bu sahədə ölkəmizin müsbət təcrübəsinin digər dövlətlərə nümunə olduğunu vurğulayıblar.



*CEPEJ-in prezidenti Georq Stava ilə görüş*

Həmçinin, əməkdaşlığın perspektivlərinə dair faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Tədbirlərdə respublikamızın Baş prokuroru Zakir Qaralov və digər məsul şəxslər iştirak ediblər.

# Georq Stava: Azərbaycan Avropada məhkəmə sistemi sahəsində ən dinamik inkişaf edən ölkələrdəndir

**Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Komissiyasının (CEPEJ) vəzifələrindən biri Avropada məhkəmə sistemlərinin fəaliyyətinin qiymətləndirilməsidir. Azərbaycan Avropa dövlətləri arasında bu sahədə ən dinamik inkişaf edən ölkələrdəndir.**

Bu sözləri noyabrın 22-də Bakıda Azərbaycan ədliyyəsinin 100 illik yubileyinə həsr olunan "Azərbaycan ədliyyəsinin bir əsrlik inkişaf yolu" mövzusunda beynəlxalq konfransda iştirak edən CEPEJ-in prezidenti Georq Stava jurnalistlərə müsahibəsində deyib.



G.Stava bildirib ki, bu gün Azərbaycanda sürətli iqtisadi inkişaf müşayiət olunur. Bununla bağlı məhkəmələrdə mülki sahədə işlərin sayı da artır. Bu da Azərbaycan məhkəmə sisteminin daha da müasirləşdirilməsini şərtləndirir. Ölkənizdə bu sahədə böyük layihələr həyata keçirilir. Azərbaycan artıq bir neçə sahədə, xüsusilə müasir məhkəmə infrastrukturunun yaradılması, məhkəmə sistemində qabaqcıl informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və məhkəmələrdə elektron əlçatanlığın artırılması sahələrində ön sıralardadır. Eyni zamanda, məhkəmə fəaliyyətinin qiymətləndirilməsi üçün sizin ölkənizdə xüsusi sistem yaradılıb ki, o da məhkəmə sədrlərinin proses barədə təhlillər aparmasına imkan verir. Bütün bu misallar artıq Avropada müsbət təcrübə kimi qiymətləndirilib və digər ölkələrə örnək kimi təbliğ olunur.

# Azərbaycan ədliyyəsi bir əsrlik inkişaf yolunda



**Fikrət MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının ədliyyə naziri**
**I dərəcəli dövlət ədliyyə müşaviri,**
**Məhkəmə-Hüquq Şurasının sədri**

*Ümummilli lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə təsis edilmiş 22 noyabr ədliyyə işçilərinin peşə bayramı bu il Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ilə əlamətdar olmaqla ədliyyə işçiləri tərəfindən ikiqat sevinc hissi ilə təntənəli qeyd olunur. Ulu Öndərin "tariximizin hər səhifəsi bizim üçün əzizdir" fikrinə sadiq qalaraq yubiley günündə Azərbaycan ədliyyəsinin tarixindən və zəngin inkişaf yolundan bəhs etmək olduqca fərəhlidir.*

Azərbaycan ərazisində qədim dövrlərdə yaranmış dövlətlərdə ədliyyə işinə xüsusi diqqət yetirilmişdir. Məhkəmələrin fəaliyyətində çoxpillələlik, müstəqillik, tərəflərin bərabərliyi və çəkişmə prinsiplərinin elementləri mövcud olmuşdur. Həmçinin məhkəmə presedentlərindən istifadə edilmiş, hakim olmaq üçün tələblərə və onların təminatına xüsusi əhəmiyyət verilmişdi.

XIII-XIV əsrlərdə Azərbaycanda Qazan xan tərəfindən hüquqi sahədə həyata keçirilən islahatlar məhkəmələrin müstəqilliyinin təmin olunmasına, onların kənar müdaxilədən qorunmasına, işlərə baxılarkən ədalətin gözlənilməsinə yönəlmişdi. Həmin dövrlərdə tərəflər arasında vasitəçilik, başqa sözlə müasir mediasiya institutunun elementlərindən istifadə edilməsi olduqca maraqlıdır.

Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə ədliyyə tarixmizin yeni, şərəfli səhifəsi açılmışdır. Milli dövlət quruculuğunda ədliyyə fəaliyyətinə böyük önəm verilərək nazirlik Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı gün - 1918-ci ilin may ayının 28-də təsis edilmiş və öz arxitekturası ilə Bakıya gözəllik verən, hazırda Səadət Sarayı adlanan binada fəaliyyət göstərmişdir.







*Ədliyyə Nazirliyinin ilk binası, ilk ədliyyə naziri Xəlil bəy Xasməmmədov və nazirliyin ilk Əsasnaməsi, 1918-ci il*


ВЫПИСКА


ДѢЛО
МИНИСТЕРСТВА ЮСТИЦІИ

Məhkəmə orqanlarının fəaliyyətinin bərpa olunması, Ədliyyə Nazirliyi nəzdində müvəqqəti hüquq kurslarının və hüquq kitabxanasının təsis edilməsi, penitensiar sistemin Daxili İşlər Nazirliyindən Ədliyyə Nazirliyinin tabeliyinə verilməsi barədə qərarlar, 1918-1919-cu illər


ВЫПИСКА
СЛУШАЛИ:
ПОСТАНОВИЛИ:



Təcrübəli dövlət xadimi Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuş və həmin ilin noyabr ayının 22-də - bu gün peşə bayramı kimi qeyd etdiyimiz gündə nazirliyin Əsasnaməsi təsdiq edilmişdir.

Bu dövrdə Çar Rusiyasından miras qalmış ədliyyə sistemi iflic vəziyyətində olduğundan nazirlik öz işinə ilk növbədə ədliyyə, məhkəmə və istintaq strukturlarının bərpası ilə başlamışdır.

Kadrların hazırlanması məqsədilə hüquq kursları təsis edilmiş, qısa müddət ərzində Azərbaycan məhkəmə palatası yaradılmış, Bakı dairə məhkəməsinin və onun tərkibində prokurorluğun fəaliyyəti bərpa olunmuşdur. Dövlət dilimizin geniş tətbiqinin təmin olunması məqsədilə Azərbaycan dilini bilən şəxslərin işə cəlb edilməsi üzrə tədbirlər görülmüşdür.

Ədliyyə Nazirliyi tərəfindən həmin dövr üçün ən mütərəqqi hesab edilən mühüm qanun layihələri, o cümlədən məhkəmə və istintaq fəaliyyəti, rüşvətxorluğa görə cəzaların gücləndirilməsi, amnistiyanın elan edilməsi, vətəndaşlıq barədə, habelə ictimai və dövlət əhəmiyyətli digər layihələr hazırlanaraq parlamentin müzakirəsinə çıxarılmışdır.

Həbsxana işinin demokratik norma və prinsiplərə uyğun qurulması məqsədilə 1919-cu ildə penitensiar xidmət Daxili İşlər Nazirliyinin tabeliyindən çıxarılaraq Ədliyyə Nazirliyinə verilmişdir.

Vəziyyətin mürəkkəbliyinə, ixtisaslı kadrların məhdudluğuna baxmayaraq ədliyyə işçiləri məhkəmə və hüquq sisteminin inkişafı naminə ölkənin süqutuna qədər şərəflə çalışmışlar.

1920-ci ilin aprel ayında Azərbaycan işğal edildikdən sonra milli dövlətçiliyin əsas sütunlarından olan Ədliyyə Nazirliyi də ləğv edilmişdir. Ədliyyə sistemində sovetlər birliyinin mahiyyətinə xas olan dəyişikliklər aparılaraq Xalq Ədliyyə Komissarlığı yaradılmış, ədliyyə və məhkəmə orqanlarından repressiya aləti kimi istifadə olunmuş, nazirlik 2 dəfə ləğv edilərək uzun illər fəaliyyət göstərməmiş, onun səlahiyyətləri ayrı-ayrı qurumlar arasında bölüşdürülmüşdür. Sabit struktura malik olmaması ədliyyə sisteminin inkişafına ciddi əngəllər törətmişdir.

Ölkəmizdə ədliyyə sisteminin təşəkkülü və ümumiyyətlə Ədliyyə Nazirliyinin əsaslı surətdə təsis edilməsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, dahi öndər Azərbaycana rəhbərlik etdiyi dövrdə - 1970-ci ildə Ədliyyə Nazirliyi dövlət strukturu kimi bərpa olunmuş, bununla da Azərbaycan ədliyyə tarixində yeni mərhələ başlanmışdır.

Ədalət, qanunçuluq və





ПОСТАНОВЛЕНИЕ

ЦК КП Азербайджана и Совета Министров Азербайджанской ССР

О мерах по улучшению работы судебных и прокурорских органов

(Постановление ЦК КПСС и Совета Министров СССР от 30 июля 1970 года № 634).

Центральный Комитет КП Азербайджана и Совет Министров Азербайджанской ССР постановляют:

...В целях повышения уровня государственного руководства судами и другими учреждениями юстиции и дальнейшего совершенствования их деятельности, осуществления методического руководства правовой работой в народном хозяйстве, а также улучшения работы по систематизации и подготовке предложений о кодификации законодательства признать целесообразным образовать союзно-республиканское Министерство юстиции Азербайджанской ССР.

Одобрить проект Указа Президиума Верховного Совета АзербССР "Об образовании союзно-республиканского Министерства юстиции Азербайджанской ССР". В связи с этим признать целесообразным упразднить Юридическую комиссию Совета Министров Азербайджанской ССР.

Одобрить проект Указа Президиума Верховного Совета Азербайджанской ССР "Об упразднении Юридической комиссии Совета Министров Азербайджанской ССР".

*Məhkəmə və prokurorluq orqanlarının işinin yaxşılaşdırılması haqqında Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin Qərarı, 1970-ci il*

hüquq qaydalarının təminatına hər zaman üstünlük verən Heydər Əliyev "ədaləti ədalətsizliklə bərpa etmək olmaz" - deyərək qanunun aliliyini əsas meyar kimi müəyyənləşdirmiş, cinayətkarlığa, rüşvətxorluğa qarşı SSRİ məkanında ilk dəfə aşkar və cəsarətli çıxış edərək, barışmaz münasibət nümayiş etdirmiş, insanlara hüquqi xidmətlərin yaxşılaşdırılmasını əsas prioritetlərdən biri kimi müəyyən etmişdi.

Bu baxımdan Ədliyyə Nazirliyinin də həmin dövrdə təşəkkülünü təbii hesab etmək olar. Bu illərdə Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərərək məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı, notariat fəaliyyəti və məhkəmə ekspertizasının aparılmasını, hüquqi biliklərin təbliğini təmin etmişdir.

1972-ci ildə Ədliyyə Nazirliyinin əsasnaməsi təsdiq edilmiş, ədliyyə işinin gələcək inkişafı üçün zəmin yaranmışdı. Həmin dövrdə nazirlik qanunların sistemləşdirilməsi və məcəlləşdirilməsi, hüquqi biliklərin artırılması, məhkəmələrə təşkilati, eləcə də notariat, məhkəmə ekspertizası, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı və vəkillik fəaliyyətinə rəhbərliyi həyata keçirmək səlahiyyətlərinə malik olmuşdur.

1991-ci ildə xalqımız müstəqilliyini bərpa etsə də, ölkəmiz naşı siyasətçilərin vəzifə çəkişməsi, qeyri-ardıcıl, səriştəsiz siyasət, vətəndaş qarşıdurması, erməni təcavüzü nəticəsində müstəqilliyinin yenidən itirilməsi təhlükəsi ilə üzüzə qalmışdı. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qeyd etdiyi kimi, "Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində Heydər Əliyev hakimiyyətdə deyildi. Əgər olsaydı, biz böyük itkilərlə üzləşməzdik".

Məhz belə ağır bir vəziyyətdə xalqın təkidli çağırışı ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası, müdrik siyasəti, dəmir iradəsi, zəngin bacarığı ilə milli dövlətçiliyimizin itirilməsi təhlükəsi aradan qaldırılmış, demokratik hüquqi dövlət quruculuğuna başlanılmış, dahi öndərin bilavasitə rəhbərliyi ilə ilk milli Konstitusiyamız qəbul olunmuşdur.

İslahatların hərtərəfli və kompleks həyata keçirilməsi məqsədilə müxtəlif komissiyalar yaradılmış, hüquqi sahəyə xüsusi önəm verən Ulu Öndər Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürmüş, qısa müddət ərzində mühüm qanunlar qəbul edilmişdir.

Azərbaycan ədliyyəsi yeni



*Konstitusiya layihəsini hazırlayan komissiyanın iclası, 1995-ci il*

inkişaf mərhələsinə qədəm qoymuş, nazirliyin ənənəvi fəaliyyət istiqamətləri, o cümlədən normativ aktların dövlət qeydiyyatı və uçotu, ekspertizası, notariat və qeydiyyat, məhkəmə ekspertizası sahəsində iş yenidən qurulmuşdur. Cəzaların icrası sisteminin təkmilləşdirilməsi və islah-tərbiyə işinin humanistləşdirilməsi məqsədilə penitensiar müəssisələrin Daxili İşlər Nazirliyindən Ədliyyə Nazirliyinə verilməsi işi başa çatdırılmış, istintaq aparatı, icra xidməti yaradılmış, bələdiyyələrlə işin təşkili və onların fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi və s. ilə bağlı nazirliyə yeni səlahiyyətlər verilmişdir.

Ölkəmizdə müasir məhkəmə sisteminin formalaşması da Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin rəhbərliyi ilə yeni üç pilləli məhkəmə sisteminin yaradılması, hakimlərlə ilk dəfə test üsulu ilə keçirilmiş şəffaf müsabiqə əsasında hakim korpusunun 60 faizə qədər təzələnməsi ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinə xidmət etmişdir. Ulu Öndər 2000-ci ildə Vaşinqtonda beynəlxalq konfransda demişdir: "Biz Azərbaycanın məhkəmə sistemini tamamilə yeni səviyyəyə qaldırdıq və demokratik prinsiplər əsasında yaratdıq. Bütün hakimlər test üsulu ilə imtahandan, yarışdan keçdilər və kim qalib gəldi, o da hakim təyin olundu".

Dahi Öndərin yüksək dövlətçilik amalları və siyasi kursu 2003-cü ildə keçirilmiş prezident seçkilərində xalqımızın böyük həmrəyliyi ilə dövlət başçısı seçilən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf etdirilərək bütün sahələrdə davamlı tərəqqiyə nail olunmuşdur.

2006-cı ildə ədliyyə fəaliyyətinin normativ hüquqi əsasları təkmilləşdirilmiş, nazirliyin yeni əsasnaməsi qəbul edilərək, ona hüquq mühafizə orqanı statusu verilmiş, ədliyyə orqanlarının inkişafı və məhkəmə sisteminin fəaliyyətinin müasirləşdirilməsi barədə fərmanların, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" qanunun imzalanması, ədliyyənin inkişafına dair Dövlət Proqramının qəbulu xüsusi əhəmiyyət kəsb etmişdir.

Ədliyyə sahəsində həyata keçirilən islahatlara uyğun olaraq nazirliyin strukturu təkmilləşdirilmiş, yeni qurumlar - Ədliyyə Akademiyası, regional ədliyyə idarələri, müxtəlif reyestrlər, probasiya xidməti yaradılmışdır. Nazirlik tərəfindən fəaliyyətin ayrı-ayrı istiqamətləri üzrə çoxsaylı normativ aktlar, 100-dək əsasnamə, təlimat və digər mühüm sənəd qəbul edilmiş, 300-dən çox təşkilati əmr verilmişdir.

Bu gün ədliyyə sahəsində dövlət siyasətini və idarəetməni həyata keçirən Ədliyyə Nazirliyi qanunların təkmilləşdirilməsində iştirak edir, normativ hüquqi aktların layihələrini hazırlayır, onların, habelə əhalinin və mətbu nəşrlərin, sahibkarlıq sahəsində aparılan yoxlamaların və qüvvədən düşmüş sənədlərin reyestrlərini, vətəndaşlıq vəziyyəti aktlarının, qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatını





*Şəki Məhkəmə Kompleksinin açılışı və ölkə Prezidenti cənab İlham Əliyevin ədliyyə və məhkəmə işçiləri ilə keçirdiyi müşavirə, 2015-ci il*

aparır, penitensiar sistemə rəhbərlik edir, ədalət mühakiməsi əleyhinə və bir sıra digər cinayətlər üzrə ibtidai istintaqın aparılmasını, notariat fəaliyyətini, məhkəmə ekspertizalarının keçirilməsini, məhkəmələrin fəaliyyətinin təşkilati təminatını, məhkəmələrin və digər orqanların qərarlarının icrasını və probasiya nəzarətini təmin edir. Həmçinin nazirlik bələdiyyələrə metodoloji yardım göstərir və inzibati nəzarət edir, Ədliyyə Akademiyasında ədliyyə və məhkəmə işçiləri, vəkillər, bələdiyyə üzvü və qulluqçularının və digər hüquqşünasların ixtisasartırmasını, habelə peşə fəaliyyətinə buraxılışı, ölkəmizin adından hüquqi yardım və əməkdaşlıq haqqında müqavilələrin bağlanmasını və onların icrasını, beynəlxalq sahədə hüquqi yardım göstərilməsini təmin edir və digər funksiyaları həyata keçirir.

Bütün bu fəaliyyət sahələrinin arxasında geniş həcmli konkret işlər dayanır.

Son 15 ildə nazirlik tərəfindın 32 mindən artıq qanunvericilik layihəsi ekspertizadan keçirilmiş, 6.500-dən çox layihə hazırlanmış, əhalinin təmənnasız istifadəsinə verilmiş milli qanunvericiliyin elektron bazalarına vətəndaşlar



tərəfindən hər il yüz minlərlə, 2018-ci ildə isə artıq bir milyondan çox müraciət edilmişdir.

Notariat orqanlarının cəmiyyətdə rolu artmış, fəaliyyəti müasir İKT-lər tətbiq olunmaqla təkmilləşdirilmiş, universal elektron xidmət köşkləri yaradılmış, notariat əməliyyatların sayı 3 dəfə artaraq 4 milyona yaxınlaşmışdır.

Yeni çağırışlara uyğun olaraq elektron ədliyyə xidmətlərinin çeşidi mütəmadi artırılır, keyfiyyəti yüksəldilir. Elə bu günlərdə notariat haqqında qanuna mühüm dəyişikliklər edilərək notariat xidmətlərin məsafədən, video əlaqə vasitəsi ilə həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə sərhəddə, hava və dəniz limanlarında, dəmiryolu vağzallarında quraşdırılacaq xüsusi ədliyyə köşkləri vasitəsilə ilk dəfə olaraq, notariat sənədlərinin tərtib olunaraq əldə edilməsi mümkün olacaqdır. Həmçinin artıq səyyar elektron xidmətlər göstərmək üçün xüsusi çantalar hazırlanmışdır.

Qeyd olunmalıdır ki, bu sahədə nailiyyətlərimizə beynəlxalq aləmdə böyük maraq göstərilir, müsbət təcrübəmizinin öyrənilməsi ilə bağlı xarici həmkarlarımız tərəfindən müraciətlər edilir və ölkəmizin beynəlxalq tədris mərkəzi kimi seçilməsinə dair təşəbbüslər irəli sürülür.

Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı işi təkmilləşdirilmiş, Əhalinin Dövlət Reyestri avtomatlaşdırılmış










*Ölkəmizin məhkəmə sistemindəki nailiyyətlərinin beynəlxalq təşkilatlar tərəfindən təqdir olunaraq mükafatlara layiq bilinməsi*

qeydiyyat informasiya sistemi yaradılaraq 75 il ərzində toplanmış 15 milyondan çox akt qeydi nəhəng iş sayəsində elektron formata keçirilərək bu sistemə daxil edilmişdir.

Əhalinin rifahının yaxşılaşması, yoxsulluğun azaldılmasına yönəlmiş dövlət siyasətinin müsbət nəticəsi olaraq son 15 ildə nikahların sayı xeyli çoxalmış, qeydə alınmış doğumların sayı isə 45% artmışdır.

Doğumun qeydiyyatının bilavasitə tibb müəssisələrində səyyar qaydada aparılması, habelə nikahın təntənəli qeydiyyatı təşkil olunmuş, qeydiyyat prosedurunu asanlaşdıran, eləcə də Azərbaycan adları, onların mənası və izahı və s. barədə informasiya almaq üçün geniş axtarış sisteminə malik olan elektron xidmətlər istifadəyə verilmişdir.

Təsadüfi deyil ki, ölkə başçısının təşəbbüsü ilə yaradılmış və artıq bütün dünyada Azərbaycan brendi kimi məşhurlaşmış ASAN xidmət mərkəzlərində fəaliyyət göstərən notariat və qeydiyyat orqanları tərəfindən 5 milyona yaxın əməliyyat aparılmış və verilən sənədlərin 40%-dən çoxu məhz ədliyyə qurumlarının payına düşmüşdür.

Mülki və iqtisadi münasibətlərin sürətlə inkişafı, məhkəmələrdə baxılan işlərin ötən dövrdə dəfələrlə çoxalması icra xidmətində də iş həcminin ilbəil artmasına səbəb olmuş, icra sənədlərinin sayı 2003-cü illə müqayisədə 15 dəfə çoxalaraq 2017-ci ildə 870 min təşkil etmişdir.

Həmçinin nazirlikdə 2000-ci ildən fəaliyyət göstərən İstintaq idarəsinin səlahiyyətləri xeyli genişləndirilmiş, penitensiar müəssisələrdə qadağan olunmuş əşyaların qanunsuz dövriyyəsi, alimentin ödənilməsindən yayınma ilə bağlı cinayətlərin istintaqı nazirliyə həvalə olunmuşdur.

Ölkədə bütün növ (qeyri-tibb) məhkəmə ekspertizalarını aparan və ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinə töhfələr verən nazirliyin Məhkəmə ekspertizası mərkəzinə məhkəmə və istintaq orqanlarından hər il daxil olan 30-35 min sənədə baxılır, 40-dan çox ixtisas üzrə 800 minədək suala cavab verilir, qaldırılan məsələlərin 99,5%-i həll olunur. Ekspert araşdırmalarının operativliyini təmin etmək məqsədi ilə Mərkəzin regional filialları yaradılmış, beynəlxalq əməkdaşlıq genişlənərək, Mərkəz Avropa Məhkəmə Ekspertizası İnstitutları Birliyinə üzv qəbul edilmiş, bir neçə ekspertiza növləri beynəlxalq sertifikatlara layiq bilinmişdir. Mərkəzin infrastrukturun müasirləşdirilməsi dövlət başçısının diqqət mərkəzində saxlanılmış, o cümlədən 11.06.2018-ci il tarixli Sərəncamla Mərkəz üçün yeni binanın inşası ilə bağlı tədbirlər nəzərdə tutulmuşdur.

Ötən dövrdə yerli özünüidarə orqanlarının fəaliyyətinə inzibati nəzarət qaydasında yarım milyona yaxın bələdiyyə aktına baxılmış, 14 min bələdiyyə aktı ləğv edilmiş və ya dəyişdirilmiş, qanunsuz ayrılmış 50 min hektardan artıq torpaq sahəsi geri qaytarılmış, bələdiyyələrə 32 min tövsiyə göndərilmişdir.

Açıq hökumətin təşviqi və şəffaflıq prinsiplərinə uyğun olaraq nazirliyin 10 internet saytı fəaliyyət göstərir, 5 mətbu orqanı nəşr edilir, ədliyyə islahatlarının vüsət aldığı son dövrlərdə mətbuatda 3.200-ə yaxın məlumat yayımlanmış, ədliyyə naziri yanında QHT nümayəndələrindən ibarət İctimai Komitə müxtəlif ədliyyə sahələri üzrə fəaliyyətə geniş cəlb olunmuşdur.

Ötən dövrdə penitensiar sistemdə köklü islahatlar





*Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidmətinin yeni inzibati binasının açılışı, 2009-cu il*

aparılmış, qanunvericilik təkmilləşdirilmiş, məhbusların hüquq və imtiyazları genişlənmiş, infrastruktur yaxşılaşdırılmış, o cümlədən Naxçıvanda, Şəkidə, Bakı şəhəri Zabrat qəsəbəsində yeni müasir komplekslər istifadəyə verilmişdir. Saxlanılma şəraitinin və tibb xidmətinin yaxşılaşdırılması nəticəsində 2003-cü illə müqayisədə penitensiar müəssisələrdə ölüm hadisələrinin sayı 40%, vərəmdən ölənlərin sayı isə 16 dəfə azalmışdır.

Beynəlxalq Qırmızı Xaç Komitəsi və Ümumdünya Səhiyyə Təşkilatı bu sahədə Azərbaycanın nailiyyətlərinin yayılmasını tövsiyə etmiş, Nazirliyin Vərəm üzrə Təlim Mərkəzinə Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən beynəlxalq status verilmiş, 20 dövlətdən 230-dək nümayəndə Bakıya səfərlər edərək müsbət təcrübəmizdən bəhrələnmiş, bəzi ölkələrdə bizim təcrübəyə uyğun modellərin tətbiqinə başlanılmışdır.

Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi və cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı dövlət başçısının 10.02.2017-ci il tarixli Sərəncamı bu sahədə ədliyyə və məhkəmə sistemi üçün "yol xəritəsi" olmuşdur. Sərəncama uyğun olaraq Cinayət Məcəlləsində dəyişikliklər edilərək bir sıra əməllər dekriminallaşdırılmış, yeni Qanunun təsiri altına düşən 5.700-ə yaxın məhkumun cəzası yüngülləşdirilmiş, o cümlədən 1.700-dək şəxs azadlıqdan məhrumetmə və digər cəzalardan azad olunmuşdur.

Sərəncamın icrası nəticəsində istintaq təcridxanalarına daxil olan həbs olunmuş şəxslərin sayı 25% azalmış, həmçinin məhkəmələr tərəfindən azadlıqdan məhrum etmə cəzasının tətbiqi hallarının sayı enmişdir. Eyni zamanda, həbs qətimkan tədbirinə dair prokurorlar tərəfindən məhkəmələrə verilmiş təqdimatların sayı təxminən 22%, həbsdə saxlama müddətinin uzadılması barədə müraciətlərin sayı isə 37% azalmışdır.

Sərəncama uyğun olaraq, həmçinin alternativ cəzaların icrasına effektiv nəzarətin təşkili məqsədilə Nazirlikdə yeni Probasiya xidməti yaradılmış, cinayət qanunvericiliyinə dəyişikliklər edilərək yeni cəza növü - azadlığın məhdudlaşdırılması cəzası müəyyən olunmuşdur.

Həmin cəzaların icrasında elektron nəzarət vasitələrinin tətbiqi təmin olunmuş, bu sahədə bir sıra dövlətlərin təcrübəsi öyrənilmiş, xarici və yerli şirkətlərin nəzarət qurğuları sınaqdan keçirilmiş və yerli istehsalçıya üstünlük verilmişdir. Probasiya xidmətində müasir avadanlıqlarla təchiz olunmuş, məhkumları fasiləsiz izləməyə və operativ əlaqə qurmağa imkan verən Elektron monitorinq mərkəzi yaradılmış, mərkəzin imkanları və "elektron qolbağ"ın funksiyaları barədə geniş ictimai təqdimatlar keçirilmişdir. İstifadəsinə bir neçə aydır başlanılmış bu elektron nəzarət vasitələri artıq 500 şəxsə tətbiq olunmaqla səmərəli probasiya nəzarəti həyata keçirilir. Qısa



*Dövlət başçısının müxtəlif ədliyyə fəaliyyəti ilə tanışlığı*

müddətdə yaranmış müsbət təcrübəmizə maraq göstərilərək elektron nəzarət vasitələrinin tətbiqi digər dövlətlər tərəfindən yerində öyrənilir.

Təbii ki, ədliyyə işinin təkmilləşdirilməsində beynəlxalq tərəfdaşlarla səmərəli əlaqələrə, mütərəqqi təcrübələrin öyrənilməsinə xüsusi əhəmiyyət verilir. Ədliyyə Nazirliyi 16 çoxtərəfli mühüm konvensiya üzrə əlaqələndirici və ya səlahiyyətli orqan kimi müəyyən olunmuş, 30-dan çox beynəlxalq müqavilə və 32 dövlətin ədliyyə qurumları ilə əməkdaşlıq haqqında sazişlər üzrə xarici tərəfdaşlarla səmərəli əməkdaşlıq edir. Son 5 ildə nazirliyə 65 mindən çox beynəlxalq sənəd və sorğu daxil olmuş, xarici dövlətlərə 55 mindən artıq sənədlər göndərilmiş, 4 minədək beynəlxalq sənəd layihəsinin hüquqi ekspertizası keçirilmişdir.

Ədliyyə Nazirliyi tərəfindən, həmçinin bir sıra nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən BMT, Avropa Şurası, Avropa İttifaqı, Dünya Bankı, Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA), Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası (IAACA), Avropa Ümumi Hüquq Təşkilatı (EPLO), Almaniyanın Beynəlxalq Hüquq Əməkdaşlığı Fondu (İRZ) ilə uğurlu əməkdaşlıq həyata keçirilmiş, birgə layihələr müvəffəqiyyətlə icra olunmuş, nazirliyin məsul təmsilçiləri Avropa Şurasının təsisatlarına, BPA, IAACA və digər mötəbər beynəlxalq qurumların rəhbər orqanlarına seçilmişlər.

Eyni zamanda ədliyyə orqanlarının sağlam mənəviyyata, yüksək hazırlığa və peşəkarlığa malik işçilərlə möhkəmləndirmək üzrə məqsədyönlü tədbirlər görülür, açıq müsabiqələr əsasında test üsulu ilə şəffaf seçim aparılır. Yüksək tələbkarlıqla keçirilmiş müsabiqələr əsasında ümumilikdə 2.600 mütəxəssis nazirliyə qulluğa qəbul edilmişdir.

Ədliyyə Akademiyasında peşə fəaliyyətinə buraxılış institutu tətbiq olunaraq ilk dəfə ədliyyə orqanları işçisi, prokuror və müstəntiq vəzifələrinə, habelə vəkilliyə namizədlərin icbari təlimi həyata keçirilir.

Ədliyyə xidmətlərin səviyyəsinin yüksəldilərək müasir tələblərə uyğun qurulması və vətəndaş məmnunluğunun təmin olunması məqsədilə yeni iş metodları, elm və texnikanın müasir nailiyyətləri tətbiq edilir.

Hazırda nazirlik tərəfindən 14 informasiya resursu, o cümlədən elektron notariat, əhalinin və qüvvədən düşmüş sənədlərin, habelə hüquqi aktların dövlət reyestrləri, elektron məhkəmə, elektron icra və digər informasiya sistemləri yaradılmışdır. Həmin resurslar müxtəlif dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiya olunaraq hər gün on minlərlə sənəd üzrə məlumat mübadiləsi keçirilir. Eyni zamanda nazirlik tərəfindən fiziki və hüquqi şəxslərə 31 növ elektron xidmət göstərilir, bu xidmətlərdən istifadələrin sayı 11 milyonu ötmüşdür.

Beynəlxalq təcrübədə yalnız bir neçə inkişaf etmiş dövlətlərdə rast gəlinən bu informasiya sistemlərinin tətbiqi nəticəsində ədliyyə orqanlarının fəaliyyətində şəffaflıq, insanların müraciət etmə, o cümlədən elektron yazışma imkanları genişləndirilmiş, vətəndaş-məmur təmasları azaldılmışdır.

Ədliyyə sahəsində islahatların davam etdirilməsi daim diqqət mərkəzində saxlanılaraq fəaliyyətin daha da təkmilləşdirilməsi məqsədilə Azərbaycan ədliyyəsinin inkişafına dair yeni Dövlət Proqramı hazırlanmışdır.

Məhkəmə sisteminin fəaliyyətinin müasirləşdirilməsi xüsusi əhəmiyyət verilmiş, bu sahədə mütərəqqi qanunvericilik bazası yaradılmış, məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı - Məhkəmə-Hüquq Şurası təsis edilmişdir. Məhkəmə hakimiyyə-



*Paytaxtda və bölgələrdə yeni inşa olunmuş müasir penitensiar müəssisələr*



*Probasiya fəaliyyəti*

tinin möhkəmləndirilməsi məqsədilə qanunvericiliyə 50-dək dəyişiklik edilmiş, Şuranın səlahiyyətləri ilbəil genişləndirilmiş, o cümlədən hakimlərin müstəqilliyinin təmini və fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınması həvalə edilmiş, hakimlərin təyinatında, səlahiyyətinə xitam verilməsində Şuranın rolu artırılmışdır. Azərbaycanda hakimlərin maaşının məbləği qanunla konkret müəyyən etməklə yanaşı, onun azaldılması qadağan olunmuşdur.

Ədalət mühakiməsinin səmərəliliyində məhkəmə infrastrukturunun müasirləşdirilməsi də az əhəmiyyət kəsb etmir. Son illər ərzində dövlət büdcəsi hesabına və Dünya Bankı ilə birgə 50-dək məhkəmə üçün müasir bina və komplekslərin layihələri hazırlanmış, 9 məhkəmə binası və 6 məhkəmənin yerləşdiyi 2 məhkəmə kompleksi tikilərək istifadəyə verilmişdir. Hazırda 5 məhkəmə üçün bina və komplekslərin inşası davam etdirilir.

Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ərəfəsində Zaqatala rayon məhkəməsi üçün ən son texnologiyalarla təchiz olunmuş yeni müasir binanın istifadəyə verilməsi ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına və insan hüquqlarının etibarlı təminatına töhfə vermişdir. Bununla yanaşı Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi üçün yeni inzibati binanın inşası başa çatdırılmışdır.

Təsadüfi deyil ki, Dünya Bankı Azərbaycanda ədliyyə sahəsindəki layihələri ən uğurlulardan biri kimi qiymətləndirərək 2012-ci və 2017-ci illərdə "Vətəndaşlara daha yüksək keyfiyyətli xidmətlərin göstərilməsi üçün innovativ üsulların yaradılması və tətbiqi" nominasiyalarının qalibi elan etmişdir.

Məhkəmə sisteminin müasirləşdirilməsi üzrə həyata keçirilən islahatlar çərçivəsində "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında dövlət başçısının Sərəncamı bu sahədə strateji prioritetləri müəyyən etməklə inqilabi təkamülün əsasını qoymuşdur. Bu sistem məhkəməyə müraciət imkanlarının daha da genişlənməsinə, süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, şəffaflıq və operativliyin təmin edilməsinə, elektron kargüzarlığın və sənəd dövriyyəsinin təmin olunmasına xidmət edir.

Artıq bu sistemin ayrı-ayrı komponentləri - elektron sənəd dövriyyəsi, işlərin elektron qaydada bölgüsü, elektron idarəetmə və elektron məlumat-

landırma proqramları, proseslərin elektron qeydiyyatı tətbiq olunur.

Təsadüfi deyil ki, 2017-ci ildə Azərbaycan Avropa Şurasının ədalət mühakiməsinə dair müsabiqəsində "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" adlı layihə ilə iştirak etmiş və ölkəmiz məhkəmə sistemindəki nailiyyətlərinə görə "Ədliyyənin Kristal Tərəzisi" mükafatına layiq bilinmişdir.

Mütərəqqi islahatlarımıza beynəlxalq marağın nəticəsidir ki, ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) məhkəmə sisteminin inkişafına görə Azərbaycanı öncül ölkə kimi qiymətləndirmişdir.

Eyni zamanda Avropa Şurasının və Dünya Bankının müraciətləri əsasında mütəxəssislərimiz xarici dövlətlərdə müsbət təcrübəmizi həmkarlarına aşılamış, digər ölkələrin məhkəmə hakimiyyətinin mötəbər nümayəndələri Azərbaycana gələrək nailiyyətlərimizdən bəhrələnmişlər.

Həmçinin hakimlərin iş yükünün həddən artıq çox olması ilə əlaqədar qanunvericilik və institusional tədbirlər görülmüş, icrası edilmiş məhkəmə qərarları üzrə icraata xitam verilməsi və icra işi üzrə icraatın dayandırılması səlahiyyətləri icra məmurlarına, habelə mülki xarakterli işlərin təxminən üçdəbirini təşkil edən əmr icraatı qaydasında baxılan mübahisəsiz tələblərin həllinin notariat orqanlarına həvalə edilməsi və mediasiya institutunun geniş təşviqi məhkəmələrin iş yükünün azalmasına xidmət etmişdir.

Yeni nəsil hakim korpusunun formalaşdırılması məqsədilə mütərəqqi Qaydalar hazırlanmış, müstəqil qurum - Hakimlərin Seçki Komitəsi yaradılmışdır. Çoxmərhələləi imtahalarda şəffaflıq və obyektivlik, o cümlədən bütün prosesin - sualların seçilməsi, çoxaldılaraq paylanması, nəticələrin yoxlanması və elan edilməsi, çoxsaylı yerli və beynəlxalq müşahidəçilərin, KİV nümayəndələrinin qarşısında keçirilməsi və onlayn rejimdə canlı yayımlanması, nüfuzlu beynəlxalq təsisatların da diqqətini cəlb etmişdir.

Bu prosesi bilavasitə izləyən Avropa Şurası Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası (CEPEJ), habelə Avropa İttifaqı Azərbaycanda hakimliyə namizədlərin seçimini örnək kimi qiymətləndirmiş və digər dövlətlərə tövsiyə etmişdir.

Sözsüz ki, ədliyyə sisteminin inkişafı ölkəmizdə aparılan genişmiqyaslı islahatların və respublikamızın hərtərəfli tərəqqisinin məntiqi davamıdır. Belə ki, dövlət başçısının rəhbərliyi ilə son 15 ildə ardıcıl islahatlar aparılaraq ölkəmizin iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə artmış, yoxsulluq təxminən 10 dəfəyədək azalmışdır.

Ölkəmizin bilavasitə təşəbbüskarı olduğu qlobal enerji və nəqliyyat layihələri uğurla həyata keçirilir. Azərbaycan bu il 3-cü kosmik peykini orbitə buraxaraq dünyada sayı məhdud olan kosmik ölkələr sırasında mövqeyini daha da möhkəmlətmiş və iqtisadi rəqabət qabiliyyətliliyinə görə qabaqcıl ölkələr sırasında qərarlaşır. "Doing Business 2019" hesabatında ölkəmiz 190 dövlət arasında 25-ci yerə yüksəlmiş, qlobal səviyyədə ən islahatçı 10 ölkədən biri kimi müəyyən edilmiş, inkişaf etməkdə olan 80 ölkə arasında isə inklüziv inkişaf indeksinə görə 3-cü olmuşdur.

Xüsusilə Azərbaycanın Dünya İqtisadi Forumunun Qlobal rəqabətlilik hesabatında 2018-ci ildə iqtidara ictimai etimad kateqoriyası üzrə 137 ölkə arasında 20-ci pillədə olması xalq-iqtidar birliyinin bariz təzahürü olmuşdur.



*Ədliyyə Nazirliyinin beynəlxalq əlaqələri*




Respublikamızın davamlı sosial-iqtisadi və mədəni inkişafının təmin olunmasında, mühüm sosial layihələrin, humanizm, tolerantlıq, multikulturalizm ideya və prinsiplərinin uğurla həyata keçirilməsində ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın çoxşaxəli və əzmkar fəaliyyəti xüsusilə qeyd olunmalıdır.

Bu il peşə bayramı və Azərbaycan ədliyyəsinin 100 illiyi ilə bağlı ədliyyə işçiləri Fəxri Xiyabana gedərək bu bayramı bizə bəxş edən Ulu Öndər Heydər Əliyevə öz əbədi ehtiramlarını bildirmiş, Şəhidlər Xiyabanında şəhidlərimizin xatirəsini yad etmişlər.

Həmçinin Azərbaycan ədliyyəsinin keçdiyi şanlı tarixə nəzər salınır, gənclərlə görüşlər keçirilir, silsilə bayram tədbirləri, o cümlədən kütləvi idman yarışları, xeyriyyə aksiyaları, "açıq qapı" günləri, dəyirmi masa və yığıncaqlar təşkil olunur.

Azərbaycan ədliyyəsinin 100 illiyi münasibətilə "Azərbaycan ədliyyəsinin bir əsrlik inkişaf yolu" mövzusunda keçirilən beynəlxalq konfrans xüsusilə qeyd olunmalıdır. Xarici dövlətlərin ədliyyə nazirlərinin və nüfuzlu beynəlxalq təşkilatların iştirakı ilə keçirilən tədbir ədliyyə sisteminin inkişafı yolu və yaxşı təcrübələrin mübadiləsi üzrə faydalı müzakirələr aparılması baxımından olduqca əhəmiyyətlidir.

Eyni zamanda, nazirlik tərəfindən ədliyyənin 100 illik tarixinə dair xüsusi kitab, nazirliyin müasir fəaliyyətinə, o cümlədən hüquqi sahədə beynəlxalq əlaqələri əks etdirən müxtəlif dillərdə nəşrlər, yubileyə həsr olunmuş ayrıca film və xüsusi ekspozisiyalardan ibarət stendlər hazırlanmışdır.

Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə dövlət başçısı cənab İlham Əliyevin ədliyyə və məhkəmə işçilərinə müraciəti, böyük bir qrup ədliyyə orqanları işçiləri və hakimləri ali xüsusi rütbələrə, fəxri adlara, orden və medallara layiq bilməsi möhtərəm Prezidentin göstərdiyi diqqət və qayğının növbəti təzahürü olmuş, hər birimizdə böyük ehtiram hissi doğurmuşdur.

Ədliyyə işçiləri Ulu Öndər Heydər Əliyevin dövlətçilik amallarına daim sadiq qalaraq ölkəmizin qüdrətlənməsi və demokratik hüquqi dövlət quruculuğu işində möhtərəm Prezidentimiz cənab İlham Əliyevə yardımçı olmağı özlərinin vəzifə və vətəndaşlıq borcu sayırlar.

Fürsətdən istifadə edib bütün ədliyyə işçilərini 22 noyabr peşə bayramı və Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təbrik edir, çətin və şərəfli işlərində müvəffəqiyyətlər arzulayıram.

# Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təbrik məktubları

## *Azərbaycan Respublikasının ədliyyə naziri cənab Fikrət Məmmədova*

### Xarici ölkələrin Ədliyyə nazirliklərindən və beynəlxalq təşkilatlardan daxil olan təbriklər




**Hörmətli cənab Nazir,**

*Çin Xalq Respublikasının Ədliyyə Nazirliyi adından və şəxsən öz adımdan Sizi və kollektivinizi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin yaranmasının 100 illiyi münasibətilə ürəkdən təbrik edirəm!*

*Hüquq və ədalət sahəsində fikir mübadiləsi iki ölkə arasında münasibətlərin əhəmiyyətli tərkib hissəsidir, eləcə də ölkələr arasında dostluq əlaqələrinin sağlam inkişafını təmin edir. Ölkələrimiz arasında dostluq münasibətlərinin hərtərəfli inkişafına yeni töhfə vermək üçün Sizinlə birlikdə iki ölkənin Ədliyyə nazirlikləri arasında fikir mübadiləsi və əməkdaşlığın daha da möhkəmlənməsi istiqamətində səylərin artırılması niyyətindəyəm.*

*Ölkənizə səfər etməklə bağlı dəvətinizə görə, cənab Nazir, Sizə təşəkkürümü bildirirəm. Ümid edirəm ki, Sizinlə görüşmək imkanımız olacaqdır. Həmçinin, hər iki tərəf üçün uyğun zamanda Sizi Çinə səfərə dəvət edirəm.*

*Sonda Azərbaycanın demokratik hüquqi dövlət quruculuğuna yeni töhfə verilməsi naminə Sizin rəhbərliyiniz altında Nazirliyinizə yeni parlaq uğurlar qazanmağı arzulayıram.*

**Fu Çjenxua**
**Çin Xalq Respublikasının ədliyyə naziri**



**Hörmətli cənab Nazir,**

*Məmnunluq hissi ilə Sizə isti salamlarımı göndərərək ümid edirəm ki, bu məktub dost ölkə Azərbaycanın Ədliyyə Nazirliyinin yaranmasının 100 illiyi (22 noyabr 2018-ci il) ərəfəsində Sizə çatacaqdır. Böyük məmnunluq hissi ilə Sizə, ədliyyə ailəsinə və Azərbaycan Respublikasının ədliyyə sektorunda işləyən hər kəsə səmimi təbriklərimi və uğur, sağlamlıq və rifah üçün ən xoş arzularımı çatdırıram. Arzu edirəm ki, uzunmüddətli və yenilənmiş məhkəmə institutlarınız öz inkişaf və mükəmməllik perspektivləri istiqamətində və Sizin dəyəriniz və əsas milli prinsipləriniz, eləcə də bütün bəşəriyyətin ortaq ədalət prinsipləri çərçivəsində inkişaf etməyə və yaxşılaşmağa davam etsin. Zamanımızda yaşadığımız, elm və bilik sahəsində inkişaf və innovasiyalar, qlobal səviyyədə qarşılaşdığımız problemlərin yalnız dost ölkələr arasında ciddi və səmərəli əməkdaşlıq və müxtəlif sahələrdə mübadilə vasitəsilə öhdəsindən gəlmək olar.*

*Bu xoşbəxt fürsətdən istifadə edərək bizim iki ədliyyə orqanlarımız arasında hüquqi və məhkəmə əməkdaşlığını birləşdirmək və dərinləşdirmək və onu müvafiq liderlərimiz cənab Əbdüləziz Buteflika və onun qardaşı cənab İlham Əliyevin müdrik rəhbərliyi altında dost ölkələrimiz məqsəd və arzularının səviyyəsinə çatdırmaq üzrə səmimi və davamlı istəyimi təsdiqləmək istərdim.*

*Bizi bir araya gətirəcək daha bir xoşbəxt tədbir və ya görüşü gözləyərək, zati-aliləri cənab Nazir, mənim əziz qardaşım, ən xoş salam və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

**Tayeb Louh**
**Əlcəzair Xalq Demokratik Respublikasının**
**ədliyyə naziri və möhürlərin saxlayıcısı**

**Hörmətli cənab Nazir,**

*Cari ilin 22 noyabr tarixində keçiriləcək Azərbaycan Ədliyyəsinin 100 illik yubileyində iştirak etməyə dəvət etdiyiniz üçün təşəkkürlərimi çatdırmaq istərdim.*

*Fürsətdən istifadə edərək, Vyetnam Sosialist Respublikasının Ədliyyə Nazirliyi adından Azərbaycan Ədliyyəsinin 100 illiyi münasibətilə Sizə və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin bütün əməkdaşlarına ən səmimi təbriklərimizi göndərir, gələcək fəaliyyətinizdə davamlı uğurlara nail olmağı arzulayıram.*

*Sizinlə və Azərbaycan Ədliyyəsinin əməkdaşları ilə birlikdə bu bayramı şəxsən qeyd etmək üçün Azərbaycana gəlmək istərdim. Bayram noyabr ayında Vyetnam Parlamentinin qarşıdan gələn sessiyasının keçirilməsinə təsadüf etdiyindən gözəl Azərbaycana işçi səfər təşkil edə bilmədiyimə görə təəssüflənirəm. Anlayışla qarşılayacağınıza ümid edirəm və Vyetnam Ədliyyə Nazirliyi ilə Azərbaycan Ədliyyə Nazirliyi arasında əməkdaşlığın inkişaf edəcəyinə əminəm.*

*Cənab Nazir, yaxın gələcəkdə görüşməyimizi səbirsizliklə gözləyərək, Sizə bir daha təşəkkürümü bildirir, möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.*

Hörmətlə,

**Le Thanh Lonq**
**Vyetnam Sosialist Respublikasının ədliyyə naziri**

**Hörmətli cənab Nazir,**

*İlk öncə, icazə verin məni Azərbaycan Ədliyyəsinin 100 illik yubileyi (22 noyabr 2018-ci il) münasibətilə keçiriləcək beynəlxalq konfransa dəvət etdiyinizə görə Sizə minnətdarlığımı bildirim.*

*Təəssüf ki, gözlənilməz öhdəliklər səbəbindən bu xüsusi və yüksək səviyyəli tədbirə qatıla bilməyəcəyəm. Məni dəvət etdiyinizə görə böyük bir şərəf hissi duyuram və Azərbaycan Ədliyyəsinin 100 illik yubileyinə həsr olunmuş tədbirdə iştirak etməyi səbirsizliklə gözləyirdim. Öhdəliklərimə görə səfər edə bilmədiyim üçün çox təəssüf edirəm.*

*Sizinlə yaxın gələcəkdə şəxsən görüşmək imkanına ümid edirəm. Nazirliklərimiz arasında daha sıx əməkdaşlıq yaratmaq mənim üçün prioritetdir və şəxsi görüş tərəfdaşlığımızı möhkəmləndirmək üçün gözəl bir imkana çevriləcəkdir.*

*Vurğulamaq istərdim ki, Azərbaycan Macarıstan üçün hörmətli tərəfdaşdır və Macarıstan iki ölkə arasında müstəsna əməkdaşlığı yüksək qiymətləndirir. İnanıram ki, münasibətlərimiz bütün səviyyələrdə daha da güclənəcəkdir.*

*Hörmətli Zati-aliləri, Sizdən mənim yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

**Laslo Troçanyi**
**Macarıstanın ədliyyə naziri**

**Hörmətli Fikrət Fərrux oğlu!**

**Hörmətli Azərbaycan Respublikası ədliyyə orqanlarının həmkarları, əməkdaşları və veteranları!**

*Belarus Respublikasının Ədliyyə Nazirliyi və şəxsən öz adımdan Sizi və ədliyyə orqanlarının bütün əməkdaşlarını və veteranlarını Azərbaycan Ədliyyə Nazirliyinin yaranmasının 100 illik yubileyi münasibətilə təbrik edirəm.*

*Azərbaycan Ədliyyəsi şərəfli yol keçmişdir. Öz inkişafının bütün mərhələlərində ədliyyə sistemi ölkədə hüquqi dövlətin əsaslarının formalaşması və möhkəmlənməsi naminə əsas məqsədləri yerinə yetirmişdir. Bu gün Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının strukturunda layiqli yer tutur, hüquqi dövlətin formalaşması və vətəndaşların konstitusional hüquqlarının təmin olunması üzrə təsirli mexanizmdir.*

*Ədliyyə orqanları dövlətin qanunvericilik fəaliyyətində aktiv iştirak edir, vətəndaşların hüquq və*

*azadlıqlarının həyata keçirilməsini təşviq edir, notariatı və əhaliyə göstərilən xidmətləri inkişaf etdirir, qeyri-kommersiya təşkilatlarının fəaliyyətini tənzimləyir, məhkəmə sisteminin inkişafına böyük töhfə verir. Sizin işinizin əsasında duran prinsiplər hər zaman qanunçuluq, qayda-qanun və şəffaflıq olmuşdur.*

*Ədliyyə orqanlarının hazırkı prioriteti özünün uzunmüddətli fəaliyyəti ilə onun formalaşmasına yardım etmiş, Azərbaycanın hüquq sisteminin səmərəliliyinin artırılması üçün bütün gücləri ilə çalışmış insanlar sayəsindədir.*

*Ədliyyə işçilərinin bilik, təcrübə və peşəkarlığına dövlət həyatının bütün sahələrində tələbat var. Ölkənin bir çox nailiyyətləri, cəmiyyətdə həqiqi hüquqi mədəniyyətin tərbiyə olunması onların gündəlik əməyinin nəticəsindən asılıdır.*

*Əminəm ki, Belarus və Azərbaycan Ədliyyə nazirlikləri arasında qurulmuş sıx əməkdaşlıq və dostluq münasibətləri ölkələrimizin qanunvericiliklərinin daha da təkmilləşdirilməsi və ədliyyə orqanlarının inkişafını təşviq edəcəkdir.*

*Hörmətli Fikrət Fərrux oğlu, Sizə və ədliyyə orqanlarının bütün əməkdaşlarına qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsini, ruh yüksəkliyi, əzmkarlıq və yeni-yeni uğurlar diləyirəm.*

Sizə möhkəm sağlamlıq, sülh, xoşbəxtlik və rifah arzulayıram!

**Hörmətlə,**

**Oleq Slijevski,**
**Belarus Respublikasının ədliyyə naziri**



**Hörmətli cənab Nazir!**

*Fürsətdən istifadə edərək Azərbaycan Ədliyyəsinin 100 illiyi münasibətilə 22 noyabr 2018-ci il tarixində Bakı şəhərində keçiriləcək tədbirə dəvətinizə görə Sizə təşəkkür etmək istərdik.*

*Bu əlamətdar hadisə münasibətilə Azərbaycan Ədliyyə Nazirliyinə ən isti salamlarımızı göndəririk. Ədliyyə Nazirliyində çalışan hər kəsə işində müvəffəqiyyətlər arzulayırıq! Ədliyyə sistemi hər bir dövlətin əsas elementidir. Ədliyyə sistemi bütün çətinliklərə rəğmən hüquq və dəyərləri müdafiə edir.*

*Təəssüflə bildiririk ki, digər öhdəliklər səbəbi ilə nümayəndələrimiz Azərbaycan Ədliyyəsinin 100 illik bayramında iştirak edə bilməyəcək. İnanırıq ki, bu bayram ölkənizin ədliyyə sisteminin tarixi mərhələlərinə, nailiyyətlərinə nəzər yetirmək, eləcə də növbəti 100 illik yolu müzakirə etmək üçün yaxşı fürsət olacaqdır!*

*Fürsətdən istifadə edərək, ötən illərdə aramızda həyata keçirilən uğurlu əməkdaşlığa görə Sizə bir daha təşəkkür etmək, gələcək faydalı əməkdaşlığa hazır olduğumuzu təsdiqləmək istərdik. Ötən illər ərzində Nazirliklərimiz arasında uğurlu və səmərəli əməkdaşlıq qurulmuşdur. Onu davam etdirə və birlikdə nail olmaq üçün qarşımıza daha da iddialı məqsədlər qoya biləcəyimizə əminik.*

*İşinizdə bütün uğurlara çatmaq üzrə ən xoş arzularımızı və Sizə olan ən yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirik.*

**Hörmətlə,**

**Dzintars Rasnaçs,**
**Latviya Respublikasının ədliyyə naziri**
**və Rayvis Kronberqs,**
**ədliyyə üzrə dövlət katibi**



**Hörmətli cənab Məmmədov,**

*Serbiya Respublikası Ədliyyə Nazirliyi, həmçinin şəxsən öz adımdan Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 100 illiyi münasibətilə keçiriləcək tədbirdə iştirakım üçün göndərdiyiniz dəvət məktubuna görə təşəkkürümü bildirirəm. Fürsətdən istifadə edərək, Sizin və həmkarlarınızın böyük yubileyini təbrik edir, böyük əməyinizin, töhfənizin və gördüyünüz işlərinizin sizi gələcək illərdə daha da irəli aparmasını diləyirəm.*

*Təəssüflər olsun ki, daha öncədən qərara alınmış öhdəliklər səbəbi ilə tədbirdə iştirak etmək imkanım olmayacaq. Ümid edirəm ki, gələn il Belqradda görüşmək imkanımız olacaq ki, bu ilin may ayında Bakıda bizə göstərmiş olduğunuz qonaqpərvərliyi biz də Sizə göstərə bilək.*

*Ümid edirəm ki, ədliyyə sahəsində uğurlu əməkdaşlıq da daxil olmaqla Azərbaycan*

*Respublikası və Serbiya Respublikası arasındakı dostluq əlaqələri hər iki ölkənin maraqları naminə daha da inkişaf edəcək. Ölkələrimiz və xalqlarımız arasında əlaqələr naminə eyni hədəflər istiqamətində çalışan Serbiya Respublikası Ədliyyə Nazirliyi xidmətinizdədir.*

*Sizə möhkəm cansağlığı, şəxsi və peşəkar həyatınızda uğurlar diləyir, bir daha yüksək ehtiramımı izhar edirəm.*

**Hörmətlə,**

**Nela Kuburoviç,**
**Serbiya Respublikasının ədliyyə naziri**

**Hörmətli cənab Nazir,**

*Fürsətdən istifadə edərək, Xorvatiya Ədliyyə Nazirliyi və öz adımdan 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü münasibətilə səmimi təbriklərimi çatdırıram. Həmçinin, Azərbaycan Respublikasının müstəqilliyinin 100 illik yubileyi münasibətilə Sizə və xalqınıza təbriklərimi çatdırmaq imkanım olduğu üçün şərəf hissi keçirirəm. Bütövlükdə 2018-ci il ölkənizdə Azərbaycan Xalq Cümhuriyyəti ili, müstəqilliyin əldə olunduğu il kimi qeyd olunur (28 may 2018-ci il). Bu münasibətlə ölkənizə davamlı uğur, rifah və firavanlıq arzulayıram.*

*İcazə verin, Nazirliklərimiz arasında olan əməkdaşlıq və dostluq münasibətlərindən məmnunluğumu ifadə edim. Əməkdaşlıq haqqında Memorandum bu sahədə əməkdaşlıq üçün olduqca işlək çərçivə olmuşdur. Ölkələrimizdə keçirilən rəsmi ikitərəfli görüşlər və qarşılıqlı səfərlər Nazirliklərimiz arasında olan yüksək səviyyəli anlaşma və tərəfdaşlığı nümayiş etdirmişdir. Bu kontekstdə, 15-16 oktyabr 2018-ci il tarixlərində Şibenik şəhərində keçirilən Konfrans çərçivəsində görüşmək imkanımız olduğuna görə məmnun oldum.*

*Ümid edirəm ki, qarşıdakı zamanda yenidən, bu dəfə ikitərəfli səviyyədə görüşmək imkanımız olacaqdır. Bu, Hökumətlərimiz və Nazirliklərimiz arasında səmimi və səmərəli əlaqələrin təsdiqlənməsi və möhkəmlənməsi, eləcə də ədliyyə və məhkəmə sistemlərimizdəki hazırkı yeniliklər barədə fikir mübadiləsi aparmaq üçün daha bir fürsət ola bilər.*

*Əziz həmkar, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

**Drazen Boşnkyakoviç,**
**Xorvatiya Respublikasının ədliyyə naziri**

**Hörmətli cənab Məmmədov, əziz Fikrət,**

*İcazə verin, Azərbaycan Ədliyyə Nazirliyinin bu gün keçirilən 100 illik yubileyi münasibətilə Sizi və kollektivinizi təbrik edək.*

*Bu məktubla Sizə və əməkdaşlarınıza Beynəlxalq Prokurorlar Assosiasiyasına (BPA) göstərilən davamlı dəstəyə və müxtəlif töhfələrə görə təşəkkür etmək istəyirik. Azərbaycan Ədliyyə Nazirliyini təşkilatın tərəfdaşı adlandıra bilmək bizi olduqca qürurlandırır.*

*Şəxsi münasibətlərə gəlincə, Sizə və mümkün etdiklərinizə ən dərin ehtiram hissi bəsləyirik; Azərbaycan Ədliyyə Nazirliyini dünya prokurorlarının təşkilatı olan BPA ilə birləşdirmək. İcraiyyə Komitəsinin üzvü kimi Assosiasiyaya verdiyiniz töhfələrlə Siz təşkilatın unikal xarakterini aydın anladığınızı nümayiş etdirdiniz və sərhədlərarası cinayətkarlığın həll olunması üçün güclü əməkdaşlığın gərəkdiyini tanıdınız. Heç şübhəsiz, Sizin şəxsi iştirakınız sıx əlaqəyə rəvac verərək Azərbaycan Ədliyyə Nazirliyi ilə Assosiasiya arasında səmimi və faydalı münasibətlər yaratdı.*

*Assosiasiyanın adından Sizə və həmkarlarınıza ən xoş arzularımızı çatdırır və bu gün gözəl bir bayram keçirməyi diləyirik.*

**Hörmətlə,**

**Gerhard Yaroş,**
**Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti,**
**Han Moraal,**
**Beynəlxalq Prokurorlar Assosiasiyasının baş katibi**

**Hörmətli cənab Məmmədov,**

*Fürsətdən istifadə edərək, Sizi və kollektivinizi Ədliyyə Nazirliyinin yaradılmasının 100-cü ildönümü münasibətilə səmimi qəlbdən təbrik etmək istəyirəm. Birləşmiş Millətlər Təşkilatı adından Sizə dünyada digər ölkələr üçün uğurlu bir model hesab edilə bilən effektiv ədliyyə sistemlərinin tətbiq olunması məqsədini daşıyan səylərinizdə uğurlar arzulayıram.*

*Sizin strateji baxış və rəhbərliyiniz altında Ədliyyə Nazirliyi əhalinin dəqiq qeydiyyatını aparmağa imkan verən elektron informasiya sisteminin formalaşdırılmasında öz təşkilati potensialını əhəmiyyətli dərəcədə artırmışdır.*

*BMT-nin Azərbaycandakı Nümayəndəliyi ötən müddət ərzində həyata keçirilən "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin formalaşdırılması və inkişafı" və "Qüvvədən düşmüş sənədlərin dövlət reyestrinin formalaşdırılması" adlı iki birgə layihəmizdə Ədliyyə Nazirliyi ilə tərəfdaşlığı çox yüksək dəyərləndirir. Bu sıx əməkdaşlıq sayəsində mühüm nəticələr əldə olunmuş və gələcək birgə layihələr üçün möhkəm təməl qoyulmuşdur.*

*Sizi bir daha əmin etmək istəyirəm ki, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi bizim dəstəyimizə güvənə bilər və gələcəkdə əməkdaşlığımızın davamlı olacağına ümidvaram.*

*Hörmətli cənab Məmmədov, xahiş edirəm, dərin hörmət və ehtiramımı qəbul edəsiniz.*

**Hörmətlə,**

**Qulam İshaqzai,**
**BMT-nin Rezident Əlaqələndiricisi**
**BMTİP/BMT-nin Əhali Fondunun Rezident Nümayəndəsi**

**Hörmətli cənab Məmmədov,**

*Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi 22 noyabrda qeyd edilən Azərbaycan Ədliyyəsinin 100 illik yubileyi münasibətilə sizi təbrik edir və ədliyyə sahəsində nəzərdə tutulan plan və layihələrin tamamlanmasında uğurlar arzu edir. Qoy peşəkarlıq, məsuliyyət və obyektivlik milli ədliyyə sistemi nüfuzunun zəmanətçisi olsun.*

*Nümayəndəliyimiz sizin Nazirliklə bir sıra layihələr çərçivəsində işləməkdən məmnunluq duyur. Əməkdaşlığımızın davam edəcəyinə və penitensiar islahatlar, ədliyyənin səmərəliliyinin artırılması, hüquqi yardımın inkişaf etdirilməsi və mediasiyanın yaradılması yolu ilə ədliyyə sisteminin gücləndirilməsinə töhfə verəcəyimizə ümid edirik.*

**Səmimiyyətlə,**

**Kestutis Yankauskas,**
**Avropa İttifaqının Azərbaycandakı**
**Nümayəndəliyinin rəhbəri, səfir**

WORLD BANK

*Böyük məmnuniyyət hissi ilə Sizi Azərbaycan Respublikasının ədliyyə işçilərinin peşə bayramı və Azərbaycanın ədliyyə sisteminin yaranmasının 100 illik yubileyi münasibətilə təbrik edirik.*

*Keçən bu dövr ərzində Azərbaycanın ədliyyə orqanları şanlı yol keçmiş, ölkənin hüquq və qanunvericilik sistemi əhəmiyyətli dərəcədə inkişaf etmiş və vətəndaşlara göstərilən ədliyyə xidmətlərinin keyfiyyəti daha da yüksəlmişdir.*

*Çox şadıq ki, Azərbaycanın ədliyyə sisteminin müasirləşdirilməsi təşəbbüslərinə Dünya Bankı da öz töhfəsini verməkdədir. Birlikdə həyata keçirdiyimiz "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi nəticəsində xidmətlərin əlçatanlığını, səmərəliliyini və şəffaflığını*

*sürətlə yüksəltməklə Azərbaycan ölkədə ədliyyə xidmətlərinin göstərilməsi işini yenidən qura bilmişdir.*

*Dünyanın müxtəlif ölkələrindən buraya nümayəndə heyətlərinin səfər etməsi, gözlənilən nəticələrə artıqlaması ilə nail olunması və Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) tərəfindən bu nəticələrin tanınması Azərbaycanın ədliyyə xidmətlərinin rəqəmsallaşdırılması istiqamətində liderliyini sübut edir.*

*Sizi əmin etmək istərdim ki, Dünya Bankı Azərbaycan Hökumətinə bu səylərində zəruri dəstəyi davam etdirmək əzmindədir.*

*Bir daha bu əlamətdar gün münasibəti ilə təbriklərimizi çatdırır və gələcək məhsuldar əməkdaşlığa ümidlərimizi ifadə edirik.*

**Səmimiyyətlə,**

**Naveed Naqvi,**
**Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri**

giz

**Çox hörmətli cənab Nazir,**

*Azərbaycan Ədliyyəsinin 100 illik yubileyi, 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü münasibətilə Sizi və rəhbərlik etdiyiniz nazirliyin bütün əməkdaşlarını səmimi qəlbdən təbrik edirik.*

*Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ədliyyə sahəsində islahatların həyata keçirilməsi istiqamətində böyük uğurlar əldə etmişdir. Bu uğurlar təkcə ictimaiyyət tərəfindən deyil, eləcə də beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.*

*Sizə həmçinin gələcəkdə hüquqi dövlət quruculuğu sahəsində islahatların davam etdirilməsi naminə fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayır və bu istiqamətdə Sizə növbəti dövr ərzində də yardımçı olmaqdan məmnunluq duyuruq.*

*Fürsətdən istifadə edərək, ötən illər ərzində həyata keçirdiyimiz sıx və qarşılıqlı etimada əsaslanan əməkdaşlığa görə Sizə bir daha minnətdarlığımı bildirmək istərdim.*

**Dərin hörmət və ehtiramla,**

**Thomas Meyer,**
**GİZ-in layihə rəhbəri**

COMITÉ INTERNATIONAL GENEVE
ICRC

**Hörmətli cənab Nazir,**

*Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan Nümayəndəliyi Ədliyyə Nazirliyinə uzunmüddətli və məhsuldar əməkdaşlığa görə minnətdarlığını ifadə edir.*

*Beynəlxalq Qızıl Xaç Komitəsinin adından Sizi və əməkdaşlarınızı ədliyyə orqanlarının yaranmasının 100 illiyi və peşə bayramınız olan "Ədliyyə günü" münasibətilə təbrik etmək istərdim. BQXK, uzun illərdir ki, Ədliyyə Nazirliyi ilə sıx əməkdaşlıq şəraitində işləyir və bu səmərəli işgüzar əlaqələrin davam etməsinə ümid bəsləyir, həmçinin, bu məktubla da, Sizə və əməkdaşlarınıza təşəkkürümüzü bildiririk.*

*Fürsətdən istifadə edərək, BQXK-nın Azərbaycandakı humanitar fəaliyyətinə göstərdiyiniz dəstəyə görə Sizə öz minnətdarlığımızı bildirmək istərdik.*

*Hörmətli cənab Nazir, Sizə olan ehtiramımı qəbul etmənizi xahiş edirik.*

**Hörmətlə,**

**Elena Aymone Sessera,**
**BQXK-nın Azərbaycandakı Nümayəndəliyinin rəhbəri**

**Hörmətli Fikrət Fərrux oğlu!**
**Əziz həmkarlar!**

*Rusiya Federal Notarial Palatası adından Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin yaranmasının 100 illiyi münasibətilə Sizi təbrik edirəm.*

*1918-ci ildə Azərbaycan Demokratik Respublikası Ədliyyə Nazirliyinin Əsasnaməsi ölkədə ədliyyə sisteminin inkişafının yeni dövrünü başlatdı. Fəaliyyətinin ilk günlərindən Ədliyyə Nazirliyi demokratik dövlətin siyasətinin həyata keçirilməsində əsas rollardan birini oynamağa başladı. Nazirliyin səyləri nəticəsində qısa müddətdə ölkədə hüquqi strukturlar və institutlar bərpa olundu, milli ədliyyə sisteminin təşkilati əsasları qoyuldu, normativ və elmi baza hazırlandı.*

*Bir əsrlik tarixi yol keçərək Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ədalət mühakiməsi, qanunvericilik, hüquq-mühafizə və notariat fəaliyyəti sahəsində dövlət siyasətinin olduqca geniş əhatəli tapşırıqlarını uğurla yerinə yetirən mərkəzi icra hakimiyyətinin məsuliyyətli, səmərəli orqanı kimi öz statusunu möhkəmləndirmişdir.*

*Bu gün Azərbaycanın Ədliyyə Nazirliyi çox geniş səlahiyyətlərə malikdir, ədliyyə sistemi fəal surətdə müasirləşdirilir, hüquqi sahədə qabaqcıl texnologiyaları tətbiq və inkişaf etdirir.*

*Rusiya Federasiyasının bütün notariusları adından Azərbaycandakı həmkarlarımıza cəmiyyət və dövlət xeyrinə qanuna qulluqda uğurlar arzulayıram! Qoy yığılmış təcrübə və biliklər, inkişaf və mükəmməlliyə hədəflənmə dövlət tərəfindən onun qarşısında qoyulan tapşırıqların yerinə yetirilməsində gələcəkdə də Nazirliyə yardım etsin.*

**Hörmətlə,**

**Konstantin Korsik,**
**Federal Notarial Palatanın Prezidenti**

**Hörmətli Fikrət Fərrux oğlu!**

*Rusiya Cəzaların İcrası Federal Xidmətinin Akademiyasının rəhbərliyi və bütün heyəti adından, icazə verin, Sizi və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin bütün kollektivini Azərbaycan Ədliyyəsinin 100 illiyi və Azərbaycanın ədliyyə işçilərinin peşə bayramı münasibətilə təbrik edim.*

*1918-ci ildə Ədliyyə Nazirliyinin yaradılması Azərbaycan xalqının tarixində ən vacib səhifələrdən biridir. Yaranmasının ilk günlərindən Ədliyyə Nazirliyi hər zaman dövlətçiliyin inkişafı və möhkəmlənməsi, qanunvericiliyin təkmilləşdirilməsi, ədalət prinsiplərinin gücləndirilməsi, vətəndaşların konstitusional hüquqlarının, azadlıqlarının və qanuni maraqlarının həyata keçirilməsi və müdafiəsini fəal şəkildə təşviq etmişdir.*

*Bu gün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ölkənin vahid hüquq məkanının möhkəmlənməsi üzrə əhəmiyyətli dövlət tapşırıqlarını icra edən orqan və qurumlardan ibarət güclü mərkəzləşmiş sistemdir.*

*Qanunçuluq, ədalət və humanizm prinsiplərini dönmədən yerinə yetirən ədliyyə işçilərinin fəaliyyəti Azərbaycanın müasir dövlət kimi inkişafı üçün əsas yaradır, bütün ölkənin rifahının zaminidir.*

*Federal Xidmətin Akademiyası ölkələrimiz arasında qurulan işgüzar əlaqələri yüksək qiymətləndirir və tərəfdaş münasibətlərinin qorunması və möhkəmlənməsi, əməkdaşlığımızın təkmilləşdirilməsi və daha da inkişaf etdirilməsinə böyük əhəmiyyət verir.*

*Azərbaycan Ədliyyəsinin yaranmasının 100 illiyi və ədliyyə işçilərinin peşə bayramı münasibətilə səmimi təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, ölkədə qayda-qanunun təmin olunması naminə fəaliyyətinizdə əzmkarlıq, yeni-yeni uğurlar arzulayıram.*

**Hörmətlə,**

**Aleksandr Krımov**
**Rusiya Cəzaların İcrası Federal Xidmətinin Akademiyasının rəisi**

## Məhkəmə, hüquq-mühafizə və digər dövlət qurumlarından daxil olan təbriklər

**Hörmətli Fikrət müəllim,**

*22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü və Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə Sizə və rəhbərlik etdiyiniz kollektivə səmimi təbriklərimi çatdırır, fəaliyyətinizdə uğurlar arzulayıram.*

*Tarixi Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə başlayan Azərbaycan ədliyyəsi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirərək ölkəmizin hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayır. Ədliyyə orqanları Azərbaycanda genişmiqyaslı məhkəmə-hüquq islahatlarının aparılması, qanunun aliliyinin, ölkə vətəndaşlarının qanuni mənafelərinin, hüquq və azadlıqlarının müdafiəsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, məhkəmə qərarlarının düzgün və vaxtında icrası, vətəndaşların hüquqi maarifləndirilməsi işinə mühüm töhfələr verir.*

*Xüsusi vurğulanmalıdır ki, ədliyyə sistemində yeniliklərin və innovasiyaların tətbiqi, ədalət mühakiməsinin səmərəliliyinin və məhkəmə sisteminə ölkə vətəndaşlarının inamının artırılması, ədliyyənin beynəlxalq əlaqələrinin inkişafı, ölkə ədliyyəsinin özünəməxsus çəkisi və nüfuzunun olması Sizin yorulmaz əməyinizin və səylərinizin nəticəsidir.*

*Bütün bu uğurlar əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş, bu gün isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü və müdrik siyasətin, ölkə həyatının bütün sahələrini əhatə edən dinamik inkişafın, quruculuq və demokratikləşmə proseslərinin daha bir bariz təzahürüdür.*

*Bu gün dünyada gedən hüquqi inkişaf tendensiyaları və ölkəmizin hüquq sistemində aparılan islahatlar ədliyyə orqanlarının da qarşısında yeni vəzifələr qoyur, onların məsuliyyətini daha da gücləndirir.*

*Azərbaycan ədliyyəsinin 100 illiyi ərəfəsində möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə dövlət təltifinə layiq görülməyiniz əməyinizə ən yüksək səviyyədə verilən dəyərin bariz ifadəsidir.*

*İnanırıq ki, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda demokratik hüquqi dövlətin təməl dəyərlərinin müdafiəsi prosesində fəaliyyətinizi bundan sonra da uğurla davam etdirəcək, bu istiqamətdə səylərinizi əsirgəməyəcəksiniz.*

*Sizi və çoxsaylı kollektivinizi bir daha əlamətdar gün münasibətilə təbrik edir, möhkəm cansağlığı, fəaliyyətinizdə müvəffəqiyyətlər və yeni nailiyyətlər arzulayıram.*

**Dərin hörmətlə,**

**Fərhad Abdullayev,**
**Aərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Sədri**

**Hörmətli Fikrət müəllim!**

*Sizi və ədliyyə orqanlarında çalışan bütün əməkdaşları Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi münasibətilə Ali Məhkəmənin kollektivi adından və şəxsən öz adımdan ürəkdən təbrik edir, qanunun aliliyinin, insan hüquqlarının təmin olunması sahəsində şərəfli işinizdə müvəfəqqiyyətlər arzulayıram.*

*Bu yubiley günündə fəxrlə və məmnunluqla bildirmək istəyirəm ki, ulu öndər Heydər Əlyevin dövlət quruculuğu xəttini uğurla davam etdirən ölkə Prezidenti möhtərəm cənab İlham Əlievin rəhbərliyi ilə Azərbaycan ədliyyə sistemi dinamik inkişaf yolundadır. Onun normativ hüquqi bazası daha da təkmilləşdirilir. Ədalət mühakiməsinin səmərəliliyi artırılır.*

*Keşməkeşli, lakin şərəfli bir yol keçən, dövlət həyatında əhəmiyyətli yer tutan ədliyyə sisteminin insan hüquq və azadlıqlarının təminində, demokratik inkişafa törədilən maneələrin aradan qaldırılmasında,*

*ədalət mühakiməsinin beynəlxalq tələblərə cavab verən səviyyədə formalaşmasında, ictimai-siyasi həyatın bütün sahələrində dövlətin hüquqi bazasının möhkəm təməllər üzərində qurulmasında böyük rolu vardır. Azərbacan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə ədliyyə sisteminin bir qrup əməkdaşının yüksək dövlət təltiflərinə, ali xüsusi rütbələrə layiq görülməsi ədliyyə işçilərinin səmərəli fəaliyyətinə yüksək qiymətdir.*

*Sizin rəhərliyinizlə şəffaf və ədalətli kadr islahatları ədliyyə sistemində uğurların əsasını təşkil edir.*

*Sizin sədrliyinizlə fəaliyyət göstərən Məhkəmə-Hüquq Şurasının məhkəmə-hüquq sisteminin müasirləşdirilməsində, təkmilləşdirilməsində və qanunçuluq bazasının möhkəmləndirilməsindəki rolunu xüsusi qeyd etmək istəyirəm. Məhkəmə-Hüquq Şurası tərəfindən görülən tədbirlər hakim vəzifəsinə seçimin tam ədalətli, obyektiv, şəffaf və demokratik şəraitdə keçirilməsinə, bu məsul vəzifəyə layiqli insanların seçilməsinə xidmət etmişdir. Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının plenar iclasında Azərbaycanda hakimliyə namizədlərin seçimi prosedurunun müsbət nümunə kimi qiymətləndirilməsi və bu təcrübənin digər Avropa ölkələrinə tövsiyə edilməsi fərəh doğurur.*

*Ötən il Azərbaycanın Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatına layiq görülməsi ölkəmizin məhkəmə sahəsindəki nailiyyətlərinin bariz nümunəsidir.*

*Ədliyyə Nazirliyinin həyata keçirdiyi "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində də müasir məhkəmə infrastrukturunun yaradılması üzrə tədbirlər xüsusi qeyd olunmalıdır. Son illər 40-dək məhkəmə binası müasir standartlara uyğun layihələndirilmiş, qısa müddətdə 16 məhkəmə üçün yeni müasir binalar istifadəyə verilmiş, 5 yeni bina inşa olunmaqdadır. Bu binalarda vətəndaşların rahatlığı məqsədilə hər cür imkanların yaradılması bir çox problemləri, habelə korrupsiya üçün şəraiti aradan qaldırır.*

*Sizin rəhbərliyinizlə 100 illik şərəfli tarixə malik ədliyyə sistemində məqsədyönlü işlər görülür, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması, sosial ədalətin bərpa olunması, cəza-icra siyasətinin düzgün həyata keçirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir.*

*Sizin peşəkarlığınız, təşkilatçılığınız və işgüzarlığınız ədliyyə sistemində həyata keçirilən tədbirlərin keyfiyyətcə yeni mərhələsinin başlanğıcını qoymuşdur. Ədliyyə Nazirliyinin cəmiyyətdə rolunun və xüsusi çəkisinin əhəmiyyətli dərəcədə artması ədliyyə fəaliyyətinin müasir dövrün tələblərinə və beynəlxalq standartlara uyğun təşkil edilməsini şərtləndirmişdir. Aparılan mütərəqqi islahatlar qanunun aliliyinin təmin olunmasına və vətəndaş cəmiyyətinin bərqərar olmasına əsaslı zəmin yaradır.*

**Hörmətli Fikrət müəllim!**

100 illik yubiley bayramı günündə Sizi bir daha səmimi qəlbdən təbrik edir, şərəfli və məsuliyyətli vəzifələri yerinə yetirən nazirliyin bütün kollekvitinə sağlamlıq və xoşbəxtlik arzulayıram.

**Hörmətlə,**

**Ramiz Rzayev,**
**Azərbaycan Respublikası Ali Məhkəməsinin Sədri**



**Hörmətli Fikrət müəllim!**

*Sizi və nazirliyin bütün əməkdaşlarını Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibəti ilə Respublika Prokurorluğunun kollektivi adından səmimi qəlbdən təbrik edir, Sizə uzun ömür və möhkəm cansağlığı, dövlətçiliyimizin maraqlarına xidmət edən şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə hər il noyabrın 22-nin ədliyyə işçilərinin peşə bayramı günü kimi qeyd olunması ölkəmizdə hüquq siyasətinin həyata keçirilməsində önəmli yerlərdən birini tutan, insan hüquq və azadlıqlarının müdafiəsində əhəmiyyətli rol oynayan ədliyyə işçilərinin əməyinə verilən yüksək qiymətdir.*

*Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Azərbaycan Respublikasının Prezidenti*

*cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən məhkəmə-hüquq islahatları sayəsində ölkəmizdə ədliyyə və məhkəmə orqanlarının fəaliyyəti daha da müasirləşmiş, tamamilə yeni və beynəlxalq standartlara cavab verən, vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsini təmin edən müasir məhkəmə sistemi yaradılmış və bu sahədə əldə edilmiş nailiyyətlər və qabaqcıl təcrübə ölkəmizdə bu islahatlara önəmli dəstək verən Avropanın aparıcı dövlətləri tərəfindən də etiraf olunmaqdadır.*

*Ölkəmizdə reallaşdırılan dövlət gənclər siyasətinin məntiqi nəticəsi kimi tam aşkarlıq və şəffaf prosedurlar əsasında test üsulu ilə layiqli namizədlərin məhkəmə orqanlarına qulluğa qəbul edilməsi gənclərə göstərilən qayğının bariz nümunəsidir. Məhkəmə-Hüquq Şurasının inkişaf etmiş dünya ölkələri standartları səviyyəsində yenidən təşkil edilməsi, hakimliyə namizədlərin seçilməsi prosesini həyata keçirən Hakimlərin Seçki Komitəsinin yaradılması ölkəmizdə uğurla aparılan məhkəmə-hüquq islahatlarını keyfiyyətcə yeni müstəviyə qaldırmaqla məhkəmə sisteminin daha da təkmilləşdirilməsini şərtləndirmişdir.*

*Ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında müasir məhkəmə infrastrukturunun yaradılmasının əhəmiyyəti nəzərə alınaraq Dünya Bankı ilə birgə həyata keçirilən "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində milli memarlıq üslubunda və müasir tələblərə cavab verən yeni inzibati binaların, məhkəmə komplekslərinin inşa edilməsi ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişafına dövlət səviyyəsində göstərilən diqqət və qayğının əyani təzahürüdür. Prezident cənab İlham Əliyevin məhkəmə komplekslərinin inzibati binalarının açılış mərasimində iştirakı və dərin məzmunlu nitqləri məhkəmələrin maddi-texniki bazasının, iş şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlərin ardıcıl xarakter daşıdığının sübutudur.*

*Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamından irəli gələn məsələlərin həlli istiqamətində digər əlaqədar dövlət qurumları ilə apardığınız sıx və qarşılıqlı səmərəli işlər təqdirəlayiqdir.*

**Hörmətli Fikrət müəllim!**

*Ədliyyə orqanlarının müasir məzmunda inkişafında, qazanılmış uğurların əldə edilməsində xidmətləriniz danılmazdır. Beynəlxalq Prokurorlar Assosiasiyasının senatoru və fəxri üzvü olmaqla, Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının vitse-prezidenti seçilməyiniz ölkəmizin hüquqi sahədə beynəlxalq əməkdaşlığında göstərdiyiniz xidmətlərin nəticəsidir.*

*Hüquq mühafizə orqanları ilə, o cümlədən prokurorluqla əlaqələrin yeni müstəvidə daim genişlənməsi, uzun müddət prokurorluq orqanlarında işləməklə zəngin təcrübə toplamış kadrların Ədliyyə Nazirliyində məsul vəzifələrə irəli çəkilməsi, prokurorluq işçilərinin Məhkəmə-Hüquq Şurasının və Hakimlərin Seçki Komitəsinin tərkibində təmsil olunmaları qarşılıqlı əməkdaşlıq sahəsində üzərimizə qoyulmuş vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsinin bariz nümunəsidir.*

*Ədliyyə orqanlarında qulluq keçərkən fərqləndiklərinə, elm, səhiyyə sahələrinin inkişaf etdirilməsində və cəza-icra siyasətinin həyata keçirilməsində fəal iştiraklarına görə mütəmadi olaraq, o cümlədən yubileyiniz ərəfəsində Prezident cənab İlham Əliyevin imzaladığı sərəncamlarla Azərbaycan Respublikasının ədliyyə orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinizə görə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməyiniz, eləcə də əməkdaşlarınızın mükafatlandırılması, fəxri adlara və ali xüsusi rütbələrə layiq görülmələri fəaliyyətinizə dövlət səviyyəsində göstərilən diqqət və etimadın əyani təzahürüdür.*

**Hörmətli Fikrət müəllim!**

*Sizi yubileyiniz münasibətilə bir daha ürəkdən təbrik edir, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında dövlət quruculuğu sahəsindəki fəaliyyətinizdə yeni-yeni nailiyyətlər diləyirəm.*

**Dərin hörmətlə,**

**Zakir Qaralov,**
**Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından**

**Hörmətli Fikrət müəllim!**

*Yarandığı gündən şərəfli bir yol keçən ədliyyə orqanları ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf xətti əsasında daim təkmilləşərək ölkənin hüquq mühafizə sisteminin mühüm tərkib hissəsinə çevrilmiş, cəmiyyətdə yüksək nüfuz qazanmışdır.*

*Ədliyyə sisteminin əməkdaşları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizin tərəqqisi, insan və vətəndaş haqlarının etibarlı müdafiəsi naminə görülən əhəmiyyətli işlərin, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət edən islahatların, bütövlükdə hüquqi, demokratik dövlət quruculuğunun müvəffəqiyyətlə davam etməsinə bu gün də töhfələr verirlər. Eyni zamanda norma yaradıcılığı, hüquqi maarifləndirmə, cəza-icra siyasətinin humanistləşdirilməsi funksiyalarını peşəkarlıqla həyata keçirir, xalqa, Vətənə və dövlətə sədaqəti ilə seçilirlər.*

*Qulluq vəzifələrinin yerinə yetirilməsində fərqlənən ədliyyə işçilərinin dövlət mükafatlarına və ali xüsusi rütbələrə layiq görülməsi, o cümlədən Sizin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmağınız möhtərəm Prezidentin əməyinizə verdiyi yüksək dəyərin əyani təsdiqi olmaqla bizi də qəlbən sevindirir.*

*Davamlı inkişafda olan və günbəgün möhkəmlənən idarələrarası əməkdaşlıq əlaqələrimizin milli maraqlara, vətəndaşların qanuni mənafelərinin qorunmasına, cinayətkarlığa qarşı mübarizəyə, daxili təhlükəsizliyin möhkəmlənməsinə bundan sonra da xidmət edəcəyinə əminəm.*

*Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi münasibətilə Sizi və respublikanın bütün ədliyyə işçilərini daxili işlər orqanlarının şəxsi heyəti və öz adımdan ürəkdən təbrik edir, can sağlığı, ailə səadəti, xoşbəxtlik, məsul işinizdə yeni-yeni nailiyyətlər arzulayıram!*

**Dərin hörmətlə,**

**Ramil Usubov,**
**Azərbaycan Respublikasının daxili işlər naziri**
**general-polkovnik**

**Hörmətli Fikrət Fərrux Oğlu!**

*Sizi və tabeliyinizdə olan kollektivi ədliyyə işçilərinin peşə bayramı günü və ədliyyə orqanlarının yaradılmasının 100 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir və ən xoş arzularımı bildirirəm.*

*Müasir Azərbaycan dövlətçiliyinin banisi, ulu öndər Heydər Əliyevin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında dövlətimizin iqtisadi dayaqları möhkəmlənmiş, müstəqil respublikamızda iqtisadiyyatın davamlı inkişafı təmin edilmiş, vətəndaşların maddi rifahi yaxşılaşmış, ölkəmiz dünyada söz və nüfuz sahibi kimi tanınmışdır. Respublikamızda ədliyyə sahəsində dövlət siyasətinin və idarəetmənin həyata keçirilməsində, qanunların aliliyinin yüksək səviyyədə təmin edilməsində, vətəndaşlarımızın hüquq və azadlıqlarının qorunmasında, insan hüquqlarının müdafiəsinin təşkilində, məhkəmə qərarlarının səmərəli icrasının vaxtında və düzgün yerinə yetirilməsində sizin və ədliyyə işçilərinin böyük əməyi vardır.*

*Sizə və kollektivinizin hər bir üzvünə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və bundan sonra da xidmətinizdə yeni müvəffəqiyyətlər arzulayıram.*

**Hörmətlə,**

**Zakir Həsənov,**
**Azərbaycan Respublikasının müdafiə naziri**
**general-polkovnik**

**Hörmətli Fikrət müəllim,**

*Azərbaycan Ədliyyəsinin 100 illiyi və ədliyyə işçilərinin peşə bayramı günü münasibətilə Sizi və ölkəmizin bütün məhkəmə-hüquq sisteminin əməkdaşlarını səmimi qəlbdən təbrik edərək, qanunçuluğun və hüquq normalarının etibarlı təminatı sahəsində fəaliyyətinizdə daim uğurlar arzulayıram.*

*Bütün varlığı ilə vətəninə, xalqına bağlı olan müdrik şəxsiyyət və görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə müstəqil və suveren Azərbaycan Respublikasında milli dövlətçilik ənənələrimizə və beynəlxalq standartlara əsaslanaraq həyata keçirilən genişmiqyaslı hüquqi islahatlar nəticəsində yenidən formalaşdırılan ədliyyə orqanları mütərəqqi normativ-hüquqi və demokratik məzmunlu fəaliyyət prinsiplərinə malik bir struktura çevrilmiş oldu.*

*Ümummilli Liderin dövlət quruculuğu xəttini uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının rəhbərliyi ilə ölkəmizdə siyasi və iqtisadi islahatların paralel aparılması, o cümlədən ədliyyə və məhkəmə-hüquq islahatlarının sosial-iqtisadi inkişaf dinamikası ilə uzlaşdırılması sayəsində hərtərəfli irəliləyişə nail olunmuşdur. Azərbaycan ədliyyəsinin davamlı inkişafı üzrə aparılan ardıcıl və məqsədyönlü islahatlar insan haqlarının etibarlı qorunması, hüquqi xidmətin yaxşılaşdırılması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması sahəsində görülmüş tədbirlər nəticəsində ədliyyə sistemi yeni, müasir inkişaf mərhələsinə qədəm qoymuşdur.*

*Azərbaycan Respublikasında reallaşdırılan məhkəmə-hüquq islahatları çərçivəsində ədliyyə orqanları müasir məzmunda yeniləşdirilməklə cəmiyyətdə statusuna uyğun yerini tutmuşdur. Nazirliyin fəaliyyət istiqamətləri, onun qarşısında duran mühüm vəzifələrin miqyası genişlənmiş, dövlətçiliyə sədaqəti ilə seçilən kadr korpusu yaradılmışdır. Sizin rəhbərliyiniz altında ədliyyə orqanları bu gün öz işini zamanın ictimai-siyasi və sosial-iqtisadi reallıqlarına uyğun qurmaqla cəmiyyətin və dövlətin maraqlarının qorunmasında, qanunçuluğun təmin edilməsində və bütövlükdə milli hüquq sisteminin inkişafında mühüm rol oynamaqdadır.*

*Fövqəladə Hallar Nazirliyinin çoxsaylı kollektivi adından bir daha bu əlamətdar hadisə və peşə bayramınız münasibətilə Sizi ürəkdən təbrik edir, ölkə başçısının müdrik rəhbərliyi altında həyata keçirilən hüquqi dövlət quruculuğu işində yeni-yeni müvəffəqiyyətlər arzu edirəm.*

**Hörmətlə,**

**Kəmaləddin Heydərov,**
**Azərbaycan Respublikasının fövqəladə hallar naziri**
**general-polkovnik**

**Hörmətli Fikrət müəllim!**

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmağınız, Ədliyyə Nazirliyinin bir qrup əməkdaşının yüksək dövlət mükafatlarına və xüsusi rütbələrə layiq görülmələri, Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivi ürəkdən təbrik edir, ən xoş və səmimi arzularımı çatdırıram!*

*Təşəkkül tapdığı gündən şərəfli və böyük inkişaf yolu keçmiş Azərbaycan ədliyyə orqanları ulu öndər Heydər Əliyevin şah əsəri və regionun lider ölkəsi olan respublikamızda demokratik-hüquqi dövlət quruculuğu, məhkəmə-hüquq sisteminin formalaşdırılması və onun əsaslarının möhkəmləndirilməsi, eləcə də qanunun aliliyinin təmin olunması sahəsində mühüm rol oynayır.*

*Möhtərəm Prezident Zati-aliləri cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə müasir dövrün çağırışlarına uyğun olaraq ədliyyə sisteminin təkmilləşdirilməsində və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında, vətəndaşların fundamental hüquq və azadlıqlarının müdafiəsində, ümumən Azərbaycanın beynəlxalq hüququn subyekti kimi nüfuz qazanmasında Ədliyyə Nazirliyinin özünəməxsus rolu və xid-*

*mətləri hamılıqla təqdir olunur.*

*Əminəm ki, Azərbaycanda konstitusion normaların və ədalət prinsipinin dönmədən həyata keçirilməsində ədliyyə və dövlət təhlükəsizliyi orqanlarının ümumi səyləri nəticəsində bundan sonra da milli maraqlara, müstəqilliyə və dövlətçiliyin möhkəmlənməsinə layiqli töhfələr veriləcəkdir.*

**Hörmətli Fikrət müəllim!**

*Sizi və Ədliyyə Nazirliyinin kollektivini Dövlət Təhlükəsizliyi Xidmətinin şəxsi heyəti və öz adımdan bir daha səmimi qəlbdən təbrik edir, möhkəm cansağlığı, ailə səadəti, bol-bol sevinc, Vətənə şərəfli xidmətinizdə müvəffəqiyyətlər diləyirəm!*

**Hörmətlə,**

**Mədət Quliyev,**
**Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi,**
**Azərbaycanın Milli Qəhrəmanı,**
**general-polkovnik**

**Hörmətli Fikrət müəllim!**

*Sizi və rəhbərlik etdiyiniz kollektivi ədliyyə orqanlarının 100 illik yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edirəm!*

*Azərbaycan ədliyyəsinin şanlı tarixi Azərbaycan Xalq Cümhuriyyəti dövründə 1918-ci ildə Ədliyyə Nazirliyinin təsis edilməsi ilə başlamışdır. Bir əsrlik inkişaf yolu ərzində ədliyyə orqanları dövlətçiliyimizin əsas dayaqlarından birinə çevrilmişdir.*

*Ümummilli lider Heydər Əliyev ədliyyə sisteminin stabil funksiya və struktura malik olması, onun inkişafı üçün önəmli tədbirlər həyata keçirmişdir. Hələ 1970-ci ildə Ədliyyə Nazirliyini yenidən və əsaslı surətdə təsis edərək, onun gələcək inkişafı üçün əlverişli şərait yaratmışdır.*

*Müstəqillik illərində ədliyyə və məhkəmə-hüquq sisteminin inkişafına müstəsna əhəmiyyət verən ulu öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə yeni Konstitusiyamız qəbul olunmuş, hüquqi sahədə islahatların mütəşəkkil qaydada aparılması üçün Hüquqi İslahat Komissiyası yaradılmış, qısa müddət ərzində mühüm qanunlar qəbul olunmuş, məhkəmə və hüquq mühafizə orqanlarının funksiya və səlahiyyətlərinə yenidən baxılmışdır. Azərbaycan ədliyyəsinin inkişafını təmin edən ardıcıl tədbirlər həyata keçilərərək səlahiyyətləri genişləndirilmiş, istintaq aparatı, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət institutu, icra xidməti yaradılmışdır.*

*Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dəstəyi və qayğısı nəticəsində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin fəaliyyətinin beynəlxalq standartlar səviyyəsində qurulması təmin edilmiş, normativ-hüquqi bazası təkmilləşdirilmiş, maddi-texniki təchizatı yaxşılaşdırılmış, ədliyyə orqanları işçilərinin sosial müdafiəsi daha da gücləndirilmişdir. Bu gün əminliklə söyləmək olar ki, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi - ədliyyə sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi böyük nailiyyətlər əldə etmişdir!*

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan ədliyyəsinin yaranmasının 100 illik yubileyi münasibətilə Sərəncam imzalayaraq, ədliyyə orqanlarının inkişafında fərqlənən şəxsləri ali xüsusi rütbə, fəxri ad, eləcə də orden və medallarla təltif etmişdir.*

**Hörmətli Fikrət müəllim!**

*Bir daha Sizi ədliyyə orqanlarının 100 illik yubileyi münasibəti ilə təbrik edir, Sizə dövlətimizin inkişafı istiqamətində göstərdiyiniz şərəfli və məsuliyyətli fəaliyyətinizdə böyük nailiyyətlər arzulayıram!*

**Dərin hörmətlə,**

**Vaqif Axundov,**
**Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi,**
**general-polkovnik**

**Hörmətli Fikrət müəllim,**

*Sizi və tabeliyinizdə olan bütün şəxsi heyəti 22 noyabr Azərbaycan Respublikası ədliyyə işçilərinin peşə bayramı günü və Azərbaycan ədliyyə orqanlarının 100 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm!*

*Dahi öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş müstəqil Azərbaycan Respublikasının milli hüquq sisteminin formalaşdırılması və inkişafı, hüquq siyasətinin aparılması, qanunun aliliyinin təmin olunması sahəsində böyük xidmətləri olan ədliyyə orqanları bu il yaradılmasının 100 illiyini böyük şərəf və qürur hissi ilə qeyd edir.*

*1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaradılması ilə eyni vaxtda təsis olunan Ədliyyə Nazirliyi ədliyyə strukturlarının, məhkəmələrin və istintaq sahələrinin bərpası ilə fəaliyyətə başlayaraq 100 illik tarixi dövr ərzində zəngin, keşməkeşli bir yol keçərək müasir inkişaf mərhələsinə qədəm qoymuş, dövlətin hüquq siyasətini həyata keçirən səlahiyyətli və nüfuzlu bir dövlət orqanına çevrilmişdir.*

*Rəhbərliyiniz altında Ədliyyə Nazirliyi tərəfindən hüquqi dövlət quruculuğunun uğurla həyata keçirilməsi, dövlət orqanlarının qanunvericilik bazasının təkmilləşdirilməsi və uyğunlaşdırılması, məhkəmə sisteminin formalaşdırılması və təşkilati rəhbərlik edilməsi, regionlarda müasir tələblərə cavab verən məhkəmə orqanlarının inzibati binalarının istifadəyə verilməsi, əhaliyə hüquqi yardımların yaxşılaşdırılması, notariat fəaliyyətinin, məhkəmə ekspertizalarının aparılmasında müasir vasitələrin tətbiq edilməsi, hakimlərin seçimi və fəaliyyətində şəffaflığın təmin edilməsi sahələrində ciddi uğurlar əldə olunmuşdur.*

*Bu bayram ərəfəsində Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi münasibətilə, hakim vəzifəsini nümunəvi yerinə yetirdiklərinə, ədliyyə orqanlarında qulluq keçərkən fərqləndiklərinə, ədliyyə sistemində elm, səhiyyə sahələrinin inkişaf etdirilməsində və cəza-icra siyasətinin həyata keçirilməsində fəal iştiraklarına görə başda Siz olmaqla bir qrup əməkdaşınızın Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə orden və medallarla təltif olunması, fəxri adlara və xüsusi ali rütbələrə layiq görülməsi fəaliyyətinizə göstərilən ali dövlət qayğısının təzahürüdür.*

**Hörmətli Fikrət müəllim!**

*Bir daha Sizi və ədliyyə orqanlarının bütün əməkdaşlarını bu əlamətdar gün və 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmağınız münasibətilə təbrik edir, Azərbaycan Respublikasının Prezidenti - Silahlı Qüvvələrin Ali Baş Komananı cənab İlham Əliyevin rəhbərliyi altında dövlətçiliyimizin, doğma Azərbaycanımızın inkişafı naminə fəaliyyətinizdə uğurlar diləyir, şəxsi həyatınızda sevinc dolu anlar arzu edirəm!*

**Hörmətlə,**

**Elçin Quliyev,**
**Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi**
**general-polkovnik**

**Hörmətli Fikrət müəllim,**

*Sizi və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin bütün kollektivini Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təbrik edirəm.*

*Zəngin və şərəfli tarixi yol keçən Azərbaycan ədliyyəsi ulu öndər Heydər Əliyevin qayğısı ilə təkmil bir struktur kimi formalaşaraq inkişaf etmiş, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında mütərəqqi islahatlar aparılmaqla daha da təkmilləşmiş, səlahiyyətləri xeyli genişlənmiş, cəmiyyətdə yeri və rolu əhəmiyyətli dərəcədə artmışdır. Bunun nəticəsidir ki, hazırda Azərbaycanda ədliyyə orqanları qanunun aliliyi və insan hüquqlarının qorunmasında, şəffaflığın və ictimai iştirakçılığın təmin olunmasında müstəsna rol oynayırlar.*

*Bu gün Azərbaycan ədliyyəsi 100 yaşını ədalət mühakiməsini yüksək səviyyədə təşkil edən, peşəkar*

*hakim korpusuna malik nüfuzlu və müstəqil hakimiyyət qolu kimi qeyd edir.*

*İnanırıq ki, məhkəmə və ədliyyə orqanları bundan sonra da Azərbaycan Konstitusiyasının aliliyini təmin edəcək, hüquqi dövlət quruculuğu istiqamətdə səylərini davam etdirərək qarşıda duran vəzifələri layiqincə yerinə yetiricəklər.*

*Bir daha Azərbaycan ədliyyəsinin şanlı yubileyi münasibətilə Sizi və Ədliyyə Nazirliyinin bütün kollektivini təbrik edir, fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.*

**Hörmətlə,**

**Samir Şərifov,**
**Azərbaycan Respublikasının maliyyə naziri**

**Hörmətli Fikrət müəllim!**

*Sizi və ədliyyə orqanları əməkdaşlarını peşə bayramınız münasibəti ilə İqtisadiyyat Nazirliyinin kollektivi və öz adımdan səmimi qəlbdən təbrik edirəm.*

*XX əsrin sonlarında dövlət müstəqilliyimizin bərpa edilməsi ilə başlanan Azərbaycan ədliyyəsinin inkişafı, Ədliyyə Nazirliyinin təkmil struktur kimi formalaşması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin rəhbərliyi, diqqət və qayğısı ilə digər sahələrdə olduğu kimi, məhkəmə-hüquq sahəsində də köklü islahatlar aparıldı, ədliyyə sisteminin gələcək inkişafı üçün möhkəm təməl yaradıldı.*

*Bu inkişaf kursunun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurlu davamı olaraq, ölkəmizdə demokratik dəyərlərin, vətəndaş hüquqlarının etibarlı müdafiə sistemi yaradılmış, beynəlxalq standartlara cavab verən mükəmməl ədliyyə sistemi formalaşmışdır.*

*Bu gün Azərbaycanda qanunların aliliyinin, cəmiyyətdə hüquqi və mənəvi saflığın, əmin-amanlığın təmin olunmasında, insan haqlarının etibarlı müdafiəsində Ədliyyə Nazirliyinin səmərəli fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir.*

*Ölkə rəhbərliyi ədliyyə sisteminin, ədliyyə orqanları əməkdaşlarının Vətənimiz qarşısında xidmətlərini daim yüksək qiymətləndirir. Hər il noyabrın 22-nin ədliyyə işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi, onların sosial müdafiəsinin gücləndirilməsi tədbirləri, dövlət başçısının bu günlərdə imzaladığı sərəncamlarla Sizin yüksək mükafata layiq görülməyiniz, ədliyyə orqanları əməkdaşlarının orden və medallarla təltif olunması, ali xüsusi rütbələrin verilməsi Azərbaycan ədliyyəsinə dövlət qayğısının, məhkəmə-hüquq sistemi işçilərinin əməyinə verilən yüksək qiymətin göstəriciləridir.*

*Əminik ki, ədliyyə orqanları həmişə olduğu kimi, bundan sonra da milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsində, müstəqil Azərbaycanın qüdrətlənməsində ön sıralarda olacaqlar.*

*Bu yolda Sizə böyük uğurlar arzulayır, peşə bayramınızı bir daha təbrik edirəm.*

**Hörmətlə,**

**Şahin Mustafayev,**
**Azərbaycan Respublikasının iqtisadiyyat naziri**

**Hörmətli Fikrət müəllim,**

*Sizi 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü, Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi və Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmağınız münasibətilə səmimi qəlbdən təbrik edirəm.*

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ədliyyə və məhkəmə-hüquq sisteminin davamlı inkişafı naminə məsul və səmərəli fəaliyyətinizdə Sizə uğurlar arzulayıram.*

*Rəhbərlik etdiyiniz qurum ölkəmizin ədliyyə orqanlarının daha da təkmilləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, vətəndaş hüquqlarının etibarlı şəkildə müdafiəsi və şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm işlər həyata keçirir.*

*Sizi və Azərbaycan Respublikasının ədliyyə işçilərini peşə bayramı günü, Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi və yüksək dövlət mükafatına layiq görülməyiniz münasibətilə bir daha ürəkdən təbrik edir, məsuliyyətli və şərəfli fəaliyyətinizdə yeni-yeni nailiyyətlər diləyirəm.*

**Hörmətlə,**

**Mikayıl Cabbarov,**
**Azərbaycan Respublikasının vergilər naziri**

**Hörmətli Fikrət müəllim!**

*Sizi və Sizin şəxsinizdə ölkəmizin bütün ədliyyə işçilərini Azərbaycan ədliyyəsinin 100 illiyi və ədliyyə işçilərinin peşə bayramı münasibətilə Azərbaycan Respublikası Energetika Nazirliyinin kollektivi adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.*

*Azərbaycanda hüquqi dövlət quruculuğu ulu öndər Heydər Əliyevin milli dövlətçilik kursunu əzmlə davam etdirən Azərbaycan Rezpublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü siyasəti sayəsində yeni mərhələyə qədəm qoymuşdur.*

*Ölkəmizdə hüquqi islahatların uğurla həyata keçirilməsində, insanların hüquq və azadlıqlarının, cəmiyyətdə qanunun aliliyinin təmin olunmasında, vətəndaş cəmiyyəti quruculuğunda ədliyyə orqanlarının mühüm rolu vardır. Bu sahədə əldə edilən nailiyyətlər Azərbaycandakı davamlı inkişaf mühitinə böyük töhfələr verir, ölkəmizi öz strateji hədəflərinə doğru aparır.*

*İnanırıq ki, Azərbaycan ədliyyəsi Sizin rəhbərliyiniz altında ölkəmizin hüquqi dövlət kimi inkişafına dəyərli töhfələrini bundan sonra da davam etdirəcək, xalqın ədliyyə orqanlarına olan yüksək inamını daim doğruldacaqdır.*

*Bu əlamətdar gün münasibətilə Sizə ən xoş diləklərimizi yetirir, uzun ömür, möhkəm cansağlığı, həyat və fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.*

**Hörmətlə,**

**Pərviz Şahbazov**
**Azərbaycan Respublikasının energetika naziri**

**Hörmətli Fikrət müəllim,**

*Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi, ədliyyə işçilərinin peşə bayramı və Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edir, çətin və şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzu edirəm.*

*Azərbaycan Respublikası Prezidentinin diqqət və qayğısı nəticəsində ədliyyə orqanları şərəfli inkişaf yolu keçmiş, Sizin peşəkar rəhbərliyinizlə ölkəmizdə qanunçuluğun qorunmasında, hüquq sisteminin təkmilləşdirilməsində xüsusi xidmətlər göstərmişdir, bu gün də müstəqil Azərbaycanın inkişafına, ölkədə hüququn aliliyinin təmin edilməsinə layiqincə xidmət edir, dövlətimizin və xalqımızın maraqlarının keşiyində şərəflə dayanır.*

**Hörmətli Fikrət müəllim,**

*Sizi peşə bayramınız və yüksək dövlət təltifinə layiq görülməyiniz münasibətilə bir daha ürəkdən təbrik edir, fəaliyyətinizdə uğurlar diləyir, möhkəm cansağlığı arzu edirəm. Əminəm ki, bundan sonra da ədliyyə*

*orqanları Sizin rəhbərliyinizlə qanunçuluğun qorunmasına, sabitliyin möhkəmlənməsinə, təhlükəsizliyin təmin edilməsinə və doğma ölkəmizin tərəqqisinə öz layiqli töhfəsini verəcəkdir.*

**Dərin hörmətlə,**

**Ceyhun Bayramov**
**Azərbaycan Respublikasının təhsil naziri**

**Hörmətli Fikrət müəllim!**

*22 noyabr - Azərbaycanın ədliyyə işçilərinin peşə bayramı münasibətilə Sizi və ölkəmizin ədliyyə orqanlarının bütün əməkdaşlarını səmimi qəlbdən təbrik edir, ən xoş arzular diləyirəm.*

*Bu gün Vətənimizin ümummilli lider Heydər Əliyevin siyasi kursu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düşünülmüş siyasəti və bacarıqlı rəhbərliyi sayəsində, hətta dünyanı bürüyən maliyyə böhranına baxmayaraq, öz inkişafını davam etdirir. Bu tərəqqi yalnız ictimai-siyasi sabitlik, qanunçuluğun qorunması, qanunun aliliyi prinsipinin təmin edilməsi zamanı mümkündür. Azərbaycanın ədliyyə orqanları bu şəraiti yaratmaqla ədalət məhkəməsinin və onun qərarlarının icrası sisteminin davamlı inkişafını təmin etməklə ölkəmizdə demokratik hüquqi dövlət qurulmasında əhəmiyyətli rol oynayırlar. Bununla da ədliyyə işçiləri Vətənimizin çiçəklənməsinə dəyərli töhfələr verirlər.*

*Peşə bayramınız münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, Sizə uzun ömür, möhkəm sağlamlıq, gərəkli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.*

**Hörmətlə,**

**Oqtay Şirəliyev**
**Azərbaycan Respublikasının səhiyyə naziri**

**Hörmətli Fikrət müəllim,**

*Sizi Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi və Azərbaycan Respublikasının Prezidenti tərəfindən 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.*

*Hər il noyabr ayının 22-nin milli dövlətçiliyimizin inkişafında və hüquqi dövlət quruculuğunda müstəsna rolu olan ədliyyə orqanları işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi, ədliyyə sistemində əsaslı islahatlara başlanılması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.*

*Bu islahatları qətiyyətlə davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə son illər ərzində ədliyyə orqanlarının fəaliyyətinin zamanın çağırışlarına uyğun olaraq modernləşdirilməsi və onların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində bir sıra uğurlu layihələr həyata keçirilir. Məhkəmə sisteminin normativ-hüquqi bazası təkmilləşdirilir, ədliyyə orqanlarında şəffaflığın artırılması və korrupsiya hallarına qarşı mübarizə sahəsində əməli addımlar atılır. Ölkəmizdə ədalət, insan azadlığı və humanizm kimi prinsiplərin bərqərar olmasına yönəlmiş tədbirlər beynəlxalq aləmdə Azərbaycanın demokratik ölkə kimi imicinin formalaşmasına da öz müsbət təsirini göstərir. Bütün bu işlərdə Sizin və rəhbərlik etdiyiniz kollektivin də böyük əməyi vardır.*

**Hörmətli Fikrət müəllim,**

*Sizi bir daha bu əlamətdar gün və yüksək mükafata layiq görülməyiniz münasibətilə təbrik edir, doğma Azərbaycanın daha da qüdrətlənməsi və tərəqqisi naminə səmərəli fəaliyyətinizdə Sizə yeni-yeni müvəffəqiyyətlər arzulayıram.*

**Hörmətlə,**

**Sahil Babayev,**
**Azərbaycan Respublikasının**
**əmək və əhalinin sosial müdafiəsi naziri**

**Hörmətli Fikrət Məmmədov,**

*Sizi 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü münasibəti ilə ürəkdən təbrik edir və ən xoş arzularımı bildirirəm.*

*Azərbaycanda ədliyyənin müasir tələblərə cavab verən sistem kimi formalaşması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin həyata keçirdiyi dövlət quruculuğu prosesi nəticəsində ədliyyə orqanlarının dövlət idarəetmə mexanizmində yeri və rolu dəqiq müəyyən edilmişdir.*

*Ulu öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna, insan hüquqlarının və azadlıqlarının qorunmasına, demokratik təsisatların yaranmasına yönələn siyasəti Azərbaycanı hüquqi dövlət quruculuğu ilə bağlı öz təcrübəsini bölüşən bir ölkəyə çevirib.*

*Sizin səmərəli fəaliyyətiniz nəticəsində dövlətçilik ideyalarına sadiqlik nümayış etdirən ədliyyə orqanları qanunun aliliyinin təmin olunmasında, vətəndaşların hüquqlarının etibarlı müdafiəsində öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər.*

*Əlamətdar gün münasibətilə bir daha Sizi və rəhbərlik etdiyiniz kollektivi ürəkdən təbrik edir, şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram.*

**Hörmətlə,**

**Ramin Quluzadə,**
**Azərbaycan Respublikası nəqliyyat,**
**rabitə və yüksək texnologiyalar naziri**

**Hörmətli Fikrət müəllim,**

*22 noyabr - Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə Sizi və ölkəmizin məhkəmə-hüquq ictimaiyyətini səmimi qəlbdən təbrik edərək, milli qanunvericiliyimizin daha da təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının etibarlı təminatı naminə xidməti fəaliyyətinizdə daim uğurlar diləyirəm.*

*Qanunun aliliyinin təmin olunmasında ədliyyə-hüquq sisteminin önəmli rolunu layiqincə dəyərləndirən ulu öndər Heydər Əliyev bu sahə üzrə sovet dönəmindən əsasını qoyduğu islahatlar kompleksini müstəqil və suveren respublikamıza rəhbərliyi dövründə mahiyyət və keyfiyyətcə yüksək mərhələdə davam etdirərək, ictimai-siyasi həyatımızın bütün sahələrində ümumbəşəri meyarların bərqərar olmasına xidmət edən ilk milli Konstitusiyamızın ərsəyə gətirilməsinə nail olmaqla qabaqcıl beynəlxalq standartlara cavab verən hüquqi-demokratik dövlət və sivil vətəndaş cəmiyyəti quruculuğunun Azərbaycan modelini formalaşdırmış oldu. Məhz Əsas Qanunumuzdan qaynaqlanan çoxşaxəli məhkəmə-hüquq islahatları nəticəsində sürətlə müasirləşməkdə və demokratikləşməkdə olan milli ədliyyəmiz artıq mütərəqqi ruhlu təkmil bir dövlət təsisatına çevrilməklə hazırda suveren dövlətçiliyimizə və xalqımızın maraqlarına uğurla xidmət etməkdədir.*

*Ümummilli Liderin humanizmə, ədalətə və dərin elmi əsaslara söykənən hüquq siyasətini respublikamızın hazırkı inkişaf səviyyəsinə adekvat qaydada inamla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının praqmatik rəhbərliyi altında innovativ inkişaf mərhələsinə qədəm qoyaraq, son illər ardıcıllıqla istifadəyə verilən müvafiq qurumlar və struktur bölmələri hesabına özünün fəaliyyət dairəsini əhəmiyyətli dərəcədə genişləndirən ədliyyə-məhkəmə sistemi bu gün yüksək texnologiyalarla təchiz edilən maddi-texniki və müasir normativ-hüquqi bazaya, həmçinin demokratik prinsiplər əsasında kom-*

*plektləşdirilən peşəkar kadr korpusuna malik olmaqla artıq beynəlxalq məkanda örnək səviyyəsinə yüksəlmişdir. Ölkə rəhbəri tərəfindən "Elektron məhkəmə" informasiya sisteminin yaradılmasına dair bir neçə il öncə imzalanmış Sərəncam isə bu sahədə şəffaflığın artırılması ilə yanaşı, qeyri-prosessual təmas hallarının məhdudlaşdırılması və məmur-vətəndaş münasibətlərinin sağlam zəmin üzərində qurulması üçün müstəsna əhəmiyyət kəsb etməkdədir.*

*Əlamətdar yubileylə bağlı Dövlət Gömrük Komitəsinin şəxsi heyəti adından bir daha səmimi təbriklərimi çatdıraraq Sizə möhkəm cansağlığı və uzun ömür diləyir, ali dövlət qayğısı ilə əhatə olunan Azərbaycan ədliyyəsinə yeni-yeni nailiyyətlər arzulayıram.*

**Hörmətlə,**

**Səfər Mehdiyev,**
**Azərbaycan Respublikası**
**Dövlət Gömrük Komitəsinin sədri**
**gömrük xidməti general-leytenantı**

**Hörmətli Fikrət müəllim,**

*Sizi Azərbaycan ədliyyəsinin 100 illik yubileyi və ədliyyə işçilərinin peşə bayramı münasibətilə ilə ürəkdən təbrik edir, işinizdə müvəffəqiyyət arzu edirəm.*

*Dövlətçilik tariximizdə özünəməxsus yeri olan Azərbaycan ədliyyəsi o vaxtlar şəraitin çətinliyinə, imkanların və kadrların məhdudluğuna baxmayaraq ölkənin ədliyyə sisteminin formalaşdırılması və inkişafı naminə xeyli iş görmüşdür. Ümummilli lider Heydər Əliyevin islahatların sürətlə aparıldığı bir dövrdə ədliyyə sisteminin dövlət mexanizminin işləkliyinin təmin olunmasında oynadığı rola verdiyi əhəmiyyətə görədir ki, 22 noyabr Ədliyyə Nazirliyinin ilk Əsasnaməsinin təsdiqləndiyi gün respublikamızda ədliyyə işçilərinin peşə bayramı kimi qeyd olunmağa başlanmışdır. O dövrdən başlayaraq ədliyyə sistemi dövlət mexanizminin mühüm elementi kimi öz rolunu artırmış, hüquq-mühafizə fəaliyyəti, digər orqanlarla qarşılıqlı əlaqənin səmərəli və operativ təmin edilməsi istiqamətində mühüm təcrübə formalaşmışdır.*

*Azərbaycan Respublikasının möhkəm hüquqi əsaslara söykənən dövlət kimi formalaşmasında və inkişafında ədliyyə sisteminin müstəsna xidmətləri vardır. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin davamlı tərəqqisi, sabitliyi və təhlükəsizliyi tam təmin olunur, ədliyyə və məhkəmə sistemində uğurlu islahatlar həyata keçirilir. Sizin rəhbərliyiniz ilə Ədliyyə Nazirliyinin fəaliyyəti daha da təkmilləşdirilmişdir. Dövlətimizin və vətəndaşlarımızın hüquqlarının qorunması sahəsində əldə etdiyiniz böyük nailiyyətlər Nazirliyinizə xalqımızın və ölkə rəhbərliyinin rəğbətini qazandırmışdır. Nazirliyin bundan sonra da bütün vətəndaşların, o cümlədən qadın və uşaqların hüquqlarının təmin edilməsi istiqamətində ardıcıl fəaliyyət göstərəcəyinə əminik.*

**Hörmətli Fikrət müəllim,**

*Sizi və əməkdaşlarınızı bir daha Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin kollektivi və öz adımdan bu əlamətdar günlər münasibəti ilə ürəkdən təbrik edir, can sağlığı və səmərəli fəaliyyətinizdə uğurlar arzu edirəm.*

**Hicran Hüseynova,**
**Ailə, Qadın və Uşaq Problemləri üzrə**
**Dövlət Komitəsinin sədri**

**Hörmətli Fikrət müəllim!**

*Sizi və rəhbərlik etdiyiniz ədliyyə orqanlarının çoxsaylı kollektivini 22 noyabr - Azərbaycan ədliyyəsinin yaradılmasının 100 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir, Sizlərə möhkəm cansağlığı, uzun ömür, xoş günlər, qanunun aliliyinin təmin edilməsi, vətəndaşların hüquqlarının həyata keçirilməsi sahəsində məsuliyyətli fəaliyyətinizdə böyük nailiyyətlər arzulayıram.*

*100 il əvvəl, 1918-ci ildə Azərbaycan dövlət müstəqilliyi elan olunmuş və qəbul edilən "İstiqlal Bəyannaməsi"ndə Azərbaycanın tamhüquqlu və müstəqil dövlət olmağı, ali hakimiyyətinin Azərbaycan xalqına məxsusluğu, bütün vətəndaşlara heç bir ayrı-seçkilik olmadan vətəndaşlıq və siyasi hüquqlar verildiyi təsbit edilmişdir. Xalq Cümhuriyyəti dövründə digər böyük tarixi nailiyyətlərlə yanaşı, müstəq8il respublikanın ilk ədliyyə orqanları da yaradılmışdır.*

*Bu il anadan olmasının 95-ci və hakimiyyətə qayıtmasının 25-ci ildönümlərini qeyd etdiyimiz ümummilli liderimiz Heydər Əliyev hər zaman fəaliyyətində Azərbaycan Xalq Cümhuriyyətinə yüksək önəm verərək həmin tarixi dövrün tədqiq edilməsinə, tarixi hadisələrin yaşadılmasına və varislik prinsipinin qorunaraq daha da inkişaf etdirilməsinə böyük səylər göstərmişdir.*

*Ulu Öndərin məqsədyönlü siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd edilməsi, 2018-ci ildə ölkəmizdə Azərbaycan Xalq Cümhuriyyəti İlinin elan olunması, bununla əlaqədar paytaxt və regionlarda silsilə konfransların, tədbirlərin təşkili, habelə Bakının işğaldan azad olunmasının 100 illiyi ilə bağlı bir müddət əvvəl dövlət başçımızın və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə möhtəşəm hərbi paradın keçirilməsi hər bir azərbaycanlının, o cümlədən xaricdə yaşayan soydaşlarımızın ürəyində fərəh hissi yaşadır. Bu günlərdə Dövlət Bayrağının 100 illiyi ilə bağlı tədbirlər də bu qəbildəndir.*

*Xalq Cümhuriyyətinin siyasi varisi olan müstəqil Azərbaycan Respublikasında ümummilli liderimiz Heydər Əliyevin tarixi və əvəzsiz xidmətləri sayəsində müasir ədliyyə orqanlarının, məhkəmə sisteminin inkişafı, hüquq islahatlarının kompleks və hərtərəfli şəkildə aparılması təmin edilmişdir. Onun böyük qayğısı ilə Azərbaycan ədliyyəsinin işi yüksək tələblər səviyyəsinə qaldırılmış, mükəmməl normativ hüquqi bazanın yaradılması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə mühüm tədbirlər həyata keçirilmiş, nəticədə ədliyyə orqanlarının cəmiyyətdə rolu və əhəmiyyəti daha da yüksəlmişdir.*

*Dövlət başçısı İlham Əliyev hüquq sisteminin əsasını təşkil edən ədliyyə orqanlarının daha da effektivliyi və müasirləşdirilməsi məsələlərinə xüsusi diqqətlə yanaşır. Onun müvafiq sərəncamları, o cümlədən "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi" barədə Sərəncamı rəhbərlik etdiyiniz nazirlikdə mühüm islahatların aparılmasına xidmət edir.*

*Eyni zamanda ədliyyə orqanlarının formalaşmasında, müstəqil məhkəmə və penitensiar sistemlərinin təkmilləşdirilməsində səylər göstərilir və bu sistemin uğurlu inkişafında şəxsən Sizin əməyiniz olduqca böyükdür.*

*Rəhbərlik etdiyiniz Məhkəmə-Hüquq Şurası ölkəmizdə məhkəmə sisteminin təmin olunması, məhkəmə hakimiyyətinin özünüidarə funksiyalarının gerçəkləşdirilməsi sahəsində böyük önəm daşıyır. Son dövrlərdə paytaxt və bölgələrdə yaşayan sakinlərin qanuni mənafeyinin ədalət mühakiməsi yolu ilə müdafiəsi mexanizminin təkmilləşdirilməsi məhkəmə-hüquq islahatlarının əsas hədəflərindən biri olmuşdur.*

*Ombudsman təsisatının Ədliyyə Nazirliyi ilə insan hüquqları sahəsində səmərəli əməkdaşlıq şəraitində fəaliyyəti, Penitensiar xidmət və Ədliyyə Akademiyası ilə sıx əlaqələrimiz, həmin istiqamətdə birgə*

*maarifləndirici tədbirlərimiz effektiv həyata keçirilir və inanırıq ki, bu əməkdaşlığımız uğurla davam etdiriləcək.*

*Sizi Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi münasibətilə bir daha ürəkdən təbrik edir, fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.*

**Hörmətlə,**

**Elmira Süleymanova,**
**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)**

**Hörmətli Fikrət müəllim!**

*Sizi və rəhbərlik etdiyiniz kollektivi 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü münasibətilə səmimi qəlbdən təbrik edir, dəyərli və şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.*

*Şərqin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətində mühüm dövlət təsisatı kimi Ədliyyə Nazirliyi yaradılsa da, ölkəmizdə sovet hakimiyyəti qurulduqdan sonra bu qurum dəfələrlə yaradılıb ləğv edilmişdir.*

*Yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Ədliyyə Nazirliyi yenidən təsis edilmiş, ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra isə onun rəhbərliyi ilə bu qurumun inkişafını təmin edən ardıcıl və məqsədyönlü islahatlar həyata keçirilmişdir. Ulu öndərin böyük qayğısının təzahürü olaraq 11 noyabr 2000-ci il tarixdə imzaladığı Sərəncamla 1918-ci ildə Ədliyyə Nazirliyinin ilk Əsasnaməsinin təsdiq edildiyi 22 noyabr günü Azərbaycan Respublikası ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilmişdir.*

*Ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ötən müddətdə ədliyyə orqanlarının fəaliyyəti ilə bağlı bir sıra mühüm sənədlər, o cümlədən nazirliyin Əsasnaməsi, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanun qəbul olunmuş, bu mötəbər qurumun inkişafı və strukturunun təkmilləşdirilməsi ilə bağlı mühüm addımlar atılmışdır ki, bu hal cəmiyyətdə onun rolunu və əhəmiyyətini daha da artırmışdır.*

*Ədliyyə işçilərinin dəfələrlə dövlət mükafatlarına layiq bilinməsi, onlara ali xüsusi rütbələrin verilməsi ilə bağlı qərarların qəbul olunması dövlət başçısı tərəfindən bu sahəyə göstərilən daimi diqqət və qayğının əyani təzahürüdür.*

*Azərbaycan ədliyyəsinin əsaslı və dinamik inkişafı, maddi-texniki bazasının möhkəmləndirilməsi, fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması, müsbət beynəlxalq təcrübənin öyrənilməsi və uğurla tətbiqi üzrə həyata keçirilən tədbirlər cəmiyyətimizdə müsbət qarşılanır.*

*Eyni zamanda Ədliyyə Nazirliyi ilə Vəkillər Kollegiyasının işgüzar münasibətləri, xüsusilə də Ədliyyə Akademiyasında vəkilliyə namizədlərin icbari təlimə cəlb olunması, vəkillərin peşə hazırlığının artırılması ilə bağlı kurslara dəvət olunmaları ölkəmizdə vətəndaşların yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun həyata keçirilməsi işinə mühüm dəstək verir.*

**Hörmətli Fikrət müəllim!**

*Sizi və simanızda ədliyyə işçilərini bir daha Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir, məsuliyyətli və gərəkli fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.*

**Hörmətlə,**

**Anar Bağırov,**
**Azərbaycan Respublikasının**
**Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri**

# Ədalət mühakiməsinin aparılması prosesinin rəqəmsallaşması dövrün tələbidir

*Dövlət xidmətlərinin həyata keçirilməsində informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması, innovativ həllərin tətbiqi dövlət siyasətinin prioritetlərindən biri olmaqla elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı mühüm addımlar atılır, o cümlədən bu günlərdə 100 illik yubileyini qeyd edən Azərbaycan ədliyyəsinin davamlı inkişafı çərçivəsində məhkəmə fəaliyyətinin elektronlaşdırılması, ədalət mühakiməsi prosesinin rəqəmsallaşması sahəsində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Bununla bağlı **Azərbaycan Respublikası ədliyyə nazirinin müavini, Məhkəmə-Hüquq Şurasının üzvü hüquq elmləri doktoru Azər Cəfərov** müxbirimizin suallarını cavablandırıb.*



**- Hörmətli Azər müəllim, müasir dünyada insanların həyat tərzini, hər hansı fəaliyyət sferasını informasiya texnologiyaları olmadan təsəvvür etmək mümkün deyil və texnoloji yeniliklərin sirayət etdiyi sahələrdən biri də məhkəmə fəaliyyətidir. Bu mənada innovativ, eyni zamanda rəqəmsal texnologiyaların verdiyi üstünlüklər barədə məlumat oxucularımız üçün maraqlı olardı.**

- Doğrudur, getdikcə daha sürətlə inkişaf edən rəqəmsal texnologiyalar cəmiyyət həyatının müxtəlif sferalarına daha çox nüfuz etməyə başlayır, məişətin, istirahətin və peşə fəaliyyətinin ayrılmaz hissəsinə çevrilir. Bu faktı nəzərə alan dövlətimizin başçısı cənab İlham Əliyev qeyd etmişdir ki, "yeni texnologiyaların, o cümlədən İKT sferasının inkişafı bu gün Azərbaycanı fərqləndirən cəhətlərdən biridir və bizim uğurlu gələcəyimizi təmin edəcəkdir".

Bu gün dünyada, o cümlədən Azərbaycanda informasiya texnologiyalarının tətbiqi daha geniş vüsət alır. Bir müddət əvvəl mürəkkəb sistemlərin riyazi tədqiqatı ilə məşğul olan tanınmış alimin müsahibəsində rast gəldim ki, təkcə 20 il ərzində - 1992-2012-ci illərdə kompüterlərin sürəti səkkiz min dəfə artmışdır. Bu ilin yayında baş tutmuş VIII Peterburq Beynəlxalq Hüquq Forumunda dəfələrlə, o cümlədən Rusiyanın Hökumət başçısı tərəfindən qeyd olunmuşdu ki, rəqəmsal texnologiyalar məhkəmə sahəsinə də aktiv şəkildə daxil olmaqdadır.

Bütün bunlar onu göstərir ki, yaxın perspektivdə ən müasir informasiya texnologiyaları və innovasiyalardan istifadə edilməsə, yüksək texnologiyalı məhkəmə infrastrukturu yaradılmasa, müxtəlif hüquq sahələrinə aid norma və institutların işi rəqəmsal texnologiyalarla uzlaşdırılmasa, məhkəmələrin fəaliyyətində hüquq mühəndisliyinə geniş yer verilməsə ədalət mühakiməsinin həyata keçirilməsi kifayət qədər çətinləşər.

İlk baxışdan inandırıcı görünməsə də, mütəxəssislərin proqnozuna görə, 2030-cu ildə hüquqşünasların, o cümlədən hakimlərin funksiyalarının 80-85%-ni robotlaşmış texnologiyalar əvəz edəcək. Bruklin hüquq məktəbinin dekanı Nik Allard gələcəkdə insanla robot arasındakı fərqlərin itəcəyi fikrini irəli sürərək demişdir ki, "ola bilər hətta sizin idarəetmə pultunuzun ölçüsü kiçilsin və üzərinizə tikilsin, insanlar isə bəzi süni bədən hissələrinə sahib olsun. Bu yeni dünya ayrı-ayrılıqda insanlar və maşınlardan yox, hubotlardan *(red. - ingilis dilindəki human və robot sözlərindən)* ibarət olacaq".

Yəni, daha çox Albert Eynşteynə aid edilən iqtibasa görə, bir vaxt texnologiya insanların ünsiyyət imkanlarını üstələyəcək.

Zamanın bu çağırışlarına cavab olaraq, son illər dünyanın bir çox ölkələrində

məhkəmə, prokurorluq, vəkillik, ilkin təhqiqat və digər hüquq-mühafizə orqanlarının fəaliyyətində rəqəmsal texnologiyaların tətbiqi ilə bağlı böyük işlər görülür. Məsələn, bu gün İsveç və bir çox başqa ölkələrdə daşınmaz əmlak sahəsində bütün sövdələşmələr blokçeyn texnologiyaları vasitəsilə həyata keçirilir, Sinqapur isə ədalət mühakiməsi sistemində texnologiyalardan geniş istifadə etməklə, elektron məhkəmə sistemini mərhələli şəkildə inkişaf etdirir və uzun müddətdir ki, bu prosesə doğru gedir. Artıq inzibati xətalarla bağlı işlərə hakimin iştirakı olmadan baxılır.

**- Son illər Azərbaycanda da məhkəmə fəaliyyətinin elektronlaşdırılması ilə bağlı ardıcıl tədbirlər görülməkdədir...**

- Elədir. Ölkəmizdə müxtəlif sahələrdə, o cümlədən məhkəmələrin fəaliyyətində ən yeni texnologiyaların tətbiqi məsələləri dövlətimizin hər zaman diqqətdə saxladığı prioritetlərdəndir. 2014-cü ilin fevral ayında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron məhkəmə" informasiya sistemi yaradılmışdır.

"Elektron hökumət"in tərkib hissəsi olan "Elektron məhkəmə" informasiya sistemi məhkəmə hakimiyyətinin və ədalət mühakiməsinin işini asanlaşdıran sistemdir və o, vətəndaşın məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarının icrasının tamamlanmasına qədər bütün prosesi əhatə edir.

Bu sistemin tətbiqi məhkəməyə müraciət imkanlarının genişlənməsinə, ədalət mühakiməsinin həyata keçirilməsində süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, şəffaflıq və operativliyin təmin edilməsinə, məhkəmə qərarlarının icrasına nəzarətin effektivliyinin artırılmasına, elektron kargüzarlığın və sənəd dövriyyəsinin təmin olunmasına xidmət edir.

Elektron məhkəmənin mühüm komponentlərindən biri fiziki və hüquqi şəxslərə məhkəmə sistemi barədə, o cümlədən ölkənin interaktiv xəritəsi şəklində müfəssəl məlumatlar təqdim edən Vahid məhkəmə portalıdır. Bu portalın vasitəsilə vətəndaşlar məhkəmələrin strukturu, növü, yurisdiksiyası, ünvanı və onlarla əlaqə yaratmaq üsulları -poçt və elektron ünvanları, telefon nömrələri, eləcə də hakimlərin təhsili və hüquq təcrübəsi barədə məlumatlar əldə edə bilirlər.

Onu da qeyd edim ki, sənədlərin hazırlanması və məhkəməyə təqdim edilməsi prosesini asanlaşdırmaq üçün Portal vətəndaşları dövlət rüsumunun həcmi, iddia, şikayət, etiraz və xahiş ərizələrinin nümunələri ilə tanış edir. Bütünlüklə "Elektron məhkəmə" sisteminə inteqrasiya olunan Portal məhkəmə işlərinin vəziyyəti, o cümlədən onların, məhkəmə iclaslarının, bütün kateqoriyalardan olan işlər üzrə çıxarılmış qərarların sayı və s. haqqında məlumatları real vaxt rejimində təqdim edir.

Eyni zamanda, Portal çərçivəsində hər bir məhkəmə üçün müfəssəl məlumatları əks etdirən ayrıca veb-saytlar yaradılmışdır.

Bildirməliyəm ki, elektron məhkəmə sisteminin respublika üzrə, o cümlədən Naxçıvan Muxtar Respublikası daxil olmaqla tətbiqi üzrə əməli işlər görülmüş və bu gün sistem ölkə məhkəmələrinin və icra qurumlarının ümumən yarıdan çoxunu əhatə edir və bu sahədə ölkəmizdə bütövlükdə görüləsi işlərin əksər hissəsi artıq arxadadır. Bu sistemin yaxın gələcəkdə Qərb və Şirvan regionlarını da əhatə edəcəyi nəzərdə tutulur.

**- Belə qənaətə gəlmək olar ki, "Elektron məhkəmə" informasiya sistemi insanların müraciət imkanlarını artırmaqla ədalət mühakiməsinin əlçatanlığını asanlaşdırır. Bu sistem məhkəmə fəaliyyətində şəffaflığı necə, təmin edirmi?**

- Şübhəsiz. Ölkə Prezidenti cənab İlham Əliyev Şəki Məhkəmə Kompleksinin açılışında keçirdiyi müşavirədəki çıxışında xüsusilə vurğulamışdır ki, "məhkəmə-hüquq sistemi maksimum dərəcədə şəffaf olmalıdır". Elektron məhkəmə sisteminin tətbiqi həm də şəffaflığa xidmət edir.

Qeyd etməliyəm ki, hər hansı bir şəxs barədə məlumatın dərc edilməsi konfidensiallıq nöqteyi-nəzərdən həssas məsələ olduğundan şəffaflığın təmin edilməsi heç də asan olmayıb və biz kompromis yanaşma formalaşdıraraq Vahid məhkəmə portalı çərçivəsində "Məhkəmə prosesi iştirakçısının şəxsi kabineti"ni

yaratmışıq.

Bununla da proses iştirakçıları elektron imza ilə təsdiqlənmiş elektron iddia ərizəsi və digər sənədlər vermək, məhkəmə işinin materialları ilə ətraflı tanış olmaq imkanı əldə etmişlər. Bu kabinet vasitəsilə onlar təyin olunmuş proseslər barədə uzaqdan, yəni SMS, elektron məktub və digər yolla xəbər tuta, məhkəmə qərarlarını isə elektron formatda hakimin elektron imzası ilə əldə edə bilirlər.

"Şəxsi kabinet"in matrisası proses iştirakçıları üçün məhkəmələrlə elektron formatda əlaqə yaratmaq, məsələn, məhkəmə araşdırmasının başqa vaxta keçirilməsi zərurəti və s. ilə bağlı məhkəməyə elektron məktubla müraciət etmək imkanı yaradır. Bundan başqa, "Şəxsi kabinet" bütün məhkəmə instansiyaları üzrə ilkin məhkəmə, apellyasiya və kassasiya baxışları barədə vətəndaşlara iştirakçısı olduğu məhkəmə prosesini izləməyə, icra icraatının gedişi ilə tanış olmağa şərait yaradır, onlara qarşı qaldırılmış bütün məhkəmə iddiaları barədə elektron məktub vasitəsilə xəbər tutmaq imkanı verir və s.

Bir məqamı da xüsusi qeyd etmək istərdim. Məhkəməyə "Şəxsi kabinet"dən müraciət edildikdə əvvəllər ödənilməsi yalnız iş saatlarında və bank vasitəsilə mümkün olan məhkəmə rüsumunun ödənişi barədə məsələ ortaya çıxır. Bu problemin həlli üçün Ədliyyə Nazirliyi Mərkəzi Bank ilə birlikdə "Məhkəmə rüsumlarının elektron ödəniş sistemi"ni yaratmışdır.

Hazırda bu sistem vasitəsilə fiziki və hüquqi şəxslər iddia ərizəsi elektron şəkildə daxil olduqda, bilavasitə bank kartlarının köməyi ilə "Şəxsi kabinet"də onlayn məhkəmə rüsumunu ödəmək imkanına malikdirlər. Həmçinin, bu ödənişi "Dövlət rüsumlarının ödənilməsi üçün Dövlət portalı"nda, eləcə də məhkəmə binalarında quraşdırılmış nağd ödəniş terminalları vasitəsilə həyata keçirmək mümkündür. Məhkəmə rüsumunun elektron ödənilməsindən sonra bütün məlumatlar həmin sistemlə eyni vaxta yaradılmış "Məhkəmə rüsumlarının vahid reyestri"ndə cəmləşir ki, bu da ödəmələr üçün lazım olan maliyyə hesabatlarını həyata keçirməyə, eləcə də məhkəmə rüsumlarının ödənilməsinə dair məhkəməyə təqdim olunmuş məlumatların doğruluğunu yoxlamağa imkan verir.

Beləliklə, Sistem və Reyestr dərhal məhkəmə sistemi üçün vacib olan bir neçə məsələni həll edir: məhkəməyə müraciəti asanlaşdırır; iddiaçıların qərəzli davranış hallarının, o cümlədən məhkəmə rüsumunun ödənilməsi barədə eyni qəbzin digər işlərlə bağlı istifadəsinin qarşısını alır; məhkəmə rüsumlarının ödənişləri üzrə daha ətraflı maliyyə hesabatlarının və məhkəmələrin səmərəliliyinin qiymətləndirilməsini təmin edir və s.

**- Azər müəllim, əvvəldə qeyd etdiyiniz kimi, dünya praktikasında tətbiq olunan blokçeyn texnologiyasından məhkəmə fəaliyyətində də istifadə etmək mümkündürmü?**

- Bəli. Ədalət mühakiməsinin aparılması prosesinin rəqəmsallaşdırılması dövrün tələbi olmaqla blokçeyn texnologiyasına əsaslanır. Blokçeyn - məlumatların saxlanması vasitəsi və yaxud tranzaksiyaların, müqavilələrin, sövdələşmələrin rəqəmsal reyestridir. Bu texnologiyanın tarixi 2009-cu ildə ilk kriptovalyuta olan Bitcoin-in yaranması ilə başlayır. Blokçeyndə verilmiş kreditlər, əmlak hüququ, yol hərəkəti qaydalarının pozulması, nikahla bağlı, daha doğrusu, demək olar ki, hər şey haqqında məlumatları saxlamaq mümkündür.

Bu texnologiya sistemə saxta blok əlavə etməyə və ya mövcud bloku sistemdən çıxarmağa imkan vermir, yəni sənədlər giriş imkanları məhdud olmaqla daim nəzarətdə olur və yalnız istifadəçisi tərəfindən icazə verildiyi təqdirdə, həmin informasiya ilə tanış olmaq mümkündür. Sistem yeni əldə olunan bütün sənədləri, istintaq hərəkətlərinin protokollarını, məhkəmə hökmünü və ya tibbi qeydləri xronoloji ardıcıllıqla, dəqiq şəkildə işə "tikməyə" imkan verir. Məhz bunun sayəsində heç nə itmir və bütün məlumatlar ovuc içindəymiş kimi görünür.

Ümumiyyətlə isə məhkəmə fəaliyyətində elektron kommunikasiyaların və rəqəmsal texnologiyalarının tətbiqi, məhkəmə icraatının, məhkəmə qərarlarının icra edilməsinin avtomatlaşdırılması işinin genişləndirilməsi, cinayətkarlıq üzərində distant nəzarətin həyata keçirilməsi, avtomatlaşdırılmış cəza təyin etmə sisteminin yaradılması və s. kimi problemlər bütün dünyada, inkişaf etmiş dövlətlərdə,

eləcə də postsovet məkanında dərindən öyrənilir.

Məsələn, rusiyalı tədqiqatçılar cinayət işlərinin vahid informasiya portalında rəsmiləşdirilməsinin elektron texnologiyasını yaratmışlar. Bütün istintaq məlumatları məhz bu informasiya portalına yerləşdirilir. Bunun sayəsində prosessual status (təqsirləndirilən şəxs, zərərçəkmiş, iddiaçı və s.) müəyyənləşən andan etibarən proses iştirakçıları sistemə daxil olmaq imkanı əldə edirlər. Elektron cinayət işinin əsas səhifəsində, işi aparan orqan və konkret vəzifəli şəxs də daxil olmaqla, iş haqqında ümumi məlumat yerləşdirilir, müddət və hansı maddələr üzrə cinayət işinin qaldırıldığı (ittiham irəli sürüldüyü) barədə qeyd aparılır.

Eyni zamanda, yaxın perspektivdə ərizələrin daxil olmasından tutmuş, cəzaların təyin edilməsinə qədər, əksər proseslərin rəqəmsallaşdırılması nəzərdə tutulur. Hazırda kağızdan geniş istifadə edilməsi materialların saxtalaşdırılması və dəyişdirilməsi, prosessual prosedurların vaxtında yerinə yetirilməməsi, cinayət işinin itirilməsi risklərini daşıyır və bütövlükdə cinayət prosesi qapalı aparılır. Yeni "E-cinayət işi" proqramının işlənib-hazırlanması bu problemləri aradan qaldıracaqdır. Artıq Qazaxıstanda bu sahədə müəyyən təcrübəyə rast gəlinir. Fikrimcə, belə bir proqramın tətbiqi cinayət prosesində nizam-intizamın və dəqiqliyin, düzgünlüyün təmin olunmasında, dəlil-sübutların toplanması və prosessual sənədlərin tərtib edilməsi prosedurunun sadələşdirilməsində əhəmiyyətli ola bilər.

Başqa ölkələrdə də analoji layihələr işlənib-hazırlanır, "rəqəmsal ədalət məhkəməsi"nin ayrı-ayrı elementləri daha çox inkişaf etmiş dövlətlərlə yanaşı, artıq Gürcüstanda, Baltikyanı ölkələrdə, Səudiyyə Ərəbistanında və s. tətbiq olunmaqdadır.

**- Bir neçə ildir ki, ölkəmizdə də "elektron məhkəmə" informasiya sistemi tətbiq olunmaqdadır. Bu sistem məhkəmə fəaliyyətinin effektivliyinə necə təsir göstərir?**

- Bildirməliyəm ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın hərtərəfli inkişafı və mülki dövriyyənin sürətlə artması, eyni zamanda ədalət mühakiməsinə çıxışın xeyli asanlaşması məhkəmələrdə baxılan işlərin kəskin çoxalmasına gətirib çıxarmışdır. Bir ara - 2016-cı ildə məhkəmələrdə baxılan mülki xarakterli işlərin sayı 470 mini ötmüşdü ki, bu da yeni məhkəmə sisteminə qədərki dövrlə - 1999-cu illə müqayisədə 21 dəfə çox idi. Görülmüş tədbirlər, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi nəticəsində növbəti ildə bu növ işlərin sayının 80 min azaldılmasına nail olunsa da, bu göstərici özü də olduqca yüksəkdir.

Sözsüz ki, iş sayının əhəmiyyətli dərəcədə artması məhkəmələrin hədsiz yüklənməsinə və ədalət mühakiməsinin keyfiyyətli yerinə yetirilməsinə mənfi təsir göstərir.

Bunun üçün sloveniyalı ekspertlərlə birgə "Elektron məhkəmə" bazasında əmr icraatı işləri üçün avtomatlaşdırılmış məhkəmə baxışı sistemi işlənib hazırlanmışdır və 2017-ci ilin martından etibarən uğurla tətbiq edilir. Qısaca izah edim ki, əmr icraatı qaydasında baxılan işlərə daha çox mübahisəsiz pul və əmlak tələbləri ilə bağlı işlər aiddir və hazırda onlar mülki xarakterli işlərin təxminən üçdə birini təşkil edir. Sözügedən sistemin mahiyyəti isə ondan ibarətdir ki, öz sistemlərini "Elektron məhkəmə" sisteminə adaptə edən iri iddiaçılar əmr icraatı işləri üzrə məhkəmələrə elektron ərizələr göndərmək imkanı əldə edirlər və bu ərizələrin çoxluğuna baxmayaraq, elə həmin gün, yaxud ən geci ertəsi gün elektron məhkəmə qərarını alırlar.

Məsələn, məhkəmə xidmətlərindən yararlanan iri istifadəçilərdən biri bu yaxınlarda bir dəqiqə ərzində Bakının rayon məhkəməsinə borcun ödənilməməsi barədə 300 elektron iddia ərizəsi vermiş və 15 dəqiqə ərzində onların hamısına dair məhkəmə qərarları almışdır.

Bu işlərə məhkəmədə bir hakim tərəfindən baxılır. Beləliklə, əmr icraatı işlərinə baxan digər hakimlər ağır yükdən tamamilə azad olurlar. Həmin işlər üzrə çıxarılan bütün qərarlar icra orqanlarına da elektron formatda göndərilir. Bu isə qərarları avtomatlaşdırılmış qaydada icra etməyə və məhkəmə icraçılarını səhih informasiya ilə təmin etməyə imkan verir.

İndiki vəziyyət belədir ki, bütün ölkə üzrə bu kateqoriyadan olan işlərə baxılmasının öhdəsindən cəmi 4 hakim və 30 məhkəmə işçisi

gələ bilər, halbuki elektron sistemin tətbiqinədək bu prosesə 270-dən artıq hakim və 320-dən çox məhkəmə işçisi cəlb olunurdu.

Eyni zamanda məlumat üçün bildirim ki, əmr icraatı məsələlərini notariusların eyni tipli icra qeydi ilə həll etmək daha asan və daha səmərəli bilindiyindən qanunvericiliyə edilmiş dəyişikliyə əsasən bu funksiyanı növbəti ildən müvafiq elektron sistem vasitəsilə notariuslar həyata keçirəcəklər.

Bütün bunlar, gözlənildiyi kimi, maliyyə xərclərinin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarır.

**- Həqiqətən də məhkəmə fəaliyyətində texnoloji yeniliklərin tətbiqi işin səmərəliliyinin artırılmasına xidmət etməklə böyük maraq doğurur...**

- Bu yeniliklər təkcə deyilənlərlə məhdudlaşmır. Rəqəmsal texnologiyanın məhkəmələrin fəaliyyətinə tətbiqi prosesi bu ilin martında "Elektron məhkəmə" informasiya sistemi strukturunda "Məhkəmə qərarlarının vahid bazası"nın yaradılmasıyla daha da intensivləşmişdir.

Vahid baza konkret iş üzrə bütün hakimlərin elektron imzası ilə təsdiq olunmuş məhkəmənin yekun qərarını özündə cəmləyən informasiya sistemidir. Bazanın yenilənməsi real vaxt rejimində baş verir - hakimlərin qərarı ona "Elektron məhkəmə" informasiya sistemində elektron imzanın tətbiqi vasitəsilə düşür.

"Məhkəmə qərarlarının vahid bazası" elektron sisteminin geniş parametrlər dairəsi - işlərin, mülki mübahisələrin və məhkəmələrin növləri, konkret məhkəmə və hakimlər, qanunvericilik normaları və beynəlxalq müqavilələrin, konvensiyaların və insan hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının tətbiqi təcrübəsi, əməlin ağırlıq dərəcəsi, çıxarılan qərarlar, ittihamedici və bəraətverici hökmlər üzrə axtarışlar aparmağa imkan verir.

Bu sistem axtarışı, həmçinin təqsirləndirilənin məhkumluğunu, cinsini, yaşını (yetkinlik yaşına çatmadığını) və s. açıqlamadan, onu xarakterizə edən digər məlumatlar üzrə aparmağa imkan verir.

Bazanın əsas məqsədi hakimlərə, vəkillərə, həmçinin digər hüquqşünaslara məhkəmə qərarları ilə tanış olmağa şərait yaratmaqdır. Bu, hakimlərə formalaşmış məhkəmə təcrübəsinə yiyələnmək, digər hüquqşünaslara isə onlarla əvvəlcədən tanış olmaqla müdafiəni düzgün qurmaq və işin uğur qazanmaq ehtimalını qiymətləndirmək imkanı verir. Fikrimizcə, bu, potensial olaraq, mülki mübahisələrin alternativ həll üsullarına, məsələn, mediasiyaya marağın yaranmasına şərait yarada bilər.

Bundan əlavə, müasir informasiya texnologiyaları məhkəmələrin idarə edilməsi sahəsində də geniş tətbiq olunur. "Elektron məhkəmə" informasiya sisteminin tərkib hissəsi olan "Məhkəmənin nəbzi: İdarəetmədə inqilab" layihəsi toplanmış elektron statistik məlumatlara əsaslanaraq qısa müddət ərzində müxtəlif analitik hesabatların hazırlanmasını, məhkəmələrin və hakimlərin fəaliyyətinin qiymətləndirilməsi və onların işinin səmərəliliyinin müəyyən edilməsini mümkün edir.

Elmi cəhətdən əsaslandırılmış sistem olan bu layihə Məhkəmə-Hüquq Şurasına, Ədliyyə Nazirliyinə, yuxarı instansiya məhkəmələrinə, məhkəmə sədrlərinə və hakimlərə statistik, o cümlədən ümumiləşdirilmiş göstəricilərlə dərhal tanış olmaq imkanı verir, məhkəmələr arasında məhkəmə büdcəsini, hakim ştatlarını və məhkəmə işçilərini düzgün bölüşdürməyə kömək edir.

Yeri gəlmişkən, bildiyiniz kimi, məhkəmə sisteminə elektron idarəetmənin daha mütərəqqi tətbiqi baxımından bu layihə Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin mükafatına layiq görülmüşdür.

Azərbaycanda rəqəmsal texnologiyalar cinayət-mühakimə icraatında da fəal tətbiq edilir. Ölkə Prezidentinin penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsinə və cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamı bu sahədə mühüm "yol xəritəsi" rolunu oynamaqla hüquqi islahatların yeni mərhələdə davamına rəvac vermiş, həmçinin cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi zamanı müasir informasiya-kommunikasiya texnologiyalarından istifadəni təmin etmək məqsədilə elektron nəzarət vasitələrinin tətbiqini şərtləndirmişdir.

Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərlə daxil olmuş yeni cəza növü - azadlığın məhdudlaşdırılması cəzasına,

məhkəmənin müəyyən etdiyi hallarda şərti məhkum edilmiş və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmuş şəxslər üzərində nəzarətin gücləndirilməsi, habelə barəsində ev dustaqlığı qəti-imkan tədbiri seçilmiş şəxslər üçün elektron qolbaq tətbiq olunur ki, bu da probasiya xidmətinin əməkdaşlarına həmin şəxslər üzərində gecə-gündüz distant nəzarəti həyata keçirməyə imkan verir.

Bu mobil elektron qurğunun cinayət ədliyyəsi fəaliyyətində tətbiqi məhkəmələrə cəmiyyətdən təcridlə bağlı olmayan alternativ cəza tədbirlərini geniş tətbiq etmək, cinayət prosesinin məhkəməyə qədərki mərhələlərində prosessual məcburiyyət tədbirlərini xeyli azaltmaq məqsədi daşıyır.

**- Azər müəllim, bu günlərdə yüz illiyini qeyd edən Azərbaycan ədliyyəsinin davamlı inkişafı naminə həyata keçirilən bütün bu tədbirlərin, tətbiq olunan yeniliklərin ədliyyə və məhkəmə sisteminin fəaliyyətinin müasirləşməsinə xidmət etdiyi şübhə doğurmur. İnanırıq ki, qarşıda duran vəzifələr bundan sonra da uğurla icra olunaraq yeni-yeni nailiyyətlər qazanılacaqdır...**

- Çox sağ olun. Bir əsrlik tarixi olan Azərbaycan ədliyyəsinin ölkəmizin hüquq sistemində özünəməxsus yeri və rolu var. Ulu öndər Heydər Əliyevin qayğısı ilə təkmil bir struktura çevrilən Azərbaycan ədliyyəsi bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə uğurlu islahatlar aparılmaqla təkmilləşir və müasirləşir. Ədliyyə və məhkəmə sistemində innovasiyaların tətbiqi, bu sahədə fəaliyyətin rəqəmsallaşması da dövrün tələbidir. Bu istiqamətdə görülən işlər heç də kifayət deyil. Çünki təkmilləşmə davamlı olan bir prosesdir. Bir sözlə desək, bu prosesin əvvəli var, amma sonu yoxdur.

Ona görə də yaxın perspektivdə "Elektron məhkəmə" informasiya sisteminin funksiyalılığının genişləndirilməsi yolu ilə onun daha da təkmilləşdirilməsi nəzərdə tutulur. Məsələn, elektron arxivlərin və analitik hesabatların hazırlanması, statistik materialların avtomatlaşdırılmış qaydada emalı, hakimlərin və məhkəmələrin fəaliyyətinin qiymətləndirilməsi ilə bağlı intellektual modulun, penitensiar xidmət üçün informasiya resursunun alt-sisteminin yaradılması.

Elektron ədalət mühakiməsinin yaradılmasında müəyyən çətinliklər də var. Bununla bağlı lazımi tədbirlər görülərək, sistemin təkmil fəaliyyəti üçün ayrı-ayrı prosessual normaların tətbiqinə vahid məhkəmə yanaşması formalaşdırılır, dövlət qurumları, həmçinin məhkəmə sədrləri və hakimlər bu sistemlə işləməyə təşviq olunur, onlara məhkəmələrin elektronlaşdırılması aşılanır, eyni zamanda bu sahədə istifadəçilərin müvafiq vərdişlərə yiyələnməsinə, məlumatlılığın artırılmasına xüsusi diqqət yetirilir.

Beləliklə, məhkəmə sistemində həyata keçirilən innovasiya layihələrinin qısa icmalı onu göstərir ki, bizim bu gün dünyada müşahidə etdiyimiz yüksək texnologiya meynstrimi (red. - əsas xətt), həm də yaxın gələcəkdə ona gətirib çıxara bilər ki, bir çox işlər üzrə ədalət mühakiməsinin aparılması əsasən rəqəmsal texnologiyalar vasitəsilə həyata keçirilsin.

Rusiya Konstitusiya Məhkəməsinin sədri Valeri Zorkinin təbirincə desək, "biz bir gün yuxudan oyanarıq və görərik ki, yaşadığımız o dünya artıq yoxdur". Bu proqnozu tam şəkildə ədalət mühakiməsi sahəsinə də aid etmək olar.

Lakin texnologiyalar müxtəlif fəaliyyət sferalarına, o cümlədən ədalət mühakiməsi sahəsinə nə qədər nüfuz etsə də, əminik ki, insan amili, heç şübhəsiz, öz həlledici rolunu qoruyub saxlayacaq. Avropa Şurası rəsmisinin qeyd etdiyi kimi, informasiya texnologiyalarının tətbiqindən sonra da ədalət ilahəsi - Femida öz əlində Blekberri telefonu deyil, qılınc və tərəzi tutacaq.

Həqiqətən də informasiyalaşma qeyri-effektiv işləyən sistemi səmərəli sistemə çevirə bilməz, lakin yaxşı işləyən sistemin daha səmərəli və daha fəal işləməsinə yardım edə bilər.

**- Hörmətli Azər müəllim, bizə vaxt ayırdığınıza və dəyərli fikirlərinizlə bölüşdüyünüzə görə minnətdarlığımızı bildirir, bilavasitə insanlara, onların hüquqlarının etibarlı təminatına yönəlmiş məhkəmə sisteminin təkmilləşməsi işində uğurlar arzulayırıq.**

# Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə keçirilən tədbirlər

## Zaqatalada ədliyyə orqanları və məhkəmə üçün yeni müasir binanın açılışı

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda aparılan məhkəmə-hüquq islahatları çərçivəsində ədliyyə və məhkəmə fəaliyyətinin müasirləşdirilməsinə, əhalinin müraciət imkanlarının asanlaşdırılmasına xüsusi diqqət yetirilir, bu məqsədlə müasir infrastruktur yaradılır.**

Dövlət büdcəsi hesabına, habelə Dünya Bankı ilə birgə həyata keçirilən layihələr çərçivəsində son illər paytaxtda və bölgələrdə müasirliyi ilə fərqlənən və ən son informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunmuş yeni ədliyyə və məhkəmə bina və kompleksləri tikilib istifadəyə verilib, o cümlədən hazırda 7 məhkəmə üçün yeni binaların intensiv inşası aparılır. Bir çox bina və komplekslərin açılışlarında dövlətimizin başçısı şəxsən iştirak edib, müvafiq tövsiyə və göstərişlər verib.

Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində ölkə başçısının tapşırıqlarına uyğun olaraq dövlət büdcəsi hesabına Zaqatala rayonunda ədliyyə orqanları və məhkəmə üçün yeni inşa olunmuş müasir binanın açılışı olub.








Tədbirdən öncə ümummilli lider Heydər Əliyevin Zaqatala rayonundakı abidəsi ziyarət olunaraq xatirəsi dərin ehtiramla yad olunub.

Açılış mərasimində ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, rayon rəsmiləri, hakimlər, hüquq-mühafizə orqanlarının rəhbərləri, ədliyyə işçiləri, ictimaiyyət və KİV nümayəndələri iştirak ediblər.

Tanışlıq zamanı bildirilib ki, bina ümumi sahəsi 2.300 $m^2$ olmaqla üç mərtəbədən və zirzəmi qatından ibarətdir. Digər yeni tikilmiş məhkəmə binalarında olduğu kimi, burada fəaliyyət göstərən rayon məhkəməsi də ictimai və inzibati zonalara bölünməklə müasir İKT-lə təchiz olunub, bu zaman ölkə Prezidentinin tapşırığına uyğun olaraq "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə bağlı zəruri infrastruktur yaradılıb, o cümlədən videokonfransların, elektron sənəd dövriyyəsi və məhkəmə işlərinin idarə olunmasına xidmət edən və audio-

video yazılışları aparan sistem və digər avadanlıqlar quraşdırılıb. Həmçinin, konfrans və iclas zalları, arxiv və digər xidməti otaqlar mövcuddur.

Eyni zamanda, müasir texnologiyalarla təchiz olunmuş binada yerləşən Zaqatala rayonu icra və probasiya, qeydiyyat şöbələrinin fəaliyyəti, o cümlədən təntənəli nikah mərasimlərinin keçirilməsi üçün hər cür şərait yaradılıb.

Mərasimdə çıxış edən ədliyyə naziri ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasına uyğun olaraq dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın sosial-iqtisadi tərəqqisinin təmin olunduğunu vurğulayıb, ədliyyə və məhkəmə sahəsində aparılan islahatlar və yeniliklər barədə məlumat verib.

Bildirilib ki, dövlət başçısının tapşırıqlarına əsasən ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə aparılan islahatlar nəticəsində məhkəmə sistemi təkmilləşdirilib, yeni məhkəmələr və məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanları təsis olunub, hakimlərin Avropada ən şəffaf seçim qaydaları müəyyən edilib.

Nazir ədliyyə və məhkəmə infrastrukturunun müasirləşdirilməsi üzrə görülən tədbirlərin bu sahədə fəaliyyətin yüksək səviyyədə təmin olunmasına, vətəndaşların müraciət imkanlarını artırmaqla əlçatanlığın asanlaşdırılmasına və insan hüquqlarının etibarlı təminatına xidmət edəcəyini qeyd edib.

Dövlət Bayrağı Gününün qeyd olunduğu bu ərəfədə istifadəyə verilən binada, həmçinin qabaqcıl İKT-lərin, elektron informasiya sistemlərinin tətbiqi üçün lazımı şəraitin yaradıldığı bildirilərək, onların fəaliyyətdə aşkarlığın təmin edilməsinə, süründürməçiliyin qarşısının alınmasına böyük töhfə verəcəyi vurğulanıb.

Mərasimdə çıxış edən Zaqatala rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, Şəki Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərov və digər natiqlər respublikamızın hərtərəfli tərəqqisinə, ədalət mühakiməsinin səmərəliliyinə, ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsinə verdiyi müstəsna əhəmiyyətə və xüsusi qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

## Ədliyyə orqanlarına qulluğa qəbul olunan gənclərlə görüş

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sistemində aparılan islahatlar, həmçinin kadr seçimi prosesini əhatə edir, bu məqsədlə ədliyyənin müxtəlif sahələrinə qulluğa qəbulla bağlı açıq müsabiqə və müsahibələr keçirilir. Bu zaman dövlət siyasətinə uyğun olaraq gənclərin işlə təminatına xüsusi diqqət yetirilir.**

Cari ilin may ayında, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ərəfəsində ədliyyə orqanlarına qulluğa qəbulla bağlı keçirilmiş test imtahanından 226 namizəd müvəffəqiyyət qazanaraq ikinci mərhələyə buraxılıb və qanunvericiliyin tələblərinə cavab verən namizədlərlə aşkarlıq şəraitində fərdi qaydada söhbət aparılıb. Azərbaycan ədliyyəsinin 100 illiyinin qeyd olunduğu günlərdə ikinci mərhələ yekunlaşıb. Müsabiqənin yekun nəticələrinə görə uğur qazanacaq namizədlər peşə fəaliyyətinə buraxılışla əlaqədar Ədliyyə Akademiyasında icbari təlimə cəlb olunacaqlar.

Eyni zamanda, notariat orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi çərçivəsində əhaliyə göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə ardıcıl tədbirlər davam etdirilir. Yubiley ərəfəsində vətəndaş məmnunluğunun təmini, xidmətlərə əlçatanlığın artırılması və xüsusi notariat institutunun möhkəmləndirilməsi məqsədilə "Notariat haqqında" Qanunda mütərəqqi dəyişikliklər edilərək xidmətlərin məsafədən, video əlaqə vasitəsi ilə həyata keçirilməsi imkanı təsbit olunub, habelə fəaliyyətini özünüidarəetmə prinsipi üzrə həyata keçirən Notariat Palatasının yaradılması nəzərdə tutulub. İnsanların təxirəsalınmaz ədliyyə xidmətlərindən yararlanmaq məqsədilə ədliyyə köşklərinin,

xüsusilə sərhəddə, hava və dəniz limanlarında, dəmiryolu vağzallarında quraşdırılmasına, bu köşklər vasitəsilə video əlaqə yaradaraq notariat hərəkətlərinin rəsmiləşdirilməsinə və lazımi sənədlərin əldə edilməsinə şərait yaradılacaqdır.

Bu tədbirlər çərçivəsində notarius korpusunun komplektləşdirilməsi, bu zaman regionların sosial-iqtisadi tərəqqisinə uyğun olaraq hüquq təsisatlarının inkişafı, yerli hüquqşünasların işlə təminatı Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır, mütəmadi müsabiqələr keçirilir. Bir sıra rayonlarda, o cümlədən yaradılması nəzərdə tutulmuş yeni "ASAN xidmət" mərkəzlərində təşkil olunacaq notariat kontorlarında vakant notarius vəzifələri üzrə elan olunmuş növbəti müsabiqədə iştirak edən namizədlərlə bu günlərdə test imtahanı keçirilib və yekun nəticələrə görə imtahanda 24 nəfər müvəffəqiyyət qazanaraq ikinci mərhələyə - müsahibəyə buraxılıb.

Nazirlik tərəfindən, həmçinin penitensiar və tibb xidmətlərinin ixtisaslı kadrlarla komplektləşdirilməsi üzrə ardıcıl tədbirlər görülür.

Ölkə başçısının penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2017-ci il fevralın 10-da imzaladığı mühüm, proqram xarakterli Sərəncamı ilə penitensiar xidmətin peşəkar kadr korpusunun formalaşdırılması barədə verilən tapşırıqlara əsasən ötən dövrdə 240-dan çox gənc bu xidmət sahəsinə orta rəis heyətinə qulluğa qəbul olunublar.



Bu sahədə aidiyyəti təhsil müəssisələri ilə səmərəli əlaqələr qurularaq Rusiya Federasiyası Cəzaların İcrası Federal Xidmətinin Ryazan Hüquq və İdarəçilik Akademiyasında, həmçinin Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsində nazirliyin müvafiq olaraq penitensiar və tibb sahələri üçün ixtisaslı kadrlar hazırlanır. Ümumilikdə isə aparılmış şəffaf seçimlər nəticəsində, həmçinin xüsusi təhsil müəssisələrini bitirmiş əksəriyyəti gənclər olan 1.200-dən çox mütəxəssis penitensiar xidmətdə orta rəis heyətinə, 440 mütəxəssis isə tibb xidmətinə qulluğa qəbul olunub.

Bu günlərdə isə Ryazan Hüquq və İdarəçilik Akademiyasında təhsillərini başa vuraraq penitensiar xidmətdə orta rəis heyətinə təyinat alan növbəti bir qrup gənc əməkdaşlarla nazirliyin rəhbərliyinin görüşü keçirilib.

Gənclər əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə əklil qoyub, Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla yad ediblər. Sonra Şəhidlər xiyabanında xalqımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman Vətən övladlarının əziz xatirəsi anılıb, məzarları önünə tər çiçəklər qoyulub.

Nazirlikdə keçirilmiş tədbirdə çıxış edən ədliyyə naziri Fikrət Məmmədov 100 illik yubileyi qeyd olunan Azərbaycan ədliyyəsinin tarixindən və müasir fəaliyyətindən bəhs edərək ümummilli lider Heydər Əliyevin dövlət inkişafı kursunun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini, son 15 ildə respublikamızın hərtərəfli davamlı tərəqqiyə nail olunmasını, o cümlədən ədliyyə və məhkəmə sistemindəki nailiyyətləri vurğulayıb.

Penitensiar sahədə aparılan islahatlardan geniş söhbət açan nazir dövlət başçısının 2017-ci il 10 fevral tarixli Sərəncamının müstəsna əhəmiyyətini qeyd edib, habelə xidmətdə qulluq

keçmənin xüsusiyyətləri barədə məlumat verərək, gənclərin işlərində məsuliyyətli olmasını, layiqli vətəndaş və dövlət qulluqçusu kimi formalaşmasını, qanunçuluq, insan hüquqları, humanizm prinsiplərinə, etik davranış qaydalarına dönmədən əməl olunmasını, korrupsiya və digər neqativ halların yolverilməzliyini vurğulayıb, gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Gənclər çıxış edərək ədliyyənin yubileyi ərəfəsində qulluğa qəbul olunmalarından yüksək qürur hissi keçirdiklərini bildirib, müstəqil Azərbaycanımızın hərtərəfli tərəqqisi naminə ölkə başçısının ətrafında sıx birləşərək yorulmaz fəaliyyətində daim layiqli yardımçı olacaqlarını vurğulayıb, onlara göstərilən bu yüksək etimadı doğruldacaqlarına, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına söz veriblər.

Daha sonra təyinat almış yeni əməkdaşlar Azərbaycan Respublikasının Dövlət Bayrağı önündə təntənəli qaydada and içiblər, aidiyyəti işçilərə xüsusi rütbələr verilib.

## Ədliyyə oranlarına yeni xidməti avtomobillərin verilməsi mərasimi



**Son illər ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə orqanlarının və məhkəmələrin inkişafının təmin edilməsi, innovativ texnologiyaların tətbiqi, normativ-hüquqi və maddi-texniki təminatın yaxşılaşdırılması, bu sahədə infrastrukturun müasirləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür.**

Dövlət büdcəsi hesabına, habelə Dünya Bankı ilə birgə həyata keçirilən layihələr çərçivəsində paytaxtda və bölgələrdə müasirliyi ilə fərqlənən və ən son informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunmuş yeni ədliyyə və məhkəmə bina və komplekslərinin tikilib istifadəyə verilməsi vətəndaşların müraciət imkanlarının asanlaşdırılmasına xidmət etməklə, həm də ədliyyə işçilərinin və hakimlərin iş şəraitinin müasirləşdirilməsinə, bu sahədə fəaliyyətin səmərəliliyinin artırılmasına, əhaliyə daha yüksək keyfiyyətli xidmətlərin göstərilməsinə yönəlib.

Eyni zamanda, ədliyyə orqanlarının maddi-texniki bazasının gücləndirilməsi çərçivəsində ədliyyə işçilərinin xidməti vəzifələrinin daha səmərəli və operativ yerinə yetirilməsi ilə bağlı avtonəqliyyat vasitələri ilə təmin olunmasına xüsusi diqqət yetirilir.



Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə keçirilən silsilə tədbirlər çərçivəsində ədliyyə naziri Fikrət Məmmədovun iştirakı ilə nazirliyin bəzi struktur qurumlarına yeni, Azərbaycanın milli istehsalı olan "Khazar" və "Naz Lifan" markalı avtomobillər verilib.

Avtomobillərin təqdimatı zamanı nazir çıxış edərək ədliyyə orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı görülən işlərdən bəhs edib, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin davamlı sosial-iqtisadi tərəqqisini qeyd edərək, Azərbaycanın artıq istehsal etdiyi öz məhsullarını, o cümlədən təqdim olunan beynəlxalq təhlükəsizlik standartlarına cavab verən avtomobilləri "Made in Azerbaijan" brendi altında həm yerli, həm də xarici bazarlara çıxardığını vurğulayıb.

Sonda yeni avtomobillərin açarları ədliyyə işçilərinə təqdim olunub.

## Dövlət təltiflərinin təntənəli təqdim olunması






**Noyabrın 30-da Ədliyyə Nazirliyində Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə dövlət təltiflərinə layiq bilinmiş ədliyyə işçilərinə təltiflərin təqdim olunması mərasimi keçirilib.**

Mərasim peşə bayramını ədliyyə işçilərinə bəxş etmiş ümummilli lider Heydər Əliyevin nazirlikdəki büstü önünə gül dəstələrinin qoyulması ilə başlayıb.

Tədbirdə çıxış edən ədliyyə naziri Fikrət Məmmədov ulu öndər Heydər Əliyevin müəyyən etdiyi dövlət inkişafı kursunun ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilməsini, ölkəmizin davamlı sosial-iqtisadi tərəqqisini, demokratik hüquqi dövlət quruculuğunda nailiyyətləri vurğulayıb, Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə keçirilən tədbirlərdən danışıb.

Bildirilib ki, bu münasibətlə "Azərbaycan ədliyyəsinin 100 illiyi (1918-2018)" yubiley medalı təsis edilib, bayram ərəfəsində ədliyyənin tarixi və müasir fəaliyyətindən bəhs edən "Azərbaycan ədliyyəsi davamlı inkişaf yolunda" adlı xüsusi kitab, müxtəlif dillərdə digər nəşrlər və maarifləndirici vəsaitlər hazırlanıb, nazirliyin bütün struktur qurumlarında silsilə tədbirlər keçirilib. Bakıda bir sıra xarici dövlətlərin ədliyyə nazirlərinin, beynəlxalq təşkilatların və ölkəmizin aidiyyəti dövlət orqanlarının rəhbərlərinin iştirakı ilə yubileyə həsr olunmuş "Azərbaycan ədliyyəsinin bir əsrlik inkişaf yolu" mövzusunda beynəlxalq konfrans və qəbul təşkil olunub.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin yubiley münasibətilə ədliyyə işçilərinə və hakimlərə təbrik müraciəti, məhkəmə və ədliyyə orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə və cəza-icra siyasətinin həyata keçirilməsində fəal iştiraklarına görə böyük bir qrup ədliyyə işçisi və hakimləri orden və medallara, fəxri adlara, ali xüsusi rütbələrə layiq bilməsi peşə bayramını və yubileyi xüsusilə əlamətdar edib, yüksək ehtiram və minnətdarlıq hissləri doğurmaqla, hər bir ədliyyə işçisini daha əzmlə çalışmağa səfərbər edib.

Tədbirdə ölkə Prezidentinin

sərəncamları ilə orden və medallar, fəxri adlarla təltif olunmuş ədliyyə işçilərinə nazir F.Məmmədov tərəfindən həmin təltiflər təntənəli təqdim olunub. Həmçinin Azərbaycan Respublikasının Prezidenti adından "Azərbaycan ədliyyəsinin 100 illiyi (1918-2018)" yubiley medalına, habelə digər təltiflərə layiq görülən əməkdaşlara həmin mükafatlar təqdim edilib.

Təltif olunanlar əməklərinə verilən yüksək qiymətə və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını ifadə edib, onlara göstərilən bu böyük etimadı bundan sonra da doğrultacaqlarını, sədaqət və əzmlə



çalışaraq demokratik hüquqi dövlət quruculuğu prosesində əllərindən gələni əsirgəməyəcəklərini söyləyiblər.

## Vətəndaşlar üçün yeni xidmət mərkəzinin istifadəyə verilməsi

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqları Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır.**

Azərbaycan ədliyyəsinin 100 illik yubileyinin qeyd olunduğu ərəfədə vətəndaşların daha çox müraciət etdiyi ədliyyə sahəsində, o cümlədən qeydiyyat və notariat fəaliyyəti ilə bağlı xidmətlər göstərən strukturların yerləşdiyi inzibati binada yeni xidmət mərkəzi istifadəyə verilib.

Ədliyyə naziri Fikrət Məmmədov müasir tələblərə cavab verən və ən yeni informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunmuş mərkəzdə yaradılmış şəraitlə tanış olub, yubiley ərəfəsində qüvvəyə minmiş notariat haqqında qanuna edilmiş dəyişikliklərin müasir texnologiyalar geniş tət-





biq olunmaqla vətəndaşlara daha rahat, məsafədən, video əlaqə vasitəsi ilə xidmətlərin göstərilməsində mühüm əhəmiyyətini qeyd edib, əhaliyə göstərilən hüquqi xidmətlərin daha səmərəli təşkili və vətəndaş məmnunluğunun təmin olunması ilə bağlı müvafiq tapşırıqlarını verib.

Tanışlıq zamanı məlumat verilib ki, mərkəzdə vətəndaşlar üçün əlverişli şərait yaradılıb, o cümlədən əhaliyə göstərilən xidmətlər barədə məlumatların əldə edilməsi imkanının asanlaşdırılması məqsədi ilə elektron lövhə quraşdırılıb ki, bu da vətəndaşlara aidiyyəti qurumların fəaliyyəti ilə bağlı zəruri məlumatları əldə etməyə, ərizələrin tərtib edilərək çap olunmasına imkan yaradır. Eyni zamanda, qəbul üçün elektron növbə sistemi, "video-qəbul" təşkil edilib.

Burada notariat hərəkətləri, vətəndaşlıq vəziyyəti aktlarının və qeyri-kommersiya hüquqi şəxslərin qeydiyyatı, apostilin verilməsi, notariat arxivindən sənədlərin surətlərinin əldə edilməsi, mətbu nəşrlərin uçotunun aparılması sahəsində əhaliyə xidmətlər göstərilir.

Həmçinin, mərkəzdə vətəndaşların rahatlığının təmin edilməsi, o cümlədən əlillərin sərbəst hərəkəti üçün hər cür şərait yaradılıb, qəbul işinin səmərəli təşkilində təşkili, təhlükəsizliyin təmin edilməsi məqsədi ilə zəruri avadanlıqlar quraşdırılıb. Gözləmə zalında vətəndaşların hüquqi maarifləndirilməsi məqsədilə ədliyyə xidmətlərinə dair müxtəlif, həmçinin ədliyyə tarixi və fəaliyyəti barədə video-çarxlar nümayiş etdirilir.

Yüz illik yubileyini qeyd edən Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların istifadəsinə verilmiş yeni mərkəz insanlara yüksək keyfiyyətli xidmətlərin göstərilməsinə, onların ədliyyə orqanlarına əlçatanlığının asanlaşdırılmasına və şəffaflığın artırılmasına xidmət edir.

## Cəzaçəkmə müəssisələrində istehsal edilmiş məhsullardan və məhkumların əl işlərindən ibarət sərgi

**Ölkə Prezidentinin penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2017-ci il 10 fevral tarixli Sərəncamından irəli gələn tələblərə uyğun olaraq azadlıqdan məhrum edilmiş şəxslərin ictimai faydalı əməyə cəlb olunması məqsədilə cəzaçəkmə müəssisələrində mövcud istehsal sahələrinin bərpa edilməsi və yeni sahələrin yaradılması imkanlarının araşdırılması istiqamətində tədbirlər davam etdirilir.**




Noyabrın 12-də 6 saylı cəzaçəkmə müəssisəsində Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təşkil olunmuş cəzaçəkmə müəssisələrində istehsal edilmiş məhsullardan və məhkumların əl işlərindən ibarət sərgi məhz bu Sərəncamda nəzərə tutulmuş tədbirlərin davamıdır.



Ədliyyə Nazirliyinin məsul əməkdaşlarının, Penitensiar xidmətin rəhbərliyinin, cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının rəislərinin, millət vəkillərinin, dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə keçirilən sərgidə nümayiş olunan məhkumların əl işləri ziyarətçilər tərəfindən böyük maraqla qarşılanıb. Sərgidə cəzaçəkmə müəssisələrində daha çox məhkumu ictimai faydalı əməyə cəlb etmək, istehsalat sahələrini genişləndirmək, eyni zamanda cəza çə-

kənləri müxtəlif peşə və məşğuliyyət sahələrinə yönəltmək, onlarda əmək vərdişləri formalaşdırmaq, mədəniyyət və incəsənətə maraq oyatmaq üçün Ədliyyə Nazirliyinin Penitensiar xidməti tərəfindən mühüm işlər həyata keçirildiyi vurğulanıb.

Məhkumların ictimai faydalı əməyə cəlb edilməsi azadlığa çıxdıqdan sonra onların cəmiyyətə daha tez adaptasiya olunmasına zəmin yaradır. Son vaxtlar məhkumlar üçün həm maddi, həm də mənəvi-psixoloji əhəmiyyət daşıyan ictimai faydalı əməyin təşkili məqsədilə mövcud istehsalat sahələrinin bərpası və yeni iş yerlərinin yaradılması prosesi sürətləndiriib. Müəssisələrdə yeni istehsalat sahələrinin yaradılmasına və bu işə sahibkarların cəlb edilməsinə dair zəruri tədbirlər həyata keçirilib.

Penitensiar xidmətin 4 saylı qadın cəzaçəkmə müəssisəsində toxuculuq, tikiş və xalçaçılıq üzrə istehsalat sahələrini inkişaf



etdirmək üçün yeni xana dəzgahlarının quraşdırılması və işləyən məhkumların sayının artırılması buna bariz nümunədir.

Təqdirəlayiq haldır ki, Tərbiyə müəssisəsində cəza çəkən yeniyetmələri yüngül əməyə cəlb etmək məqsədilə Penitensiar xidmətin təşəbbüsü və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dəstəyilə müəssisədə heykəltəraşlıq dərslərinin tədrisinə başlanılıb.

Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təşkil olunmuş cəzaçəkmə müəssisələrində istehsal edilmiş məhsullardan ibarət sərgi istedadlı məhkumların ərsəyə gətirdikləri əl işlərinə olan marağın daha da artmasında, eyni zamanda cəzaçəkmə müəssisələrdəki istehsalat sahələrinin bərpası və yeni iş yerlərinin yaradılması prosesinə yerli və xarici sahibkarları cəlb edilməsində mühüm rol oynayacaqdır.

Penitensiar xidmət tərəfindən bu istiqamətdə lazımı tədbirlərin gələcəkdə də davam etdirilməsi, müxtəlif sahələr üzrə fəaliyyət göstərən dövlət qurumları və özəl təşkilatlarla əməkdaşlıq çərçivəsində yeni layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

## Penitensiar Xidmətin Mühafizə Alayında tədbir



**Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə Ədliyyə Nazirliyi Penitensiar xidmətinin Mühafizə alayında xidmət rəhbərliyinin iştirakı ilə tədbir təşkil olunub.**

Tədbiri giriş sözü ilə açan ədliyyə nazirinin müavini-Penitensiar xidmətin rəisi Ceyhun Həsənov şəxsi heyətin qarışısında çıxış edərək Azərbaycan ədliyyəsinin 1918-ci ildən başlayaraq keçdiyi şanlı tarixdən bəhs edib.

Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə təsis edilməsinin ümummilli lider Heydər Əliyevin rəhbərliyə gəldiyi dövrə təsadüf etdiyi vurğulanıb. Qeyd olunub ki, Azərbaycan ədliyyəsi Ulu Öndərin layiqli davamçısı və siyasi varisi Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edir və təkmilləşir.

Xidmət rəisi bütün şəxsi

heyəti ədliyyə naziri Fikrət Məmmədovun adından Azərbaycan ədliyyəsinin 100 illiyi münasibətilə təbrik edib, xidmətdə olan əməkdaşlara və əsgərlərə çətin və şərəfli işlərində müvəffəqiyyətlər arzulayıb. Nazir müavini əminliklə bildirib ki, Penitensiar xidmətin şəxsi heyəti bundan sonra da nümunəvi xidməti ilə dövlətçiliyin keşiyində duracaq, Ali Baş Komandanın əmri ilə hər an verilən tapşırıqların icrasına hazır olacaqdır.

Tədbirə dəvət olunan uzun illər Penitensiar xidmətdə çalışmış və hazırda təqaüddə olan veteranlar peşə bayramı münasibətilə bütün ədliyyə orqanlarının işçilərini təbrik edib, Azərbaycan ədliyyəsinin şanlı tarixindən və inkişaf yolundan, ümummilli liderimiz Heydər Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğıdan, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə son illər sürətli tərəqqiyə nail olunmasından danışıblar.



Veteranlara qiymətli hədiyyələr təqdim edilib.

Tədbir Mühafizə alayının hərbi qulluqçularının təntənəli keçidi və xüsusi təyinatlı bölüyün əməkdaşlarının nümunəvi çıxışları ilə davam edib.

## Ağacəkmə aksiyası

**Ədliyyə Nazirliyi tərəfindən Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təşkil olunan silsilə tədbirlər çərçivəsində noyabrın 3-də ağacəkmə kampaniyası keçirilib.**

Qeyd olunmalıdır ki, ulu öndər Heydər Əliyevin müəyyən etdiyi ekoloji siyasət ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilir. Dövlət başçısının ekoloji vəziyyətin yaxşılaşdırılması, yaşıllıqların salınması ilə bağlı tapşırıqlarına uyğun olaraq ardıcıl tədbirlər görülür. Ölkə Prezidentinin təşəbbüsü ilə 2010-cu ilin "Ekologiya ili" elan edilməsi, habelə son dövrlər davamlı olaraq genişmiqyaslı ağacəkmə aksiyalarının keçirilməsi ətraf mühitin qorunmasına və yaşıllaşdırmaya xidmət edir.



Ədliyyə Nazirliyi tərəfindən ağacəkmə aksiyalarına fəal qoşularaq ətraf mühitin yaşıllıq zonasına çevrilməsi, vətəndaşların sağlam həyatının təmin olunması məqsədilə nazir-



liyin Penitensiar xidmətinin Binə qəsəbəsində yerləşən cəzaçəkmə müəssisələrinin ətraf ərazilərində ağacəkmə aksiyası və genişmiqyaslı abadlıq işləri təşkil edilib.

Nazirliyin, o cümlədən Penitensiar xidmət rəhbərliyinin və məsul şəxslərinin, ədliyyə işçilərinin iştirak etdiyi aksiyada 6 hektar ərazidə üç mindən çox müxtəlif növ ağac əkilib, təmizlik və abadlıq işləri aparılıb.

Yubiley ərəfəsində həmçinin paytaxtın Binəqədi, eləcə də Zaqatala rayonlarında inşası başa çatmış yeni məhkəmə binalarının ətrafı abadlaşdırılıb, yaşıllıq zolaqları salınıb, digər bölgələrdə də regional ədliyyə idarələri və məhkəmələr tərəfindən ağacəkmə kampaniyaları təşkil edilib.

## Məhkəmə Ekspertizası Mərkəzinin müasir texniki imkanları ilə bağlı təqdimat və "açıq qapı" günü






**Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təşkil olunan silsilə tədbirlər çərçivəsində noyabrın 8-də Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin müasir texniki imkanları ilə bağlı təqdimat mərasimi keçirilib.**

Mərasimdə Ədliyyə nazirliyinin məsul işçiləri, Prokurorluğun, Daxili İşlər, Vergilər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi və Dövlət Sərhəd xidmətlərinin, Dövlət Gömrük Komitəsinin istintaq və təhqiqat idarələrinin rəhbər şəxsləri, apellyasiya, ağır cinayətlər və inzibati-iqtisadi məhkəmələrin hakimləri, ali təhsil və tədris müəssisələrinin nümayəndələri, alimlər iştirak ediblər.

Tədbirdə çıxış edən Mərkəzin sədri Fuad Cavadov Azərbaycan ədliyyəsinin ənənəvi fəaliyyət istiqamətlərindən olan məhkəmə ekspertizasının tarixindən və inkişaf yolundan bəhs edib, cinayətkarlıqla mübarizədə və ədalət mühakiməsinin həyata keçirilməsində mühüm rolunu vurğulayıb. Qeyd edib ki, ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu hüquqi islahatları uğurla davam və inkişaf etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ədliyyə sisteminin inkişafı üzrə görülən tədbirlər çərçivəsində Məhkəmə ekspertizası mərkəzinin fəaliyyəti təkmilləşdirilib, maddi-texniki bazası möhkəmləndirilib, mərkəz dünyanın ixtisaslaşmış aparıcı şirkətlərinin istehsalı olan müasir kriminalistik avadanlıqlarla təchiz olunub və yeni laboratoriyalar yaradılıb.

Mərkəzin müasir texniki imkanları əyani təqdimatla müşayiət olunmaqla, həmçinin bildirilib ki, ötən dövrdə müasir texnologiyaların və elmi-texniki tərəqqinin açdığı imkanlardan yararlanaraq ekspertiza tədqiqatlarının dolğun və dəqiq aparılmasına, rəylərin mötəbərliyinin təmin olunmasına, yeni növ ekspertizaların keçirilməsinə və akkreditasiya nəticəsində ekspert rəylərinin beynəlxalq miqyasda tanınmasına nail olunub. Eyni zamanda məhkəmə-istintaq orqanlarına köməklik və ekspert araşdırmalarının operativliyini təmin etmək məqsədi ilə Mərkəzin Gəncə, Şirvan və Şəki regional filialları yaradılıb.

İl ərzində Mərkəz tərəfindən 41 ekspert ixtisası üzrə yüz

minlərlə suala cavab verilir və bu zaman qaldırılan məsələlərin həll olunma əmsalı 100 faizə yaxındır. Həmçinin məhkəmə ekspertizası və kriminalistikanın aktual məsələlərinə dair mütəmadi metodik vəsaitlər hazırlanır, cinayətin baş verməsinə səbəb olan şəraiti və halları aşkar etmək, onların qarşısını almaq üçün kriminoloji tədqiqatlar aparılır, məhkəmə-istintaq orqanlarına profilaktik tövsiyələr verilir.

Diqqətə çatdırılıb ki, ekspertiza sahəsində beynəlxalq əməkdaşlıq genişlənib, Mərkəz Avropa Məhkəmə Ekspertizası İnstitutları Birliyinə (ENFSI) üzv qəbul edilib, 30-dan çox ölkənin məhkəmə ekspertiza qurumları ilə işgüzar əlaqələr qurulub.

Təqdimat zamanı məhkəmə ekspertizası fəaliyyətinin aktual məsələləri üzrə müzakirələr keçirilib, maraq doğuran suallar ətrafında faydalı fikir mübadiləsi aparılıb.

Noyabrın 16-da isə Vəkillər Kollegiyasının, vətəndaş cəmiyyətinin nümayəndələrinin, o cümlədən ədliyyə naziri yanında İctimai Komitənin üzvlərinin iştirakı ilə Mərkəzin fəaliyyətinə həsr olunmuş "açıq qapı" günü keçirilib.

Tədbirlərdə iştirakçılar Mərkəzin fəaliyyəti, müasir kriminalistik avadanlıqlar və laboratoriyalarla tanış olub, bu sahədə nailiyyətləri məmnunluqla qarşılayaraq innovativ texnologiyaların tətbiqinin cinayətkarlıqla mübarizə işinə və haqq-ədalətin bərqərar edilməsinə böyük töhfəsini qeyd ediblər.

## Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018) ilə bağlı "dəyirmi masa"

**Ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etdiyi 2018-ci il Azərbaycan ədliyyəsinin 100 illiyi ilə də əlamətdardır.**



Bu münasibətlə keçirilən yubiley tədbirləri çərçivəsində noyabrın 2-də Park İnn otelində Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının təşkilatçılığı ilə Azərbaycan Ədliyyəsinin 100 illiyi (1918-2018) ilə bağlı "dəyirmi masa" keçirilib.

Tədbirdən öncə iştirakçılar Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə əklil qoyub, əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

"Dəyirmi masa"da açılış nitqi ilə çıxış edən Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının sədri Ələddin Cəfərov dövlətçilik tariximizdə özünəməxsus yeri olan Azərbaycan ədliyyəsinin tarixindən və keçdiyi inkişaf yolundan bəhs edib, hüquq sisteminin inkişafında mühüm rolunu vurğulayıb, tədbirin əhəmiyyətindən söz açıb.

Sonra "Ədliyyə və məhkəmə orqanlarının qarşılıqlı fəaliyyəti, islahatların beynəlxalq uğurları" adlı məruzə ilə çıxış edən Ə.Cəfərov 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa edən xalqımızın Azərbaycan Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olduğunu bəyan edərək ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə müstəqilliyimizi bərqərar etdiyini, ölkəmizdə demokratik hüquqi dövlətin qurulduğunu, ictimai-siyasi həyatın bütün sahələrində mütərəqqi islahatlar aparılmaqla davamlı inkişafa nail olunduğunu vurğulayıb.

Bildirib ki, ümummilli lider

Heydər Əliyevin dövlət quruculuğu xəttini uğurla həyata keçirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ədliyyəsinin davamlı inkişafı üzrə görülən ardıcıl və məqsədyönlü islahatlar nəticəsində nazirliyin cəmiyyətdə yeri və rolu artıb, ona hüquq mühafizə orqanı statusu verilib. Bu gün geniş səlahiyyətlərə malik olan Ədliyyə Nazirliyinin fəaliyyət istiqamətləri, onun qarşısında duran mühüm vəzifələrin miqyası ciddi şəkildə genişlənib.

Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov "Azərbaycan ədliyyəsi: tarix və müasirlik" mövzusunda çıxış edərək şanlı tarixi 1918-ci ildə Cümhuriyyətin elan olunması ilə başlanan Ədliyyə Nazirliyinin həmin illərdə həyata keçirdiyi tədbirlərdən və tarixi xidmətlərindən danışıb, müasir Azərbaycan ədliyyəsinin inkişafı üzrə görülən ardıcıl və məqsədyönlü islahatlar və yeniliklər barədə məlumat verib.

Sonra Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının sədr müavini Səadət Bəktaşi, Yasamal Rayon Məhkəməsinin hakimi Ramin Qurbanov və digərləri çıxış ediblər.

"Dəyirmi masa" başa çatdıqdan sonra hakimlər arasında şahmat yarışı keçirilib. Turnirin qaliblərinə qiymətli hədiyyələr təqdim olunub.

## Qanvermə aksiyası

**Respublikamızda əhalinin sağlamlığının qorunmasına, hemofiliya və talassemiya xəstəliklərindən əziyyət çəkən insanların qabaqcıl dünya təcrübəsinə uyğun müalicə olunmasına xüsusi diqqət yetirilərək, bu sahədə məqsədyönlü tədbirlər həyata keçirilir, müasir infrastrukturlar yaradılır.**

Görülən tədbirlər insanların donor qanına ehtiyacı probleminin həllinə, talassemiya və hemofiliya xəstəliklərindən ölənlərin sayının xeyli aşağı düşməsinə xidmət edir.

Bu xəstəliklərdən əziyyət çəkən insanlara, xüsusilə uşaqlara köməklik məqsədilə







Azərbaycan ədliyyəsinin 100 illiyi ərəfəsində Ədliyyə Nazirliyində və struktur qurumlarda, yerli və regional ədliyyə idarələri tərəfindən könüllü qanvermə aksiyaları təşkil olunub. Nazirliyin əməkdaşları bu xeyirxah aksiyaya böyük təşəbbüslə qoşulublar.

Nazirliyin aparatında qanalma əməliyyatının aparılması üçün zəruri tibbi ləvazimatlarla təmin olunmuş məntəqələr yaradılıb, ədliyyə işçiləri aksiyada fəallıq nümayiş etdirərək qan veriblər.

## Səyyar oftalmoloji aksiya

**Noyabrın 15-də Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Klinikası Ədliyyə Nazirliyində aksiya təşkil edib.**

Aksiya zamanı Səyyar Klinikanın həkimləri tərəfindən nazirliyin əməkdaşlarına tibbi-oftalmoloji xidmət göstərilib. Aksiya çərçivəsində nazirliyin 130 əməkdaşı göz müayinəsindən keçib.

Tədbirin məqsədi pasiyentlərin səhhətləri ilə bağlı problemlərin həll olunmasına kömək göstərməkdir. Aksiya çərçivəsində aşkarlanan göz

xəstəlikləri ilə bağlı monitorinqlər aparılıb, aşkarlanan problemin həlli yolları müzakirə olunub.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həyata keçirdiyi tədbirlər gündən-günə artır və bu, dövlətimizin başçısının səhiyyə ilə bağlı reallaşdırdığı layihələrin əsas tərkib hissələrindən biri hesab olunur.

Qeyd edək ki, 2005-ci ildən mərkəzin avtomobil Səyyar Klinikası mütəmadi olaraq paytaxtda və respublikanın müxtəlif regionlarında pasiyentlərə




xidmət göstərir. 2012-ci ildən etibarən isə klinika tərəfindən Azərbaycanın bir çox ali və orta təhsil ocaqlarında mütəmadi olaraq oftalmoloji müayinələr aparılır. Bununla yanaşı, 2018-ci ildən Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin



Səyyar Qatarı fəaliyyətə başlayıb.

## Yubileyə həsr olunmuş idman turnirləri və intellektual yarışlar



Şahmat turniri

**Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə bir sıra idman turnirləri və intellektual yarışlar təşkil olunub.**

Ədliyyə işçiləri arasında keçirilən ənənəvi şahmat turniri geniş auditoriyanın marağına səbəb olub, iştirakçılar arasında keçən gərgin görüşlər ədalətli yarış mühitinin formalaşmasına mane olmayıb. Turnirin qaliblərinə fəxri fərman və pul mükafatı təqdim edilib. Cari turnirin mükafatçıları sırasında qulluğa qəbul üzrə sonuncu müsabiqədə uğur qazanmış gənc əməkdaşın olması ədliyyə orqanlarında yeni nəsil hüquqşünasların səmərəli fəaliyyətinin əyani təzahürüdür.

Həmçinin ədliyyə orqanları tarixində ilk dəfə olaraq müxtəlif xidmət sahələrini təmsil edən 6 nəfərlik heyətdən ibarət 10 komanda arasında noyabrın 10-da "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib.

"Park inn" hotelində baş tutan yarışda Nazirliyin təcrübəli və məsul əməkdaşları münsiflər heyətinin üzvləri kimi oyunun obyektiv və qərəzsiz keçməsi üçün səylə çalışıb, o cümlədən oyuna marağı olan digər əməkdaşların da tamaşaçı qismində iştirakı təmin edilib. Oyun ərzində səslənən suallara ən çox düzgün cavab vermiş Tibb baş idarəsinin komandasına intellektual oyunun kuboku təqdim edilib, habelə 1-ci, 2-ci və 3-cü yerlərə çıxan komandalara Ədliyyə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsi tərəfindən pul mükafatları verilib.

Yubiley münasibətilə Birləşmiş Həmkarlar İttifaqı Komitəsi tərəfindən 27 oktyabr - 17 noyabr 2018-ci il tarixlərində futzal üzrə turnir də təşkil olunub.



Nə? Harada? Nə zaman? intellektual oyunu

Yarışlar Bakı Tennis Akademiyasında nazirliyin struktur qurumlarının və məhkəmələrin əməkdaşları arasında keçirilib və turnirdə iştirak edən səkkiz komanda bir-biri ilə yarışıblar. Turnirin final mərhələsinə vəsiqə qazanan Bakı məhkəmələri aparatı işçiləri ilə Ədliyyənin Veteranları komandaları arasında keçirilmiş yarış birincilərin qələbəsi ilə yekunlaşıb və turnirin qalibi olub.

Turnir çərçivəsində keçirilən oyunlarda hakimlər qismində təşkilat komitəsi tərəfindən dəvət olunmuş Azərbaycan futzalının veteranları, dəfələrlə ölkə çempionları və milli yığmanın üzvləri çıxış ediblər. Yarımfinal və final mərhələsi isə AFFA-nın razılığı ilə hakimlik FİFA-nın peşəkar arbitrlarına etibar edilib.

Ümumilikdə yarışın oyunları, xüsusən də finallar çoxsaylı azarkeşlər tərəfindən böyük maraqla izlənilərək gərgin mübarizə ilə, gözəl qollarla, vurulan və vurulmayan penaltilərlə, sarı və qırmızı vərəqələrlə yadda qalıb.



Futzal oyunu

Sonda qaliblərə kubokun, ilk üç yeri tutan komandalara medalların, ən yaxşı oyunçular və ən sərrast bombardirə diplomların verilməsi ilə turnirin təntənəli baglanış mərasimi keçirilib.

Silsilə tədbirlər çərçivəsində Bakıda Ədliyyə Nazirliyinin əməkdaşlarından ibarət həvəskar velosipedçilərin iştirakı ilə yubileyə həsr olunmuş yürüş keçirilib. Nazirliyin Penitensiar xidmətinin inzibati binasının önündən start götürən veloyürüş paytaxtın Zığ şossesi boyunca davam edib. Yürüşə qatılan velosipedçilər 25 kilometr məsafə qət ediblər.



Veloyürüş

# Azərbaycan ədliyyəsinin 100 illik yubileyi paytaxtda və bölgələrdə geniş qeyd olunub



**Yasamal rayonu**

Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə noyabrın 22-də Bakı şəhəri Yasamal Rayon Məhkəməsində tədbir keçirilib.

Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov tədbirdə çıxış edərək ədliyyə və məhkəmə orqanlarında çalışan bütün əməkdaşları ədliyyə işçilərinin peşə bayramı günü münasibətilə təbrik edib, onlara qanunun aliliyinin və insan hüquqlarının təmin olunması kimi gərəkli fəaliyyətlərində nailiyyətlər arzulayıb, ədliyyə sisteminin inkişafında ümummilli lider Heydər Əliyevin xidmətlərini qeyd edib, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ədliyyəsinin davamlı inkişafı üzrə görülən ardıcıl və məqsədyönlü tədbirlərin qayəsini, ilk növbədə, insan hüquqlarının etibarlı təminatı, vətəndaşlara qayğılı münasibət, onlara yüksək keyfiyyətli xidmətlərin göstərilməsinin təşkil etdiyini vurğulayıb.

Yasamal Rayon Məhkəməsinin sədri Araz Hüseynov Azərbaycan ədliyyəsinin şanlı tarixindən və inkişaf yolundan, ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin bütün dövrlərində bu sahəyə göstərdiyi diqqət və qayğıdan bəhs edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə bu sahədə sürətli tərəqqiyə nail olunduğunu bildirib.

Çıxışlardan sonra Azərbaycan ədliyyəsinin fəaliyyətinə dair videoçarx nümayiş olunub. Sonda səmərəli fəaliyyəti ilə fərqlənən ədliyyə işçilərinin bir qrupuna Yasamal Rayon İcra Hakimiyyətinin fəxri fərmanları və hədiyyələri təqdim edilib.

**Nərimanov rayonu**

Yubiley münasibətilə Nərimanov Rayon Məhkəməsində keçirilən tədbirdə Məhkəmənin sədri Tofiq Paşayev çıxış edərək Azərbaycan ədliyyəsinin davamlı inkişafı üzrə görülən tədbirlər və qazanılan nailiyyətlərin Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə reallaşdırılan genişmiqyaslı işlərin göstəricisi olduğunu vurğulayıb. O, dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycan ədliyyəsinin və məhkəmə-hüquq sisteminin mütərəqqi islahatlar aparılmaqla təkmilləşdiyini, səlahiyyətlərinin xeyli genişləndiyini, cəmiyyətdə yerinin və rolunun əhəmiyyətli dərəcədə artdığını vurğulayıb, ədliyyə işçilərinin Prezident İlham Əliyevin ətrafında sıx birləşərək bundan sonra da böyük səy və yüksək məsuliyyət hissi ilə



çalışaraq xalqımıza şərəflə xidmət edəcəklərinə, ölkəmizin müasir inkişafına uyğun olaraq öz vəzifələrini hər zaman layiqincə yerinə yetirəcəklərinə əminliyini bildirib.

Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev ədliyyə və məhkəmə orqanlarında çalışan bütün əməkdaşları Azərbaycan ədliyyəsinin 100 illik yubileyi və 22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü münasibətilə təbrik edib, təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən məhkəmə-hüquq islahatları nəticəsində mühüm nailiyyətlərin qazanıldığını vurğulayıb.

Tədbirdə Azərbaycan ədliyyəsinin inkişafına dair videoçarx nümayiş olunub, fəaliyyətində fərqlənən bir qrup ədliyyə işçisinə mükafatlar verilib.

## Sumqayıt şəhəri

Sumqayıt Apellyasiya Məhkəməsinin yurisdiksiyasında olan məhkəmələrin hakimləri və aparat işçilərinin, Sumqayıt və Xaçmaz regional ədliyyə idarələrinin və onların yurisdiksiyasında olan yerli ədliyyə orqanlarının əməkdaşlarının, həmçinin veteran ədliyyə işçilərinin, Sumqayıt şəhərində fəaliyyət göstərən hüquq-mühafizə və yerli icra orqanlarının rəhbərlərinin iştirakı ilə keçirilən yubiley tədbiri ümummilli lider Heydər Əliyevin Sumqayıtda ucaldılan abidəsini ziyarətlə başlayıb.





Sumqayıt Dövlət Dram Teatrında keçirilən tədbirdə Apellyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi ədliyyə işçilərini peşə bayramı münasibətilə təbrik edib, zəngin ənənələrə və 100 illik tarixə malik Azərbaycan ədliyyəsinin Azərbaycan Xalq Cümhuriyyəti dövründə tarixi xidmətlərindən, ümummilli lider Heydər Əliyevin fəaliyyətinin bütün dövrlərində ədliyyə sisteminə qayğısından bəhs edib, son 15 ildə ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə-hüquq sistemində aparılan islahatlar nəticəsində əldə olunan nailiyyətləri qeyd edib.

Tədbirdə həmçinin "Azərbaycan ədliyyəsinin keçdiyi tarixi yollar" və "İxtisaslaşdırılmış məhkəmələrin yaranması və aparılan islahatlar" mövzularında məruzələr edilib, digər çıxış edənlər də ədliyyənin tarixindən, ölkəmizdə aparılan uğurlu hüquq islahatlarından söhbət açıb, ədliyyə orqanlarının qanunçuluğun möhkəmləndirilməsi, vətəndaşların hüquqlarının etibarlı təmin olunması işində öz vəzifələrini layiqincə yerinə yetirdiklərini vurğulayıblar.

Bayram tədbirində çıxış edən Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi münasibətilə bütün ədliyyə və məhkəmə orqanlarının işçilərini təbrik edib, bir qrup ədliyyə işçisini səmərəli fəaliyyətinə görə fəxri fərmanla təltif edib, hədiyyələr təqdim olunub.

Tədbirboyu səhnədə quraşdırılmış monitorlarda Azərbaycan ədliyyəsinin tarixindən və bu günündən bəhs edən, Sumqayıt şəhərinin inkişafını əks etdirən foto və video materiallar nümayiş etdirilib.

Bayram tədbiri respublikanın tanınmış incəsənət ustalarının təqdim etdiyi konsert proqramı ilə başa çatıb.

## Şəki şəhəri

Şəki şəhərində fəaliyyət göstərən məhkəmələrin hakimlərinin və aparat işçilərinin, ədliyyə orqanlarında çalışan ədliyyə qulluqçularının, Şəki Şəhər İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının və digər təşkilatların rəhbər işçilərinin iştirakı ilə noyabrın 21-də Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təntənəli tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Şəki şəhərində yeni inşa edilmiş Heydər Əliyev Mərkəzi önündə ucaldılmış ümummilli



lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər güllər düzərək, xatirəsini ehtiramla yad ediblər.

Şəki Məhkəmə Kompleksinin konfrans zalında davam edən bayram tədbiri Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Sonra Azərbaycan ədliyyəsinin tarixi, inkişafı və həyata keçirilən islahatlar nəticəsində ədliyyə və məhkəmə orqanlarında əldə olunan nailiyyətlərə və yubiley tədbirlərinə həsr olunmuş video-çarx nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə açan Şəki Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərov Azərbaycan ədliyyəsinin 100 illik yubileyinin ədliyyə orqanlarında və məhkəmələrdə böyük ruh yüksəkliyi və təntənə ilə qeyd olunduğunu bildirərək bayram münasibətilə təbriklərini çatdırıb.

Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən məhkəmə hüquq islahatlarından bəhs edən məhkəmə sədri bu sahədə əldə olunan və beynəlxalq aləmdə təqdir olunan nailiyyətləri vurğulayıb.

Şəki regional ədliyyə idarəsinin rəisi Rəhman Məmmədov tədbirdə çıxış edərək ədliyyə tarixindən geniş məlumat verib. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin bütün dövrlərində ədliyyə sisteminə göstərdiyi diqqət və qayğıdan söhbət açan natiq aparılmış islahatlar nəticəsində ədliyyə orqanlarının fəaliyyətinin genişləndiyini, bu sahədə yeni iş metodlarının tətbiq olunduğunu diqqətə çatdırıb, ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyənin davamlı inkişafına xidmət edən islahatların uğurla aparıldığını qeyd edib, Azərbaycan ədliyyəsinin 100 illiyi münasibətilə tədbir iştirakçılarını təbrik edib.

Tədbirdə çıxış edən Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, Şəki Apellyasiya Məhkəməsinin hakimi Mahir Əsədli, Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi Rəşid Hüseynov ədliyyənin tarixi ilə yanaşı həyata keçirilən məhkəmə-hüquq islahatları nəticəsində əldə olunan uğurlardan bəhs edərək tədbir iştirakçılarını əlamətdar gün münasibətilə təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıblar.

Sonra Şəki Məhkəmə Kompleksində fəaliyyət göstərən məhkəmə aparatının işçiləri və ədliyyə veteranları qiymətli hədiyyələrlə təltif ediliblər.

Sonda Şəki Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərov Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi münasibətilə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə hakimlərin və ədliyyə orqanları işçilərinin təltif edilməsinin dövlətimizin diqqətinin və qayğısının təzahürü olduğunu vurğulayıb.

## Şirvan şəhəri

Azərbaycan ədliyyəsinin 100 illiyi münasibətilə Şirvan şəhəri Gənclər evində tədbir keçirilib. Tədbirdə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı, birinci və apellyasiya instansiya məhkəmələrinin hakimləri və əməkdaşları, ədliyyə işçiləri və digər hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri iştirak ediblər.

İştirakçılar əvvəlcə ümummilli lider Heydər Əliyevin Şirvan şəhərində abidəsini ziyarət edərək xatirəsini ehtiramla anıblar.

Təntənəli tədbiri giriş sözü ilə açan Şirvan Apellyasiya Məhkəməsinin sədri Rəşadət Ağayev 100 yaşlı Azərbaycan ədliyyəsinin keçmişini və bu



gününü diqqətə çatdıraraq ulu öndər Heydər Əliyevin ədliyyə və məhkəmə orqanlarının inkişafında müstəsna xidmətlərini xatırladıb, Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən və Ümummilli Liderin hakimiyyətə gəlməsindən sonra ədliyyə orqanlarının işinin müasir tələblər səviyyəsində qurulmasını qeyd edib.

Bu sahəyə daim diqqət və qayğı ilə yanaşan Prezident İlham Əliyevin rəhbərliyi ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə görülən kompleks tədbirlər barədə məlumat verən məhkəmə sədri bildirib ki, məhkəmə fəaliyyəti təkmilləşdirilir, vətəndaşların məhkəmələrə əlçatanlığı asanlaşdırılır, infrastruktur müasirləşdirilir. Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ərəfəsində Zaqatalada rayon məhkəməsi üçün ən son texnologiyalarla təchiz olunmuş yeni müasir binanın istifadəyə verilməsi bu sahədə fəaliyyətin yüksək səviyyədə təşkilinə, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına və insan hüquqlarının etibarlı təminatına töhfə verəcəkdir.

R.Ağayev ədliyyə işçilərinin peşə bayramı və Azərbaycan ədliyyəsinin 100-cü ildönümü münasibətilə tədbir iştirakçılarını təbrik edib.

Çıxış edən Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalov, Şirvan regional ədliyyə idarəsinin rəisi Nizami Hüseynov və digər natiqlər Azərbaycan ədliyyəsinin 100 illik tarixinə nəzər salaraq, son illər ölkəmizdə məhkəmə-hüquq islahatlarının uğurla aparıldığını və bu sahədə əldə olunan nailiyyətləri qeyd ediblər.

Həmin gün ədliyyə işçiləri, hakimlər və məhkəmə aparatı işçiləri, ümumilikdə 50-ə yaxın əməkdaş Şirvan şəhər Mərkəzi Xəstəxanasında ənənəvi xarakter almış könüllü qanvermə aksiyasında iştirak ediblər.

## Salyan rayonu

Noyabrın 22-də Salyan Rayon İcra Hakimiyyətində Azərbaycan ədliyyəsinin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə ədliyyə işçiləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

İştirakçılar ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Yığıncaqda rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmov çıxış edərək hüquq ictimaiyyəti üçün əlamətdar olan ədliyyə işçilərini peşə bayramı və Azərbaycan ədliyyəsinin 100 illik yubleyi münasibətilə təbrik edib, məhkəmə-hüquq sahəsində əldə olunan və beynəlxalq aləmdə təqdir edilən nailiyyətləri diqqətə çatdırıb.

Tədbirdə geniş məruzə ilə çıxış edən Rayon Məhkəməsinin sədri Əlövsət Paşayev Azərbaycan ədliyyəsinin tari-



xindən və inkişaf yolundan, ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin bütün dövrlərində ədliyyə sisteminə göstərdiyi diqqət və qayğıdan bəhs edib, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublikamızın hərtərəfli tərəqqisinə uyğun olaraq ədliyyə və məhkəmə sisteminin davamlı inkişafını, bu sahədə qazanılan uğurları vurğulayıb, bildirib ki, bu gün peşə bayramlarını böyük ruh yüksəkliyi ilə qeyd edən ədliyyə işçiləri hüquqi dövlət quruculuğu naminə öz vəzifələrini hər zaman layiqincə yerinə yetirmək, daha məsuliyyətlə çalışmaq əzmindədirlər.

Tədbirdə çıxış edənlər ədliyyə işçilərinə göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə öz minnətdarlıqlarını ifadə ediblər. Sonda xidməti fəaliyyətlərində fərqlənən bir qrup ədliyyə işçisinə fəxri fərmanlar təqdim olunub.

## Cəbrayıl rayonu

22 noyabr ədliyyə işçilərinin peşə bayramı Cəbrayıl rayonunda da qeyd olunub. Tədbirdə rayon icra hakimiyyətinin və hüquq mühafizə orqanlarının rəhbərliyi, ağsaqqallar və ziyalılar, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbir işrirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin adını daşıyan parkda ümummilli liderin abidəsi önünə gül dəstələri düzərək onun əziz xatirəsini ehtiramla yad ediblər.



Sonra 4 saylı qəsəbə klubunda davam edən tədbiri giriş sözü ilə rayon məhkəməsinin hakimi Təranə Hüseynova açaraq Azərbaycan ədliyyəsinin şanlı tarixindən və inkişaf yolundan, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin bütün dövrlərində ədliyyə sisteminə göstərdiyi diqqət və qayğıdan, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan ədliyyə və məhkəmə islahatlarından danışıb. Qeyd edib ki, bu sahədə əldə olunmuş nailiyyətlər, o cümlədən məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi, hakimlərin şəffaf seçimi, elektron ədliyyənin inkişafı, penitensiar sistemin müasirləşdirilməsi sahəsində ölkəmizin müsbət təcrübəsi artıq beynəlxalq aləmdə böyük marağa səbəb olur. Bütün bunlar ədliyyə işçilərini qanunun aliliyinin təmin edilməsi və insan hüquqlarının qorunması işinə daha səmərəli xidmətə səfərbər edir.

Tədbirdə çıxış edən Rayon İcra Hakimiyyəti başçısı Kamal Həsənov peşə bayramı münasibətilə bütün ədliyyə işçilərini təbrik edib. Ulu öndər Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamına əsasən ölkəmizdə ədliyyə işçilərinin peşə bayramı gününün təsis olunduğunu diqqətə çatdıraraq, qanunçuluğun qorunması, insan hüquqlarının müdafiəsi, dövlətin möhkəmləndirilməsi sahəsində ədliyyə sisteminin rolunu xüsusi vurğulayıb.

Digər çıxış edənlər də peşə bayramı münasibətilə ədliyyə orqanları əməkdaşlarını təbrik edib, onlara işlərində uğurlar arzulayıblar.

***

Azərbaycan ədliyyəsinin 100 illik yubileyi respublikamızın digər bölgələrində də təntənə ilə qeyd olunub, bu münasibətlə rayon (şəhər) məhkəmələri və yerli ədliyyə qurumları tərəfindən silsilə tədbirlər keçirilib, Azərbaycan ədliyyəsinin bir əsrlik tarixi və inkişaf yolu barədə çıxışlar edilib, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da ədliyyə tariximizin yeni-yeni nailiyyətlərlə dolu şanlı səhifələrinin yazılacağına əminlik ifadə olunub.

# Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunan əyani və metodiki vəsaitlər




Azərbaycan ədliyyəsinin tarixinə həsr olunmuş kitab










Toplular










Marka və broşürlər







Müxtəlif dillərdə nəşrlər və digər vəsaitlər

"Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 10, N 6, maddə 414; 2001, N 5, maddə 293, N 11, maddə 687, N 12, maddə 740; 2002, N 5, maddə 241, N 6, maddə 328, N 12, maddə 706; 2004, N 5, maddə 318; 2005, N 4, maddə 281, N 8, maddə 699, N 10, maddə 903, N 11, maddə 993; 2007, N 1, maddə 4, N 2, maddə 69, N 8, maddə 745, N 11, maddələr 1053, 1075; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 1, maddə 5, N 7, maddə 517, N 11, maddə 878; 2010, N 7, maddə 597, N 11, maddə 938; 2011, N 4, maddə 258, N 12, maddə 1098; 2012, N 10, maddə 946; 2013, N 11, maddə 1271; 2014, N 11, maddə 1353; 2015, N 5, maddə 487; 2016, N 1, maddə 11, N 7, maddə 1243, N 12, maddə 2025; 2017, N 2, maddə 148, N 12, maddə 2236; 2018, N 7, maddə 1388, N 8, maddə 1673) aşağıdakı dəyişikliklər edilsin:

1. Mətn üzrə ismin müvafiq hallarında "notariat kontoru" və "notariat kontorları" sözləri ismin müvafiq hallarında "notariat ofisi" və "notariat ofisləri" sözləri ilə əvəz edilsin.

2. Mətn üzrə ismin müvafiq hallarında "vətəndaş" sözü (89-cu maddə istisna olmaqla) ismin müvafiq hallarında "şəxs" sözü ilə əvəz edilsin.

3. 3-cü maddə üzrə:

3.1. ikinci hissə aşağıdakı redaksiyada verilsin:

"Ali hüquq təhsilli, hüquqşünas ixtisası üzrə 3 ildən az olmayaraq iş stajına, mənəvi keyfiyyətlərə və peşə biliklərinə malik Azərbaycan Respublikasının vətəndaşı notarius ola bilər.";

3.2. səkkizinci hissəyə "tələblərinə" sözündən sonra "və müvafiq icra hakimiyyəti orqanının metodiki tövsiyələrinə" sözləri əlavə edilsin.

4. 4-cü maddə üzrə:

4.1. birinci hissənin ikinci cümləsi çıxarılsın;

4.2. beşinci hissə aşağıdakı redaksiyada verilsin:

"Müvafiq icra hakimiyyəti orqanının notariat fəaliyyətinə nəzarəti bilavasitə həyata keçirən qurumunda və dövlət notariat ofislərində ali hüquq təhsili tələb olunan inzibati vəzifələrdə və ya xüsusi notariusun köməkçisi vəzifəsində 3 ildən az olmayaraq işləyən və bu Qanunun tələblərinə cavab verən şəxslər, habelə hakimlər şəhadətnamə almaq üçün yalnız notariat fəaliyyəti üzrə peşə hazırlığına dair müsahibədən keçməlidirlər.";

4.3. altıncı hissə ləğv edilsin.

5. 5-ci maddə üzrə:

5.1. birinci hissəyə "şəxsin" sözündən sonra ", habelə xüsusi notariusun köməkçisi vəzifəsinə namizədlərin" sözləri əlavə edilsin;

5.2. dördüncü hissədə "icbari təlimdən azad edilmiş şəxslərin" sözləri "icbari təlimin nəticələrini qiymətləndirir," sözləri ilə əvəz edilsin;

5.3. doqquzuncu hissə ləğv edilsin.

6. 7-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 7. Şəhadətnamənin ləğv edilməsi. Xüsusi notariusun fəaliyyətinə xitam verilməsi**

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən aşağıdakı hallarda notariusun şəhadətnaməsi ləğv edilir:

1) notarius öz arzusu ilə şəhadətnaməsinin ləğv olun-

ması barədə yazılı ərizə verdikdə;

2) şəhadətnamə almış şəxs notarius andını qəbul etmədikdə;

3) notariusun şəhadətnamə almaq üçün təqdim etdiyi sənədlərdə bilərekdən təhrif olunmuş məlumatların qeyd edildiyi aşkar olunduqda;

4) xüsusi notarius şəhadətnaməni aldıqdan sonra bu Qanunun 24-cü maddəsində nəzərdə tutulmuş müddətlər keçdikdən sonra notariat fəaliyyətinin həyata keçirilməsinə başlamadıqda;

5) növbəti dəfə şəhadətnamə verilmədikdə;

6) notarius 65 yaşa çatdıqda;

7) qanunvericiliyin tələblərini dəfələrlə və kobudcasına pozmaqla notariat hərəkətləri apardıqda;

8) dövlət notariusu tutduğu vəzifədən azad edildikdə;

9) xüsusi notariusun vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılması üçün əsas olmuş hallar aradan qalxmadıqda;

10) notarius əmək qabiliyyətini fasiləsiz olaraq 6 aydan çox müddətə tam itirdikdə (tibbi rəyə əsasən);

11) notariusun fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması və ya fəaliyyət qabiliyyəti olmayan şəxs hesab olunması barədə qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda, notarius tibbi rəyə əsasən fiziki və əqli qüsurlarına görə işləməyə qadir olmadıqda;

12) notariusun Azərbaycan Respublikasının vətəndaşlığına xitam verildikdə və ya notarius Azərbaycan Respublikasından daimi yaşayış üçün başqa ölkəyə köçüb getdikdə;

13) notarius cinayət törətməyə görə məhkum edildikdə və ya onun barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;

14) notarius barəsində bəraətverici əsaslar olmadan cinayət işinin xitam olunması haqqında qərar çıxarıldıqda;

15) notarius vəfat etdikdə;

16) notarius məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə.

Şəhadətnaməsi ləğv edilmiş notariusun notariat fəaliyyətinə müvafiq icra hakimiyyəti orqanı tərəfindən xitam verilir.

Fəaliyyətinə xitam verilmiş xüsusi notariusun qeydiyyat vəsiqəsi ləğv edilir.

Xüsusi notariusun fəaliyyətinə xitam verildikdə, onun işlədiyi notariat ofisi müvafiq icra hakimiyyəti orqanı tərəfindən ləğv edilə bilər.

Fəaliyyətinə xitam verilmiş xüsusi notarius aparılmış notariat hərəkətləri barədə sənədləri bir aydan gec olmayaraq dövlət notariat arxivinə təhvil verməlidir.

Notariat sənədləri dövlətə məxsusdur. Xüsusi notarius işləmiş şəxs notariat hərəkətləri barədə sənədlərin təhvil verilməməsinə görə inzibati məsuliyyət daşıyır.".

7. Aşağıdakı məzmunda 7-1-ci maddə əlavə edilsin:

**"Maddə 7-1. Xüsusi notariusun vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılması**

Müvafiq icra hakimiyyəti orqanının qərarı ilə aşağıdakı hallarda xüsusi notarius vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılır:

1) qəsdən cinayət törətməyə görə təqsirləndirilən şəxs qismində cəlb edildikdə;

2) notarius 6 ayadək müddətdə əmək qabiliyyətini fasiləsiz olaraq itirdikdə;

3) notarius sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda;

4) notarius siyasi partiyada öz fəaliyyətini dayandırmadıqda.

Vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılmış xüsusi notarius notariat fəaliyyətinin icrasına buraxılmır və bu Qanunun 25-1-ci maddəsinə uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanı tərəfindən onu əvəz edən şəxs təyin edilir.

Notarius sahibkarlıq fəaliyyəti ilə məşğul olması və siyasi partiyada öz fəaliyyətini dayandırması halları ilə bağlı vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırıldıqda, bu halları 10 gün müddətində aradan qaldırmalıdır.

Xüsusi notariusun vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılması üçün mövcud olan əsaslar aradan qalxdıqda, müvafiq icra hakimiyyəti orqanı tərəfindən xüsusi notarius vəzifələrinin icrasına buraxılır.".

8. 10-cu maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 10. Notariusun şəxsi möhürü, ştampı və blankları**

Azərbaycan Respublikasında hər bir notariusun, habelə vakant xüsusi notarius vəzifəsini icra edən köməkçinin ona məxsus gerbli möhürü, təsdiq qeydləri ştampları, işlədiyi notariat ofisinin künc ştampı və blankları olmalıdır.

Notariusun möhüründə notariusun soyadı, adı, atasının

adı və işlədiyi notariat ofisinin adı göstərilməlidir.

Notarius müvafiq icra hakimiyyəti orqanı tərəfindən notariat hərəkətlərinin aparılması üçün müəyyən edilən, Dövlət gerbinin təsviri əks olunmuş blanklardan istifadə etməlidir.

Notariusun elektron imzası olmalıdır.

Xüsusi notariusun möhürü, ştampları, blankları, o cümlədən etibarnamə və müqavilə blankları, habelə elektron imzası onun müvəqqəti olmadığı dövrdə yalnız onu əvəz edən köməkçiyə verilə bilər.

Vəzifə səlahiyyətlərinin icrasından kənarlaşdırılmış xüsusi notariusun möhürü və elektron imza sertifikatı bu Qanunun 25-1-ci maddəsinin ikinci hissəsində göstərilən hal istisna olmaqla, saxlanılması üçün müvafiq icra hakimiyyəti orqanına təhvil verilir.

Korlanmış, qüvvədən düşmüş, yaxud istifadə olunmayan möhür, ştamp və blanklar müvafiq icra hakimiyyəti orqanı tərəfindən məhv edilir.".

9. 14-cü maddə üzrə:

9.1. beşinci hissə müvafiq olaraq altıncı hissə hesab edilsin və aşağıdakı məzmunda beşinci hissə əlavə edilsin:

"Yoxlamanın və ya şikayətin araşdırılmasının nəticəsindən asılı olaraq, xüsusi notarius barəsində intizam icraatı başlanıla bilər, dövlət notariusuna münasibətdə isə bu Qanunun 16-cı maddəsinə uyğun olaraq ədliyyə orqanları işçisinin intizam məsuliyyətinə cəlb edilməsi qaydası tətbiq olunur.";

9.2. aşağıdakı məzmunda yeddinci və səkkizinci hissələr əlavə edilsin:

"Xüsusi notariusun işçisi tərəfindən qanunvericiliyin tələblərinin pozulması halları müəyyən edildikdə, onun barəsində intizam tədbirlərinin görülməsi, o cümlədən əmək müqaviləsinə xitam verilməsi barədə müvafiq icra hakimiyyəti orqanı notariusa göstəriş verir.

Xüsusi notariusla işçiləri arasında əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi və bu Qanunla tənzimlənir.".

10. 16-cı maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Dövlət notariusu vəzifəsi vakant olduqda, həmin vəzifənin icrası müvafiq icra hakimiyyəti orqanı tərəfindən bu Qanunun 3-cü maddəsi ilə müəyyən edilmiş tələblərə cavab verən digər ədliyyə işçisinə 18 ay müddətinə həvalə edilə bilər.".

11. 17-ci maddənin birinci hissəsinin 13-cü bəndinə "ərizələrini" sözündən sonra "və sənədlərini" sözləri əlavə edilsin.

12. 20-ci maddənin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Dövlət notariat ofisinin ştat cədvəlini və iş qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.".

13. 22-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 22. Xüsusi notariusun peşə məsuliyyətinin icbari sığortası**

Xüsusi qaydada notariat fəaliyyətinin həyata keçirilməsi zamanı vurula biləcək ziyanın ödənilməsini təmin etmək məqsədilə belə fəaliyyətlə məşğul olmaq istəyən şəxs öz məsuliyyətini sığortalamalıdır.

Notarius baş vermiş sığorta hadisəsi barədə 10 gün müddətində müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidir.".

14. 23-cü maddə üzrə:

14.1. birinci hissədə "5" rəqəmi "1" rəqəmi ilə əvəz edilsin;

14.2. ikinci hissədə "sığorta girovundakı vəsait" sözləri "bu Qanunun 22-ci maddəsinə əsasən müəyyən edilmiş sığorta məbləği" sözləri ilə əvəz edilsin.

15. 24-cü və 25-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 24. Xüsusi notariusun təyin olunması və qeydiyyatı**

Notariat fəaliyyətinin həyata keçirilməsi üçün şəhadətnamə almış və icbari sığorta müqaviləsini bağlamış şəxs müvafiq icra hakimiyyəti orqanı tərəfindən xüsusi notarius təyin edilir və ona qeydiyyat vəsiqəsi verilir.

Müvafiq icra hakimiyyəti orqanı xüsusi notariusun qeydiyyat vəsiqəsini şəhadətnaməyə malik olan şəxsdən müvafiq ərizəni, xüsusi notarius kimi fəaliyyət göstərəcəyi müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış yer barədə sənədi və icbari sığorta müqaviləsinin surətini qəbul etdikdən sonra 10 gün müddətində verməlidir.

Xüsusi notariusun qeydiyyat vəsiqəsində onun etibarlılıq müddəti göstərilməlidir.

Müvafiq icra hakimiyyəti orqanı xüsusi notariusa qeydiyyat vəsiqəsinin verilməsindən dərhal sonra onun iş yeri

üzrə müvafiq icra hakimiyyəti orqanına bu barədə müvafiq məlumat verməlidir.

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən notariusun fəaliyyət göstərdiyi ərazi dairəsində dəyişiklik edilə bilər.

Xüsusi notarius qeydiyyat vəsiqəsini aldıqdan sonra 1 ay ərzində üzrlü səbəb olmadan və bu müddətin sonuncu günü müvafiq icra hakimiyyəti orqanı tərəfindən ona yazılı surətdə edilmiş rəsmi xəbərdarlığı nəzərə almadan 10 gün ərzində göstərilmiş iş yeri üzrə notariat fəaliyyətinin həyata keçirilməsinə başlamazsa, onun şəhadətnaməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən ləğv edilir.

**Maddə 25. Xüsusi notariusun işinin təşkili**

Xüsusi notarius öz fəaliyyətini notariat hərəkətlərinin aparılması üçün münasib olan, özünə məxsus və ya icarəyə götürülmüş və müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış ayrıca yerdə həyata keçirməlidir.

Hər bir xüsusi notariusun ofisi olmalıdır. İki və ya daha çox notarius müvafiq icra hakimiyyəti orqanının razılığı ilə aralarında bağlanılmış müqavilə üzrə bir ofisdə fəaliyyət göstərə bilərlər. Bu müqavilədə notariat ofisinə rəhbərlik edilməsi, notariat hərəkətlərinin aparılmasına dair iş bölgüsü, notariusların vahid və ya hər bir notariusun cari bank hesabının açılması, kargüzarlıq və mühasibatlığın aparılması, habelə birgə fəaliyyət ilə bağlı digər məsələlər əks olunur.

Xüsusi notarius mülki-hüquqi müqavilələr və əmək müqavilələri (kontraktlar) bağlaya bilər, banklarda hesablaşma və digər hesablar, o cümlədən valyuta hesabı aça bilər.

Xüsusi notarius ödənişli əsaslarla müvafiq icra hakimiyyəti orqanı tərəfindən notariat hərəkətlərinin aparılması üçün tətbiq edilən blanklardan və bu Qanunun 43-cü maddəsində göstərilmiş notariat hərəkətlərinin qeydi üçün reyestrlərdən istifadə edir.

Notariat ofisinin işçilərinin əməyinin ödənilməsi, istirahət vaxtı və məzuniyyət hüquqları Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun müəyyən edilir.

Xüsusi notariusun ezamiyyətə və ya məzuniyyətə getməsi müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılır.

Xüsusi notariusun iş rejimi, xüsusi notariat ofisinin ştat cədvəli və xüsusi notarius tərəfindən işə qəbul olunan namizədlər müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılır.

Xüsusi notariusun köməkçisinin təyin olunması bu Qanunun 25-1-ci maddəsi ilə tənzimlənir.

Notariat fəaliyyətinin əsas məqsədi mənfəət əldə etməyə yönəlmir.

Vergilər və digər məcburi ödəmələr ödənildikdən sonra notariat hərəkətlərinin aparılmasına görə tutulan haqdan və bu Qanunun 20-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş xidmətlərə görə alınan haqdan qalan pul vəsaitləri xüsusi notariusun sərəncamında qalır.

Xüsusi notarius tərəfindən müraciət edən şəxslərin xahişi ilə onlarla notariat hərəkətlərinin iş vaxtından sonra, istirahət və ya bayram günlərində aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Notariat ofisinə gəlmədən əvvəlcədən verilmiş bildiriş üzrə notariat ofisindən kənarda, habelə iş vaxtından sonra, istirahət və ya bayram günlərində notariat hərəkətlərinin aparılmasına görə haqqın məbləği müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş meyarlar əsasında hər bir xüsusi notariusun özü tərəfindən müəyyən edilir.".

16. Aşağıdakı məzmunda 25-1-ci maddə əlavə edilsin:

**"Maddə 25-1. Xüsusi notariusun köməkçisinin təyin olunması və xüsusi notariusun əvəz edilməsi**

Xüsusi notarius köməkçi vəzifəsinə bu Qanunun 3-cü maddəsi ilə müəyyən edilmiş tələblərə cavab verən namizədlə bağlı müvafiq icra hakimiyyəti orqanına müraciət edir. Bu Qanunun 5-ci maddəsinə uyğun olaraq keçirilmiş imtahan və müsahibədən müvəffəqiyyət qazanmış namizəd xüsusi notarius tərəfindən işə qəbul edilir.

Xüsusi notarius köməkçisinə aşağıdakıları həvalə edə bilər:

1) notariat hərəkətinin aparılması üçün sənədlərin hazırlanmasında iştirak etmək;

2) notariat ofisinin əməkdaşları tərəfindən əmək müqaviləsi ilə müəyyən edilmiş şərtlərin, öhdəliklərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə nəzarət etmək;

3) notariat hərəkətinin aparılması ilə bağlı müraciət etmiş şəxsləri qəbul etmək və qa-

nunvericiliyin tələblərini izah etmək;

4) xüsusi notariusun verdiyi digər tapşırıqları icra etmək.

Xüsusi notarius 5 gündən artıq müddətdə ezamiyyətə və ya məzuniyyətə getdikdə müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla həmin müddətdə əvəz olunmasını köməkçisinə həvalə edə bilər. Xüsusi notarius 5 gündən 6 ayadək müddətdə əmək qabiliyyətini fasiləsiz itirdikdə, müvafiq icra hakimiyyəti orqanı tərəfindən həmin müddətdə onun əvəz olunması həmin notariat ofisində işləyən köməkçiyə həvalə oluna bilər.

Xüsusi notariusun müvəqqəti olmadığı dövrdə köməkçi əvəz etdiyi xüsusi notariusun adından və onun möhüründən istifadə etməklə notariat hərəkətlərini aparır.

Əvəz edən köməkçinin əməyi xüsusi notariusun hesabına ödənilir.

Köməkçinin vurduğu ziyana görə əvəz etdiyi xüsusi notarius onunla birlikdə subsidiar məsuliyyət daşıyır.

Xüsusi notariusun əvəz olunduğu müddət onun şəhadətnaməsinin qüvvədə olduğu müddətlə məhdudlaşır.

Əvəz olunduğu müddət ərzində xüsusi notarius vəzifə səlahiyyətlərinin icrasını həyata keçirə bilməz.

Xüsusi notarius vəzifəsi vakant olduqda, müvafiq icra hakimiyyəti orqanı tərəfindən bu vəzifənin icra edilməsi 1 ildən artıq olmamaqla, həmin ofisdə köməkçi vəzifəsində ən azı 3 il işləyən şəxsə və ya digər xüsusi notariusa həvalə edilə bilər.

Vəzifəni icra edən köməkçi:

1) səlahiyyətlərinin icrasına başlamazdan əvvəl xüsusi notarius kimi and içməli;

2) notariat hərəkətlərini bu Qanuna riayət etməklə, öz adından və özünə məxsus möhürdən istifadə etməklə aparmalı;

3) vurduğu ziyana görə xüsusi notarius üçün müəyyən edilmiş qaydada peşə məsuliyyətini icbari sığorta etdirməlidir.

Onun əməyinin ödənilməsi bu Qanunun 25-ci maddəsinin onuncu hissəsi ilə müəyyən edilmiş vəsait hesabına həyata keçirilir.

Vəzifəni icra edən köməkçi notarius olmaq istədikdə, bu Qanunun 4-cü maddəsinin beşinci hissəsinə uyğun olaraq peşə hazırlığına dair müsahibədən keçməlidir.".

17. 26-cı maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 26. Xüsusi notariusun apardığı notariat hərəkətləri**

Xüsusi notarius bu Qanunun 17-ci maddəsində nəzərdə tutulmuş notariat hərəkətlərini aparır.".

18. Aşağıdakı məzmunda 26-1-ci və 26-2-ci maddələr əlavə edilsin:

**"Maddə 26-1. Xüsusi notariusun intizam məsuliyyətinə cəlb edilməsi**

Xüsusi notarius notariat hərəkətlərinin aparılması zamanı tətbiq edilən qanunvericiliyin tələblərini, habelə əmək və icra intizamını pozduğuna görə onun barəsində intizam tənbehinin tətbiqi müvafiq icra hakimiyyəti orqanının rəhbəri və ya onun müvafiq səlahiyyət verdiyi vəzifəli şəxs tərəfindən həyata keçirilir.

İntizam pozuntusunun mövcudluğuna dair məlumat olduqda müvafiq icra hakimiyyəti orqanı tərəfindən araşdırma aparılır, xüsusi notariusdan yazılı izahat alınır. Xüsusi notariusun izahat verməkdən imtina etməsi rəsmiləşdirilir və bu, intizam tənbehinin tətbiq edilməsinə mane olmur. İntizam pozuntusu ilə bağlı əsaslı şübhələr olduqda və yerində araşdırılması zəruri olan hallar yarandıqda müvafiq icra hakimiyyəti orqanı notariat fəaliyyətinə nəzarəti bilavasitə həyata keçirən qurumu vasitəsilə yoxlama təyin edir. Yoxlama bu Qanunun 14-cü maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş qaydalara uyğun aparılır.

Aparılan araşdırmanın nəticəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən xüsusi notariusa vəzifə funksiyalarının pozulması dərəcəsindən asılı olaraq intizam tənbehi kimi töhmət verilə, min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə tətbiq edilə, həmçinin bu Qanunun 7-ci maddəsində nəzərdə tutulmuş hallara müvafiq olaraq xüsusi notariusun şəhadətnaməsi ləğv edilə bilər.

Cərimə üzrə məbləğlər bu Qanunun 26-2-ci maddəsində nəzərdə tutulan məqsədlərin həyata keçirilməsi üçün Notariat Palatasının bank hesabına köçürülür.

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən cərimə tətbiq edilməsinə dair verilmiş bildiriş üzrə borc ödənilmə-

dikdə xüsusi notariusun milli və ya xarici valyutada cari və ya digər hesablarından vəsaitin müvafiq hesaba köçürülməsi haqqında kredit təşkilatına və ya bank əməliyyatları aparan şəxsə icra (ödəniş) sənədi olan sərəncam verilir.

Xüsusi notariusa intizam tənbehi bu maddədə nəzərdə tutulmuş əsaslar aşkar edildiyi gündən iki ay keçənədək verilə bilər. Xüsusi notariusun məzuniyyətdə, ezamiyyətdə olduğu, əmək qabiliyyətini müvəqqəti itirdiyi, habelə barəsində yoxlama və ya cinayət işinin istintaqı aparıldığı vaxt həmin müddətə daxil edilmir.

İntizam tənbehinin tətbiqinə əsas yaradan əməl törədildiyi gündən bir il keçdikdən sonra xüsusi notariusa intizam tənbehi verilə bilməz.

Töhmət intizam tənbehi verildiyi gündən bir il müddətində qüvvədə olur.

İntizam tənbehinin verilməsi əmrlə rəsmiləşdirilir. Verilmiş əmr üç gün ərzində xüsusi notariusa elan olunur və əmrin surəti ona təqdim edilir.

Xüsusi notarius intizam tənbehi tətbiq edilməsi barədə əmrdən inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

Aparılan araşdırmanın nəticəsinə uyğun olaraq xüsusi notariusa intizam tənbehi tətbiq olunmadan yazılı və ya şifahi xəbərdarlıq edilə bilər. Xəbərdarlıq intizam tənbehi hesab edilmir.

**Maddə 26-2. Notariat Palatası**

Notariat Palatası (bundan sonra - Palata) notariat xidmətinin inkişafı və təkmilləşdirilməsi məqsədilə, notariusların məcburi üzvlüyü əsasında yaradılan, fəaliyyətini özünüidarəetmə prinsipi üzrə həyata keçirən qeyri-kommersiya hüquqi şəxsdir.

Palatanın möhürü, emblemi, bank hesabı, müvafiq ştampları və blankları vardır.

Palata bu Qanun və nizamnaməsi əsasında fəaliyyət göstərir.

Nizamnamə Palatanın Ümumi yığıncağında qəbul edilir və müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınır.

Palatanın idarə olunması qaydası onun nizamnaməsi ilə müəyyən edilir.

Palatanın aşağıdakı səlahiyyətləri vardır:

1) müvafiq icra hakimiyyəti orqanına notariat fəaliyyətinin səmərəli təşkilində yardım etmək;

2) notariusların peşə hazırlığının artırılması məqsədilə təlimlərin və notarius olmaq istəyən şəxslərin hazırlığının təşkilində iştirak etmək;

3) notariat təcrübəsinin formalaşdırılması üçün notariat hərəkətləri üzrə ümumiləşdirmələr aparmaq;

4) notariat fəaliyyətini tənzimləyən normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanına təkliflər vermək;

5) digər ölkələrin notariusları, həmçinin beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək.

Müvafiq icra hakimiyyəti orqanı Palatanın üzvünü notariat fəaliyyətinin yoxlanılmasına cəlb edə bilər.

Palatanın üzvləri üçün üzvlük haqqının məbləği, bu məbləğin ödənilməsi müddəti və qaydaları Palatanın nizamnaməsi ilə müəyyən olunur.

Palata müvafiq icra hakimiyyəti orqanına illik hesabat verir.

Müvafiq icra hakimiyyəti orqanının rəhbəri Palatanın qanunvericiliyə zidd qərarına düzəliş edilməsini tövsiyə edə bilər.

Palata notariusların beynəlxalq təşkilatlarına üzv ola bilər.".

19. 29-cu maddə üzrə:

19.1. birinci hissədə "Dövlət notariusları" sözləri "Notariuslar" sözü ilə, "6-cı və 8-ci" sözləri "6-8-ci" sözləri ilə əvəz edilsin;

19.2. ikinci-altıncı hissələr müvafiq olaraq dördüncü-səkkizinci hissələr hesab edilsin və aşağıdakı məzmunda ikinci və üçüncü hissələr əlavə edilsin:

"Notariuslar bu Qanunun 17-ci maddəsinin birinci hissəsinin 1-ci və 7-ci bəndlərində nəzərdə tutulmuş notariat hərəkətlərinin ölkə ərazisində real vaxt rejimində videoyazı vasitəsilə (bundan sonra - videoyazı vasitəsilə) rəsmiləşdirilməsinə görə həmin hərəkətlərin aparılması üçün müəyyən edilmiş dövlət rüsumu məbləğində haqq tuturlar.

Notariuslar bu Qanunun 49-cu və 67-ci maddələrində nəzərdə tutulan notariat hərəkətlərinin xaricdə olan şəxslə videoyazı vasitəsilə həyata keçirilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 16.6.1-ci və 16.6.6-cı maddələri ilə müəyyən edilmiş dövlət rüsumu məbləğində haqq tuturlar.".

20. 32-ci maddənin onuncu, on birinci və on ikinci hissələri

müvafiq olaraq on ikinci, on üçüncü və on dördüncü hissələr hesab edilsin və aşağıdakı məzmunda onuncu və on birinci hissələr əlavə edilsin:

"Kredit büroları haqqında" Azərbaycan Respublikası Qanununun 16.1.10-cu və 16.1.11-ci maddələrində nəzərdə tutulmuş neqativ məlumatlar notariusların fəaliyyətlərinə aid olan hissədə müvafiq icra hakimiyyəti orqanı vasitəsilə "Elektron hökumət" portalında yerləşdirilir.

Lisenziyanın və icazənin, onun dublikatının və əlavəsinin verilməsinin, lisenziyanın və icazənin yenidən rəsmiləşdirilməsinin, dayandırılmasının, bərpasının və ya ləğvinin elektron qaydada həyata keçirilməsi məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məlumatlar lisenziya və icazə verən orqan tərəfindən müvafiq icra hakimiyyəti orqanının "Elektron notariat" informasiya sistemi vasitəsilə yoxlanılır.".

21. 33-cü maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 33. Notariat hərəkətlərinin aparıldığı yer**

Notariat hərəkətləri qanunvericiliyə əsasən dövlət notariusunun, xüsusi notariusun, müvafiq icra hakimiyyəti orqanının və ya Azərbaycan Respublikası konsulluqlarının vəzifəli şəxslərinin müvafiq yerdə aparmalı olduğu hallar istisna edilməklə, Azərbaycan Respublikasının bütün ərazisində aparıla bilər.

Notariat hərəkətləri notariat ofisində, müvafiq icra hakimiyyəti orqanı və Azərbaycan Respublikasının konsulluqları yerləşən binada aparılmalıdır.

Şəxs notariat ofisinə gəlmədən, əvvəlcədən verilmiş bildiriş üzrə dövlət rüsumu və haqlar ödənilməklə notariat hərəkətləri notariat ofisindən kənarda da aparıla bilər.

Şəxs notariat ofisinə gələ bilmədiyi hallarda verilmiş bildiriş əsasında notariat hərəkətinin aparılması vaxtı (tarix və saat) razılaşdırıldıqdan, dövlət rüsumu və haqq ödənildikdən sonra bu Qanunla müəyyən edilmiş notariat hərəkətləri notariat ofisindən kənarda olan müraciət etmiş şəxslə videoyazı vasitəsilə aparıla bilər.

Notariuslar müvafiq icra hakimiyyəti orqanının "Elektron notariat" informasiya sistemindən istifadə edirlər.".

22. 34-cü maddənin birinci hissəsinə "təqdim olunduğu" sözlərindən sonra ", habelə informasiya sistemlərindən əldə edildiyi" sözləri əlavə edilsin.

23. 45-ci maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Notariuslar "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini nəzərə almaqla, müqavilələrin elektron formada tərtib edilməsinə və imzalanmasına, onların, habelə videoyazı vasitəsilə əqdlərin təsdiq edilməsinə dair notariat hərəkətlərini bu Qanunun 27-ci maddəsində nəzərdə tutulmuş notariat hərəkətlərinin aparılması qaydaları haqqında təlimata uyğun olaraq həyata keçirirlər.".

24. 46-cı maddənin beşinci hissəsi ləğv edilsin.

25. 49-cu maddənin ikinci-altıncı hissələri müvafiq olaraq üçüncü-yeddinci hissələr hesab edilsin və aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Notariuslar videoyazı vasitəsilə etibarnamələrin təsdiq edilməsinə dair notariat hərəkətlərini bu Qanunun 27-ci maddəsində nəzərdə tutulmuş notariat hərəkətlərinin aparılması qaydaları haqqında təlimata uyğun olaraq həyata keçirirlər.".

26. 67-ci maddəyə aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Notariuslar tərəfindən videoyazı vasitəsilə ərizələrdə imzanın həqiqiliyinin təsdiq edilməsi ilə bağlı notariat hərəkətlərini bu Qanunun 27-ci maddəsində nəzərdə tutulmuş notariat hərəkətlərinin aparılması qaydaları haqqında təlimata uyğun olaraq həyata keçirirlər.".

27. 73-cü maddə üzrə:

27.1. adında "ərizələrinin" sözündən sonra "və sənədlərinin" sözləri əlavə edilsin;

27.2. birinci hissədə "ərizələrini" sözü "kağız və ya elektron daşıyıcıda olan ərizələrini və ya sənədlərini" sözləri ilə əvəz edilsin;

27.3. ikinci hissəyə "Ərizələr" sözündən sonra "və sənədlər kağız daşıyıcıda" sözləri əlavə edilsin və həmin hissənin ikinci cümləsi çıxarılsın;

27.4. üçüncü hissə ləğv edilsin;

27.5. aşağıdakı məzmunda üçüncü-beşinci hissələr əlavə edilsin:

"Kağız daşıyıcıda təqdim olunan ərizələr və ya digər sənədlər notarius tərəfindən başqa şəxslərə, həmçinin

texniki vasitələrdən istifadə etməklə informasiya sistemləri vasitəsilə də verilə bilər. Bu halda notarius kağız daşıyıcıda təqdim olunmuş ərizə və ya digər sənəd əsasında onun elektron nüsxəsini hazırlayır. Kağız daşıyıcıda olan ərizə və ya digər sənəd ilə hazırlanmış sənədin elektron nüsxəsinin eyniləşdirilməsi notariusun elektron imzası ilə təsdiq edilir.

Elektron formada təqdim olunan ərizələrin və ya digər sənədlərin məzmunu notarius tərəfindən hazırlanan kağız daşıyıcıya keçirilərək eyniləşdirilə bilər. Bu halda notarius ərizəni və ya digər sənədi göndərən şəxsin elektron imzasını "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yoxlayır, onu kağız daşıyıcıda çap edərək imzası və möhürü ilə təsdiq edir. Elektron ərizə və ya digər sənəd kağız daşıyıcıya keçirildikdən sonra bu maddənin ikinci hissəsində nəzərdə tutulmuş qaydada göndərilir.

Ərizələrin və ya digər sənədlərin başqasına verilməsi, habelə kağız və ya elektron daşıyıcıda olan ərizə və ya digər sənədlərin hazırlanmış elektron və kağız nüsxələri ilə eyniləşdirilməsi haqqında şəhadətnamə verilir.".

28. 74-cü maddədə dördüncü, beşinci və altıncı hissələr müvafiq olaraq beşinci, altıncı və yeddinci hissələr hesab edilsin və aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Daşınmaz əmlaka və daşınar əmlakın rəsmi reyestrlərində qeydə alınan əmlaka sərəncam verilməsi, habelə pul bağışlanılması, beh və borc verilməsi, eləcə də ilkin müqavilə üzrə ödənilən məbləğlə bağlı müqavilələr notariat qaydasında təsdiq edilərkən, pul vəsaitinin tərəflərdən birinin digərinə verilməsi və qaytarılması notariusun bankda açdığı depozit hesabı vasitəsilə həyata keçirilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 15 noyabr 2018-ci il*
*N 1334-VQD*

## "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 15 noyabr tarixli 1334-VQD nömrəli Qanununun tətbiqi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 15 noyabr tarixli 1334-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə

saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

2.1. "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinin on birinci hissəsinə uyğun olaraq, xüsusi notarius tərəfindən müraciət edən şəxslərin xahişi ilə notariat hərəkətlərinin iş vaxtından sonra, istirahət və ya bayram günlərində aparılması qaydasını üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. həmin Qanunun 25-ci maddəsinin on ikinci hissəsinə uyğun olaraq, notariat ofisinə gəlmədən əvvəlcədən verilmiş bildiriş üzrə notariat ofisindən kənarda, habelə iş vaxtından sonra, istirahət və ya bayram günlərində notariat hərəkətlərinin aparılmasına görə haqqın məbləğinin xüsusi notariuslar tərəfindən müəyyən edilməsi meyarlarını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 32-ci maddəsinin on birinci hissəsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

3.2. həmin Qanunun 3-cü maddəsinin səkkizinci hissəsində (ikinci halda), 4-cü maddəsinin beşinci hissəsində, 7-ci maddəsinin birinci, ikinci, dördüncü hissələrində, 7-1-ci maddəsinin birinci, ikinci, dördüncü hissələrində, 10-cu maddəsinin üçüncü, altıncı, yeddinci hissələrində, 14-cü maddəsinin yeddinci hissəsində, 16-cı maddəsinin üçüncü hissəsində, 20-ci maddəsinin ikinci hissəsində, 22-ci maddəsinin ikinci hissəsində, 24-cü maddəsinin birinci, ikinci (hər iki halda), dördüncü (birinci halda), beşinci və altıncı (hər iki halda) hissələrində, 25-ci maddəsinin birinci, ikinci, dördüncü, altıncı, yeddinci, on birinci, on ikinci hissələrində, 25-1-ci maddəsinin birinci hissəsində, üçüncü hissəsinin birinci və ikinci cümlələrində, doqquzuncu hissəsində, 26-1-ci maddəsinin birinci hissəsində, ikinci hissəsinin birinci və üçüncü cümlələrində, üçüncü, beşinci hissələrində, 26-2-ci maddəsinin dördüncü hissəsində, altıncı hissəsinin 1-ci və 4-cü bəndlərində, yeddinci, doqquzuncu, onuncu hissələrində, 32-ci maddəsinin onuncu, on birinci (ikinci halda) hissələrində, 33-cü maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

3.3. həmin Qanunun 24-cü maddəsinin dördüncü hissəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Vergilər Nazirliyinin yerli qurumları həyata keçirirlər;

3.4. həmin Qanunun 33-cü maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndələri həyata keçirirlər.

**İlham ƏLİYEV,**
**Azərbaycan**
**Respublikasının Prezidenti**
*Bakı şəhəri, 20 noyabr 2018-ci il*
*N 347*